MUSTAFA ZƏRİR

# YUSİF VƏ ZÜLEYXA

BAKI – 2006

MUSTAFA ZƏRİR

YUSİF VƏ ZÜLEYXA

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

BAKI – «ŞƏRQ-QƏRB» – 2006

Transfoneliterasiya edən və
ön sözün müəllifi:

Şaməddin Xəlilov,
filologiya elmləri namizədi

Redaktoru:

Məmməd Adilov,
filologiya elmləri doktoru

**Mustafa Zərir. Yusif və Züleyxa. Bakı: «Şərq-Qərb», 2006, səh.**

*XIII-XIV əsrlərdə Azərbaycan dilində meydana gələn ilk yazılı abidələrimizin mövzusu əsasən Qur'ani-Kərimdən götürülmüş Yusif və Züleyxa qissəsinə həsr olunmuşdur. Şərqi Anadoluda yaşayıb-yaradan Azərbaycan şairi Mustafa Zərir də bu mövzunu hicri 768-ci / miladi 1367-ci ildə nəzmə çəkmişdir. Abidənin orijinalı İstanbul Universitetinin kitabxanasında saxlanılır. Əsərin geniş oxucu kütləsinin*

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*sərəncamına təqdim etdiyimiz variantı ilk dəfə Bakıda 1991-ci ildə «Elm» nəşriyyatında işıq üzü görmüş elmi mətni əsasında hazırlanmışdır. Kitabın ön sözü mərhum alimimiz Şaməddin Xəlilovun tədqiqatı əsasında yenidən işlənmişdir.*

Azərbaycan Respublikasının Prezidenti

İLHAM ƏLİYEVİN

**«Azərbaycan dilində latın qrafikası**

**ilə kütləvi nəşrlərin həyata**

**keçirilməsi haqqında»**

12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və

ölkə kitabxanalarına hədiyyə edilir

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## ÖN SÖZ

XIII-XIV yüzilliklərdə yaranmış ilk anadilli yazılı abidələrimiz başlıca olaraq Şərqi Anadoluda və ya Şərqi Anadoluya həmsərhəd ərazilərdə meydana çıxmışdır. Yeni istiqamətdə inkişaf yoluna qədəm qoyan Azərbaycan ədəbiyyatı ilk dəfə məhz bu yerlərdən pərvazlanmışdır. Qazı Bürhanəddin, Ərzurumlu Qazı Mustafa Zərir, Yusif Məddah, Suli Fəqih və hələlik tarixin qatı dumanları içərisində gizlənən və adı müasir Azərbaycan oxucusuna və elminə bəlli olmayan onlarca sənətkarlarımızın zəngin bədii irsi bunu sübut edir. Əlbəttə, bu faktın çox dərin tarixi-siyasi, ictimai, mədəni və iqtisadi kökləri vardır. Həmin məsələlərin öyrənilməsi üçün imkan daxilində ilk anadilli abidələrimizin beşiyi olan Şərqi Anadoluya Azərbaycan tarixi vasitəsi ilə işıq tutmaq tələb olunur. Hələlik isə yalnız bunu göstərmək olar ki, keçən əsrin 20-40-cı illərinin görkəmli türk alimləri Fuad Köprülüzadə, İsmail Hikmət, Nihad Sami Banarlı, Tələt Onay və başqaları özlərinin müxtəlif səbkli tədqiqat əsərlərində yuxarıda adlarını çəkdiyimiz sənətkarlardan məhz «XIV əsr Azəri yazarları» kimi söhbət açmış, həmin şairlərin yaratmış olduğu bədii irsin ya birbaşa «Azəri ləhcəsində olduğunu», ya da dolayısı ilə «daha çox Azəri ləhcəsinə yaxın bir dildə yazıldığını» dönə-dönə qeyd etmişlər.

Türk alimləri Şərqi Anadoluda və Şərqi Anadoluya həmsərhəd ərazilərdə yazıb-yaradan XIV əsr sənətkarlarının böyük əksəriyyətini israrla «Azəri yazarları» adlandırdığı, «bu bölgələrdə Azəri ləhcəsinin hökmranlığını» qeyd etdiyi halda, Azərbaycan mütəxəssisləri uzun müddət həmin əsərlərin mətnini əldə etmək imkanından məhrum olmuş, ilk milli

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əlyazmalarımızın nəşr edilib yayılmasına və öyrənilməsinə macal tapmamışlar. XIV əsr Azərbaycan şairlərindən Suli Fəqihin 4800 beytlik, Mustafa Zəririn 2120 beytlik «Yusif və Züleyxa» poemaları, Yusif Məddahın 1700 beytlik «Vərqa və Gülşah» məsnəvisi yalnız keçən əsrin son onilliklərində ilk dəfə Bakıda nəşr edilib yayılmışdır.

* * *

Mustafa Zəririn şəxsiyyəti və mühiti haqqında məlumat olduqca azdır. Onun XIV əsrdə yaşadığını sübut edən və qəzəllərlə də zəngin olan «Yusif və Züleyxa» məsnəvisini yazdığı dövrü göstərən tarixi poemanın öz mətnindən öyrənmək mümkündür. Ədib əsərin sonunda göstərir ki:

Yedi yüz altmış səkizdə söylədim,
Buncılayın dastan şərh eylədim.
Pəs çaharşənbə günü başladım,
Yekşənbə günündə xətm eylədim.

Bu misralar əsərin miladi tarixlə 1367-ci ildə hansısa ayın çərşənbə günü ilə hansısa ayın bazar günü arasında yazıldığını, müəllifin həmin əsrin ikinci yarısında yaşadığını sübut edir.

Ərzurumlu Mustafa bin Yusif anadangəlmə kor olmuş və buna görə də əsərlərini «Zərir» (yəni: «zərər çəkmiş; zəlil»), bəzən hətta ana dilində «Gözsüz» təxəllüsü ilə yazmışdır. Kor olmasına baxmayaraq, möhkəm hafizəsi ilə seçilən Mustafa Zərir öz fəhmi ilə islam elmlərinin incəliklərinə yiyələnmiş və qazı rütbəsinə qədər yüksəlmişdir. Şairin şöhrəti az bir zaman içərisində Misir, Suriya, Anadolu ellərinə yayılmışdır.

Mənbələrdən məlum olur ki, Mustafa Zərir «Yusif və Züleyxa» poemasını yazandan sonra hicri 779-cu / miladi 1377-ci ildə Misirə səfər etmiş və beş il orada yaşamışdır.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şairin Misirə getməkdən əsas məqsədi Misir sultanını mədh etmək, onun hörmətini və səxavətini qazanmaq olmuşdur. Lakin Mustafa Zəririn bəxti gətirməmiş, Məlik Əşrəf Şaban düşmənləri tərəfindən qətlə yetirilmiş, Misir səltənəti Məlik Mənsur Əlinin hakimiyyəti altına keçmişdir. Buna baxmayaraq, Mustafa Zərir yeni sultanın da sarayına yol tapmış və buradakı şeir məclislərində iştirak etmişdir.

Mustafa Zərir Misirdə yaşadığı illərdə VIII əsr ərəb alimi İbn İshaqın «Kitabü-sirətir-rəsulillah» əsərini «Sirətün-nəbi» adı altında əsasən nəsrlə, yeri gəldikcə isə nəzmlə tərcümə etməyə başlamış, bu işi sonralar hicri 790-cı / miladi 1388-ci ildə tamamlamışdır.

«Siyər kitabı» və «Siyəri-Zərir» adları ilə də tanınan «Sirətün-nəbi» əsəri türkdilli xalqların ədəbiyyatında Məhəmməd peyğəmbərin həyatından bəhs edən ilk dini dastan sayılır.

Mustafa Zərir hicri 796-cı / miladi 1393-cü ildə Hələb şəhərinə getmiş və şəhərin naibi Əmir Çulpanın şərəfinə IX əsr ərəb tarixçisi Vahidinin «Fütuhüş-Şam» əsərini tərcümə etmişdir. Fuad Köprülü bu iki tərcümənin dili ilə əlaqədar göstərir ki, Suriya-Misir türk imperatorluğu sahəsində vücuda gələn bu əsərlər dil baxımından Azəri dairəsi məhsulları arasında sayıla bilər.

Beləliklə, ilk anadilli mətnlərimizin yaradılmasında XIV əsr şairi və tərcüməçisi Mustafa Zəririn xidmətləri layiqincə qiymətləndirilməlidir.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## BİSMİLLAHİR – RƏHMANİR RƏHİM

Ol rəsuli-əvvəlinü axirin,
Ol Məhəmməd Mustafa, salari-din.
Həqdən ana gəldi dövlət izzü cah,
Həm yarənləridir anın pişü rah.
Oldurur ol padişahi-müttəqin,
Ol Əbu Bəkri-səfa, sultani-din.
Ol ikinci yari Ömərdir benam,
Qıldı anı ol sahibi-kiram.
Birisi Osman, səfadır bahəya,
Ol birisi Şahi-Əli Mürtəza.
Baqi övladiylə əshabi-kiram,
Anları qıldı şərəf rəbbül-ənam.
Sən dəxi dilər isən, ey səfa,
Kim, şəfaət qıla yarın Mustafa.
Anlara sidqini qılsən bir məzid,
Xof yerindən olisərsən sən bəid.
Bilirəm şükri xudavəndə cəhan,
Söyləyəlim bir əcaib dasitan.
Ol güllə bülbüli şad edəlim,
Qissei-Yusifə bünyad edəlim.
Dinləyənlər ta ki, bulsunlar murad,
Anlıyənlər cani-könli olə şad.
Söz dənizinə dalıb qəvvasvar,
Ol dənizdə gövhəristan şahvar.
Çün çəkərsin zəhmət, ey fərxəndə ray,
Olmadı mehriylə hiç kimsə bay.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yol bulanları qolavuz eyləgil,
Ol dənizdə əşki əvəz eyləgil
Kim, bulasın gövhəri gövhərnihad,
Gövhər ilə işin olə cümlə şad.
Can qulağın aç, dinlə bir zəman,
Bir əcaib, bir qəraib dasitan.
Həq-təalə əmr qıldıvü şühud,
Həm mələklər ana qıldılar sücud.
Adəmin gəldi belindən ənbiya,
Bişümarü  bihesabü biriya.
Ənbiyanin biri sultani-kərəm,
Ol Xəlilüllahi-şahi-möhtərəm.
Həm Xəlilin iki oğlu var idi,
İkisi də böylə peyğəmbər idi.
Biri İsmayıl, İshaqdır biri,
Yə’qub İshaq  oğludur, ey din əri.
On ikidir oğlu Yə’qubun təmam,
Altı övrətdən doğubdur, ey hümam.
Hər birində iki oğlu var idi,
İkisi bir anadən doğar idi.
Ol ikisi bir anadən doğdular,
Ata-anə bir qərindaş oldular.
Eşit imdi qalanının adını
Kim, bulamın sən bu sözün dadını.
Biri Şəm’undur, Yəhudadır biri,
Biri Əlyun, biri İmran yol əri.
Biri Bəşir, biri Lavidir, bilin,
Biri Rəvil, biri Salun anlərin.
Biri Dadan, ol biri can idi,
Ol birisi Yusifi-Kən’an idi.
Biri Yamin, çün Yusifdən kiçi idi,
İlla Yusif babasının içi idi.
Qamu oğlənlərini ol elmi-din,
Ögrədərdi illa Yusifdən gəzin.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəhsi-elm daim anınlə qılır,
Ayruğinə çün həsəd andən qılır.
Yə’qubun dəvəsi, qoyunı çox idi,
Kimsəyə həm ehtiyacı yox idi.
Hər bir oğlinə verir üç bin qoyun,
Yusifə vermişdi altı bin qoyun.
Ol həsəd bünyadı həm andə bitər,
Bil, həsəddən neçə-neçə baş yetər.
Gəl həsəddən key saqın, ey bəxtli,
Olmasın, şeytan qılə sana qəlli.
Buncə peyğəmbərə nə qıldı ol,
Qatı düşməndir bizə ol şərr bol.
Eşit imdi Yusifin əhvalini,
Əvvəlində necə oldu halini.
Çünki doğdu Yusif, öldü anəsi,
Bir qəravaş aldı satın atəsi.
Yusifi ol qəravaş bəslər idi,
Bəsləyən anı xoş sevər idi.
Ol qəravaşın bir oğlı var idi
Kim, gülər üzlü gözəl dildar idi.
İkisin əmzirməgə süd yetmədi,
Yə’qub anın oğlunu həm tutmədi.
Qəravaşın satdı oğlun ol zəman,
Zari qılıb inlədi ol natəvan:
Netə kim məhrum qıldın sən bəni,
Satdırə oğlancığını ol qəni
Kim, hacət qapısı açıq idi məgər,
Hacəti oldu qəbul, ey mö’təbər.
Gəl sınıq könüldən özüni saqın
Kim, sınıq könül bilir tənri haqqın.
Eylə buyurdu xudavəndi-kərim,
Bən sınıq könüldə oluram müqim.
Rövşən oldu işbu qissə əvvəli,
Axırı həm duşdən oldi, ey vəli.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Eşit imdi qissei-Yusif sana,
Aydı verəm gər qulaq ursən bana.
Bəslədilər Yusifi e'zaz ilə,
Ulalubən elm oxurdi naz ilə.
Tənri bana ruzi qıldı bərcəmal,
Oldu ol sultani-xubani-cəmal.
Üzi qatində olurdu Ay xəcil,
Gün üzünü görsə, olur təngdil.
Ayü gün üzi qatində bir xəyal,
Hüsni vəsfi sığməz, ey pürkəmal.
Hər kim anın üzinə qıldı nəzər,
Əqli zail oldu, düşdi bixəbər.
Daima alırdı dürri-niqab,
Eylə kim, buludə girdi afitab.
Anı babası sevərdi can kibi,
Netə kim könüldəki iman kibi.
Bir dəm əgər görməsəydi üzünü,
Qəsd edərdi öldürə kəndözünü.
Qıldilər qərdəşləri bu gəz həsəd,
Ayıtdilər, Yusif bizə bağladı səd.
İmdi dinlə qissei-Yusif imam,
Qamu qissədən ol yegdir benam.
Bir rəvayət İbn Abbas eylədi,
Ol ki, təğyirdə kəlami söylədi.
Kim, nədən oldu nüzulinə səbəb,
Mustafayə verəydi ol fərdi-rəbb.
Müxtəlifdir neçə dürlü qövl ilə,
Bir-ikisini gətirəlim dilə.
Şahi təfsirdə bəyan edər məgər,
Qapı önündə oturmuşdu Ömər.
Nagəhani bir cəmaət gəldilər,
Ömər ilə bəhsi-qövğa qıldilər.
Elmlə yegdi qəvi oldu Ömər,
Mülzəm oldılər qəmu xurü həqir.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Arə yerdə bir yəhudi söylədi,
Nüktə qıldı, Ömərə gör nə dedi.
Ayıtdı, bizim yek kitabımız təmam,
Nə dəlilə dedin, sən, ziimam.
Ayıtdı, bizim dəftərimizdə xəbər
Qıldı Yusif qissəsin mö'təbər.
Ol sizin kitabinizdə varmı, bil,
Anı sizə vermədi Rəbbül-cəlil.
Anı eşitdi Ömər könlü məlul,
Gəldi Seyyidə dedi ol pürüsul.
Mustafayə söylədi bu dasitan,
Mustafa oldu məlul, ey dusitan.
Mustafa ol dəm minacat eylədi,
Tənri dərgahinə hacət eylədi.
Gəldi Cəbrayil, gətirdi bir xəbər,
Qissei-Yusif rəsulə mö'təbər.
Bir rəvayət budur uş, bən söylədim,
Bir rəvayət dəxi bünyad eylədim.
Ol zəman kim, hicrətə gəldi rəsul,
Məkkədən Mədinəyə qıldı nüzul.
Məkkədən yönəldilər çünkim bəri,
Evlərinin tərki urdı hər biri.
Tənri yolinə fəda qıldı bulər,
Axirət yolini möhkəm tutdilər.
Ayıtdilər kim, bizə olsa bir bəyan
Kim, anunlə əglənəydik bir zəman.
Bir əcaib qissə olsa, söyləyək,
Anunlə gönlümüzü əgləyək.
Gəldi Cəbrayil gətirdi bir bəyan,
Həm Kəlamüllah qisəs qıldı əyan.
Biri ol aşiqlərin bir gün məgər,
Dilədilər Mustafadən bir xəbər.
Əglənəydik, der, əya fəxri-cəhan,
Anınlə könlümüzü bir zəman.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dilədi həqdən rəsulül mürsəlin,
Verdi ol dəm surei-Yusif əmin.
Tənri Qur'andən bəyan qıldı məgər
Kim, ərəb dilincə, ey şahi-bəşər.
Verəydim sana Qur'an, ey həbib,
Ta ki, qövmün bilə bula həm nəsib.
Tənri aydır, ey Məhəmməd Mustafa,
Yegrəgini qissənin verəm sana
Kim, eşidənlər zövqi-can bula,
Aşiqə sidqlə din iman ola.
İbn Abbas eylədi şərhi-bəyan,
Neçələr kim, söylədi bu dasitan.
Bən fəqirü bu duaçı söylədim,
Dasitani-türki bünyad eylədim.
Gərçi kim, yox bəndə elmi-hünər,
Ey hünər əhli, kərəm qılın güzər.

## MƏCLİSİ-ƏVVƏL

Gər ola tovfiq tənridən güşad,
Sözə bünyad edəlim kim, ey ustad.
Eylə qılmışdır qisəs hökmi-xəbər,
Ayıdəviz təfsir ayati-mö'təbər.
Əvvəli bu qissənin oldur bəyan,
Bir gecə duş gördü Yusif nagəhan.
Gördü on bir ulduz ilə Ayü Gün
Səcdə qıldı Yusifə, ey zifünün.
Danla söylər babasına duşini,
Bildi Yə'qub andə Yusif işini.
Bildi duşdə gördigi sultan ola,
El, vilayət həp ana fərman ola.
Ayıtdı, oğlum, söyləməgil duşini,
Bilməsin qərdaşlərin bu işini.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hökm ilə bu sözü biri eşidər,
Əsli üzrə qərdaşlərin qandurər.
Nagəhan eşitdilər qərdəşləri,
Yusifə gör netdilər qərdəşləri.
Ayıtdilər kim, babamız sevərdi anı,
Bizə baxmaz, sevdigi – Yusif canı.
Ey neçə dürlü yalanlar söylədi,
Ta ki, babamızı məhbub eylədi.
Gördünüzmi, şol qədərcə avaz ilə
Babamızı aldadı bir söz ilə.
Buncılayın duşu bən gördüm, dedi,
Babamızı bir söz ilə aldədi.
Ayıtdılər, imdi necə çarə edəlim,
Dərilələim, bir müdarə edəlim.
Öldürəlim, aradən getsin füzul,
Andən oldu könlümüz yəvlaq məlul.
Ya quyuya bıraxalım biz anı,
Ta ki, andə ölə, ol verə canı.
Sonrədən ol işdə tövbə qılalim,
Nə gəlirsə Həqdən, anı görəlim.
Söylədi ol dəm Yəhuda anlərə,
Andə daxı qərdaşlarə, yaranlərə.
Ayıtdı, öldürmək bizə anı xəta,
Quyuyə bıraxalım dersək, rəva.
Quyuyə bıraxalım dedi bunlər,
Durdılar, Yusif qatinə gəldilər.
Ayıtdilər kim, yazuyə çıxmazmısın,
Bir təmaşayə gedibən baxmazmısın?
Qoynumuz otlaği xürrəmməkan,
Andə bitər... gülü reyhan ərğəvan.
Ancə ögdi bağı, bostanı bunlər,
Meyli oldu Yusifin, könlü dilər.
Al ilə Yusifi razı qıldilər,
Durdılar babalərinə gəldilər.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ayıtdilər kim, ey baba, bizə nolə,
Yusifi qo kim, təmaşayə gələ.
Açılaydı Yusifin könli, gözi,
Həm təmaşa qılə ol qoyun, quzi.
Evdən anı tışrə qoymaz atasi,
Bilir idi kim, hekayət niyyəti.
Ayıtdı, Yusif evdən çıxmaz, siz varin,
Hər biriniz işli işinizə gedin.
Gəldi andən çün Yusif dəstur dilər,
Yazıyə çıqmaqlığa könlün bilər.
Ayıtdı, qərdaşlərimə sən bəni,
Qoy təmaşayə varayım bu güni.
Necə kim yalvardı, çarə bulmədi,
Babası iqrarə hərgiz gəlmədi.
Aqibət qərdaşləri dərildilər,
Yalvarıb Yə'qubi razı qıldilər.
Ayıtdı, Yusif candürür, bən həm təni,
Olmiyə kim, qurda verəsiz ani.
İmdi ani bən sizə ismərlədim,
Geri bana tez gətirin uş dedim.
Anlərə Yə'qub qurdu andırır,
Qurdə bunlər ol saət böhtan qılır.
Aldilər bunlər Yusifi, getdilər,
Öyləlik yolə dəkin getdilər.
Kim qoyun qatində oturur məgər,
Yusif andə oynar, hər yanə gülər.
Ayıtdilər, bilirmisin netdügün,
Babamız yanində səni ögdügün.
Necə dürlü söylədügün yalanləri,
Necəsi söyliyə bildin anləri.
Duşdə gördüm, dedin, anı, ey hüsud,
Ayü ulduz kim, bana qıldı sücud.
İmdi bu gün səni öldürmək gərək,
Netdügini sana bildirmək gərək.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sundilər Yusifi, tutdular bunlər,
İki əlin ardinə bağlədilər.
Bildi Yusif halının netəsini,
Ağladı, yad eylədi atəsini.

## FİRQƏTNAMEİ-YUSİF ƏLEYHİS-SALAM

Ta ki, gözündən Yusif tökdü gülab,
Gül üzünə saçdı abi-seylab.

Ayıtdı, baba, naz ilə bəslədigin,
Öldürür işbu cəmaət başitab.

Qanı bənim İbn Yamin qərdaşım
Kim, verəydi bunlarə bu dəm cəvab.

Halimi bilsəydi ol babam bənim,
Gəlibən bunlərə qılseydi itab.

Nə qılayıbən bən yalınız qalmişəm,
Həqdən ola bana bundə fəthi-bab.

Sana sığındım bu dəm, ey dəstigir,
İşbu qərdaşlar bana qılmaz cəvab.

## NƏZMİ-QİSƏS

Bəni öldürmək dilər zəcrilə,
Netdim ola bunlərə, suçum nolə.
Necə kim, yalvardı, çarə olmadı,
Yusifə bunlər şəfaət qılmadı.
Bulmadı çarə bunlərdən ol zəman,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yalvarırdı, ey Yəhuda, ey cəvan.
Sən qoma bunlər bəni öldürməgə,
Həsrətimi babamə bildirməgə.
Bəni babam sizlərə ismərlədi,
Geri bana tez gətirin, - dedi.
Üştə bana siz qılırsız cövri-kin,
Necəsi unutdunuz qərdaş həqqin.
İləri gəldi Yəhuda, söylədi:
Urmın, öldürmin, - deyü cəhd eylədi.
Bir quyu var idi andə, ey əziz,
Ortası sudur, sanasın kim, dəniz.
Yusifi ol quyuyə gətirdilər,
Dəlv içində qoyubən götürdülər.
Ol quyuyə getdi Yusif bir zəman,
Dəlv ipin tutdu Yəhuda, ey cəvan.
Əmr qıldı Cəbrailə birbar,
Tez iriş, tut Yusifi, der kirdgar.
Bir səki boyuncə qıldı kim, suyə irə,
Suyə düşə, andə canını verə.
Gəldi tutdu andə qanadilə Cəbrail,
Qanadı üstündə anı tutdu, bil.
Ol quyudə bir uluca daş olur,
Su içində daima ol daş olur.
Qüdrətilə anı yaratmış əlim,
Gözlərindən qan tökər seylabvar.
Gəldi Cəbrail həman dəm əmrilə,
Yusifin qatinə söyləşdi belə.
Ağlama, - dedi, - əya, xuzüz-zəman,
Eylə buyurdu xudavəndi-cəhan.
Cah içində tənri səni qurtarə,
Səltənət təxtində xoş dövlət verə.
Sana möhtac olalər qərdaşlərin,
Həm qəbilə, qövmün, yoldaşlərin.
Qul kibi qapında duralər qəmu,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sən qılasən bunlarə nazi-ulu.
Eylə dedi Cəbrail, getdi həman,
Qaldı Yusif quyu dibində ol zəman.
Ravilər bundə rəvayət eylədi,
İki qol üzrə hekayət eylədi.
Biri üç gün, biri yedi gün qaldı, der,
Yusif ol quyudə məhzun oldu, der.
Qaldı Yusif, getdi həm qərdaşləri,
Eşit imdi netdilər qərdaşləri.
Dərilib bir arayə danışdilər,
Babamizə nə deyəlim, dedilər.
Qurd yedi, deyəlim, anı, biz ana,
Meyli var idi zira qurtdən yəna.
Qılalım xizmət ana bürhan ilə,
Biz bu yoldə duruşalım can ilə.
Ta ki, bizdən razı olə pirimiz,
Gərçi getdi ara yerdə birimiz.
Bir kiçi oğlağı boğəzlədilər,
Dərisiylə ətini gizlədilər.
Axər ilə çıxdı su üzünə daş,
Qaldı Yusif ol daş üzrə bafəraş.
Gözlərindən tökdü ol dürdanəsin,
Sünbülü tər qıldı gül-no sanəsin.
Çünki Yusif endi ol daş üstünə,
Başladı ol şe'r söyləməklik qəsdinə.

* * *

Ayıtdı, babam bildi gər halim bənim,
Bu quyudə nədir bənim əhvalim, bənim.

Ey diriğa, həsrəti-dərdi fəraq,
Ruzi qıldı bana sübhanim bənim.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Uş ölürəm bu cəhanə doymədin,
Olamı bu dərdə dərmanim bənim.

Bana əğyar olubən artırdilər
Zari-həsrət, dərdi-əfğanim bənim.

Yar olə, derdim, bana qərdaşlərim,
Olmadilər həmyar sultanim bənim.
Bitmədin gülüm soldu, oldu nihan,
Sünbülüm soldivü reyhanim bənim.

Qandədür, baba, quzicağin sənin,
Quyudə bəndə yatır canim bənim.

## NƏZMİ-QİSƏS

Görmüyəsər gözlərim ayruq səni,
Çərx ayırdı uşbu gün səndən bəni.
Uş quyu dibində qaldım bən zəif,
Sevgili babamdən ayrıldım nəhif.
Aydır idi, ağlər idi zari-zar...
Yusifin kömləgini anın qaninə
Buladilər Yusifin kömləginə.
Ağlayu atalərinə gəldilər,
Kömləgi Yə’qub önünə qoydilər.
Görübən Yə’qub anı ah eylədi,
Kəndusinə dərd həmrah eylədi.
Ayıtdı, qanı, Yusifi netdiniz,
Alıbən anı qatimdən getdiniz.
Ayıtdılar, baba, nə deyəlim biz sizə,
Bir əcaib vaqiə gəldi bizə.
Biz ol vəqt qoyun qatinə yürüdük,
Qoyunumuz dağılmasın, der idik.
Əsbab qatində Yusif oturür,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəldi bir qurd ta ki, anı götürür.
Ta ki, biz irincə anın qatinə,
Gör nə qıldı Yusifin zatinə.
Döndü Yə'qub aydır, ey oğlanlərim,
Yalan ayıdırsız bu sözü, canlərim.
İşbu Yusif qanı degildir yəqin,
Neylədiniz Yusifi, ya əhli-din.
Gəldilər oğlanləri gör netdilər,
Bir qurdi gördülər bunlər, tutdilər.
Açdilər ağzını ol biçarənin,
Qan doliydi dişləri avarənin.
Aldılər gətirdilər anı rəvan,
Ataları qatinə əndər-zəman.
Ayıtdilər, Yusifi yeyən qurd budur,
Ol zəman Yə'qub qurda and verür.
Ayıtdı, ey qurd, bir çələb, tənri həqqi,
Söylə sözün, saxlama bəndən dəxi.
Sənmi yedin Yusifi, söylə bana,
Tənri dil verdi, cəvab ayıdır ana.
Ayıtdı, - yemədim, bana böhtandır ol,
Tənri həqqi, bil, bana böhtandır ol.
Çünki böhtan oldu bana bu xəbər,
Bən dəxi ət yeməyim, ey bəxtəvər.
Ol zəmandən bu zəman, ya əhli-din,
Ol vilayət qurdu ət yeməz yəqin.
Yusifin kömləgini Yə'qub alır,
Üzinə sürür, dönüb ah eylər.
Ancə ağladı, görməz olur gözləri,
Gecə-gündüz dildə Yusif sözləri.
Yə'qubə bir gün daxı, ya əhli-din,
Gəldi həm əmrilə Cəbrail əmin.
Tanri əmrin üzrə qıldı əyan,
Dedi Yə'qub Cəbrailə ol zəman.
Yə'qub aydır Cəbrailə kim, Yusif,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bilmədim ki, qəncəru getdi Yusif.
Sən bilirsən, bir xəbər versən gərək,
Yusifin əhvalini bilmək gərək.
Cəbrail ol dəm münacat eylədi,
Yusifin sözünə hacət eylədi.
Cəbrailə gəldi tanrıdan xitab,
Yusif üçün Yə’qubə qıldı itab.
Oğlun oğlənlərinə ismərlədi,
Yavi qıldı bizə nə ismərlədi.
Gər bana ismərləyəydi Yusifi,
Geri bəndən bulayadı Yusifi.
Çün eşitdi Yə’qub andən bu xəbər,
Bildi kim, kəndidən olmuşdur xətər.
Hüzn oturub əfğan ilə,
Həm fəraq odinə yanərdı can ilə.
Çünki dedin Yə’qubun əhvalini,
Necə oldu gör Yusifin halini.
Gəldin imdi Yusifin əhvalinə,
Gör nə qıldı tanrı anın caninə.
Ol quyu dibində ağlər zari-zar,
Eşit imdi neylədi pərvərdigar.
Qüdrətiylə gəldi karbani-əzim,
Quyu üzrə qondilər andə vəlim.
Kariban içində bir ər var idi,
Kariban xəlqinə (ol) salar idi.
Malik idi adı ol İbn Toğər,
Yusifin həqqində gör kim, nə edər.
Bir neçələr gəldi qapı qatinə,
Ol quyudən su çıxarmaq yatinə.
Saldilər dəlv içinə ol zəman,
Yusif anı gördü oldu şadman.
Əyağini dəlv içinə qodi,
Tutdi ipin, tanrı adın oxudi.
Çəkdilər anı yuxarı, gördülər,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Pirmidir deyü təəccüb qıldilər.
Ayıtdı, adəm oğliyəm, məzlumi-din,
Güc qılubdirlər bana bundə yəqin.
Gər bu gəz qərdaşləri nə deyisər,
Yedi dəbbə aşuru qoyun küdər.
Günəş nuri qılmadı çün gördülər,
Çıxdı Yusif ol quyudən bildilər.
Tez gəlib dəbbəyə çün çıxdilər,
Dəbbədən aşağıyə həm baxdilər.
Karbani gördü (çün) qərdaşlari,
Andə gəldi bunlər cümlə vari.
Gördülər kim, Yusifi andə durur,
Xəlq içində anı təmaşə qılur.
Kimi firiştədir, kimi pəri, kimi hur,
Xəlq qamusı hüsnünə heyran olur.
Dilədi Yusif ki, andə söyləyə,
Kəndi vəsfi-halini şərh eyləyə.
Xəlq içində görünür İmran ana,
Ayıtdı, durgil, ta cəza qıldım sana.
Söylədi ibri dilincə sözini,
Ayıtdı din dur, öldürrəm bən səni.
Qorxdu Yusif, bunlər gəldilər,
Durdilər Yusifə bunlar yalvarürlər.
İmran aydır, qulumuzdur bu bizim,
Qaçıcı quldur daxı dinlə sözüm.
Qaçdı bizdən, bizdən gizləndi,
Öldürəvüz, yaxud satarız özün.
Malik aydır, satınız anı bana,
Bəndən artıq müştəri yoxdur ana.
Karban əhli təəccüb qaldilər,
Yusifin cəmalinə heyran oldilər.
Kimsə ana olmadı heç müştəri,
Ayıtdilər Aymı, Günəş, ya Müştəri?
Ol qədər xub idi Yusif, ey cəvan,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Vəsfə sığməz xubluğu, budur bəyan.
Ayıdayım bir şəmmə hüsnündən anin,
Dinləgil, gər var isə canin sənin.
Eylə buyurdu qisəsi-hökmü xəbər,
Şərhi həm təfsiri-ayati-mö'təbər.
Yeyicək kim, Yusif ol dəm yer idi,
Taşrə boğazındə görünür idi.
Ayinədə gördi bir gün üzünü,
Yusif andə görisər kəndözünü.
Ayıtdı, gər bən qul oleydim böylə xub,
Kim bana verə bəha satın alub.
Həq-təala dedi, ey Yusif, sana
Kəndözün gördün sığınmadın bana.
İzzətim həqqiçün bəhanı göstərəm,
Azacıq nəsnəyə səni satdırəm.
Kəndözünü görmə sən sahibcəmal,
Olmasın gələ, sana andan vəbal.
Kəndözünü gördü Yusif bir zəman,
On səkkiz ağçayə satdılar həman.
Gəldi imdi çün Malik ibn Doğər,
Qəsdi qıldı Yusifi almaq dilər.
Malik aydır, ağçam azdır, nedəlim,
Anlər aydır, nə verirsən aləlim.
Ayıtdı, şimdi nə qədər ağçə vari,
On səkkiz Misr ağçəsidir hər biri.
Ayıtdilər, verdik sana, gətir bəri,
Al bu qaçıcı qulu sən get geri.
Satıbən ağçəsini çün aldilər,
Hər biri ikişər ağçə buldilər.
Bir lətifə söyləyəlim bundə bən
Kim, anı həm eşq ilə dinləyəsən.
Nə səbəbdən Malikə satdırdı həq,
Eşit imdi bunu, ey sahibvərəq.
Qafilədə ancılayın bir dəxi,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yox idi din əhli, zahid müttəqi.
Yusifə ari nəzər qılmışdı ol,
Ol nəzərlə oldı dərgahə qəbul.
Yusifin ariliyində həq ana
Ruzi qıldı Yusifi andən yəna.
Ta ki, getdi bir zəman andən dəxi,
Söyləyəlim Misrə getdigin, əxi.
Aldilər Yusifi oldilər rəvan,
Misrə yönəldilər anlər dərzəman.
Bir dəvəyə Yusifi bindirdilər,
Misr elinün yolinə yönəldilər.
İşbu əvvəl dasitan oldu təmam,
Bir dəxi dinlənin hekayəti – vəssəlam.

## MƏCLİSİ-DƏVVOM VƏS-SANİ

Eşit imdi bir hekayət ayıdəlim,
Bu ikinci məclisi yad edəlim.
Getdi Yusif ağlayu, ey dusitan,
Babasın anar idi qılıb fəğan.
Gedər ikən yolu sinlərə irər,
Anasının sini andə idi məgər.
Ah qıldı, dəvədən düşdü yerə,
Kişi kəndi anasın sinin görə.
Anasının sini üstünə gəlir,
Sini qucər, ağlər, zari qılır.
Ağlər, aydər, ey ana, bən nə edəlim,
Cəbrə düşdüm, necə tədbir edəlim?

## ŞE’Rİ-YUSİF

Bəni uş qərdaşlərim qıldı əsir,
Əldən-ələ satdılər xurü həqir.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Söylər isəm, qərdaş öldürür bəni,
Söyləməzsəm, nedəyim canim ərir.

Anacığım, quzicağıni sənin
İrər dövran çərxi-fələk, ey xərir.

Nə qılayım, firqət odu canimi
Yaxdı vüslət suyi, oldu nagizir.

Sevgili yarənlərimdən dərd ilə
Çərxi-qəddar ayırıb, qıldı fəqir.

Görisərmi gözlərim ayruq əcəb,
Babamin görklü üzünü, ey nəzir.

Anadən öksüz qalıb, həm atadən,
Uş əsir ilətiblər, olmışəm əsir.

Şimdidən geri bana gülmək həram,
Ağlamaq oldı həlal, ey dəstgir.

**MƏSNƏVİ**

Dəstgir oldur qəmu qalmışlərə,
Ahü dərdə mübtəla olmışlərə.
Sin üzrə qaldı Yusif ağlayu,
Od içində yaş gözündən çağlayu.
Üzari məgər ilərü kariban,
Bir dəvəçi irdi ardından rəvan.
Yusifi gördü oturmuş zarilə,
Tutdu kafir anı çəkər zorilə.
Bir tabəncə çaldı ol gül üzünə,
Ahi qıldı Yusif ol dəm özünə.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gögə tutdu üzünü, ah eylədi,
Ahi-Yusif dərgahə rah eylədi.
Bir bulud çıxdı həman ol saət qərə,
Eylə yağdı, doldu yazı-dərə.
Dolu yağdı daş ilə, yağmur ilə,
Karbanə tanrıdan gəldi bəla.
Çox dəvə qırıldı, adəm dəxi,
Seyl içində qaldılar, der, ey əxi.
Ol xəlayiq cümlə zari qıldilər,
Durdular Yusif qatinə gəldilər.
Ayıtdilər, bu ibri oğli ağlədi,
Bu qəzadır, üstümüzə sağlədi.
Ol xəlayiq əyağinə düşdülər,
Qamu Yusif çevrəsinə üşdülər.
Tövbə qıldıq dedilər, ya əsli-pak,
Halın xoş tut, əya, olduq həlak.
Yusifin çün aldilər könlün ələ,
Ol qəza sovuldu, girdilər yolə.
Yusif üçün bir məhafə düzdülər,
Yusifi Kən’an elindən üzdülər.
Getdi Yusif, bundə qalsın dasitan,
Dinləyəsən bir qissə, ərz edim bəyan.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## DİDƏNİ-YUSİF DƏR VAQİƏ

Bir dəxi hekayət söyləyim, ya giram,
Biz bu qissə şərhin edəlim təmam
Kim, necədir vəsfi-hali-dasitan,
Həm Züleyxa sözün edəlim bəyan.
Məğrib elində məgər bir şah olur,
Qızıdır anın Züleyxa, mah olur.
Padişahın ayruq oğlı yox idi,
Malü mülki, elü vilayət çox idi.
Ol qızın adı Züleyxadır, benam,
Zöhrə anın hüsnü qatində qulam.
Boyu sərvə bənzər, incədir beli,
Cümlə aləm aşiqidir, şəhr eli.
Gözü nərgisdən xərac alır idi,
Zülfü sünbül, Ayə tac olur idi.
Dodağından şəkər olurdu kəsad,
Yənağindən alma eylərdi məzad.
Söyləyicək dürri-mərcan saçılır,
Lə’l içində gövhəri-kan açılır.
Bir gəz anın üzüni görən kişi
Əqli heyran olur, şaşır dişi.
Yedi sultan oğlu gəlmiş ana,
Hər biri anı diləməkdən yana.
Razı olmazdı Züleyxa anlərə,
Diləməzdi könlü anlərə varə.
Duşdə gördü bir gecə ol bakəmal,
Qüdrəti-yəzdan bir oğlani-pürcəmal.
Aşiq oldu, könlün ana bağladı,
Eşq odiylə cigərini dağladı.
Sordu ana, qandə olursın, nigər,
Ayıtdı, bəni istəyən Misrə irər.
Uyqudən oyandı nagah, ey ulu,
Gördü olmuş eşq ilə içi dolu.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Söyləmədi kimsəyə, həm oldu lal,
Günbəgün incəlibən oldu hilal.
Vardığıncə qalib oldu eşq anə,
Nərgisi tər su saçar güldən yanə.
Soldu nərgisləri, oldu biqərar,
Eşq əlində ağlər idi zari-zar.
Canı, könlü eşqə tutuşdu əcəb,
Vəsfi-mə’şuq eylədi ol ruzü şəb.
Atasinə söylədilər vəsfi-hal
Kim, Züleyxadən gedibdir məcal.
Bilməziz aşüftə oldu nagəhan,
Qatinə gəldi atası ol zəman.
Gəldi anası dedi, noldu sana.
Çarə, dərman edəyim şayəd sana
Kim, nədür əhvalin, aydı ver bana,
Dedi duş gördügünü ol dəm ana.
Sirri ol dəm bir yanə qoydu nigar,
Dedi, ana, aşiq oldum biqərar.
Ayıtdilər kim, qandə ol mə’şuqi-can,
Qandə bulalım, əya, xubüz-zəman.
Ayıtdı, anı Misr içində siz görün,
İstəyənlər andə bulurlar, bilin.
Gəldi anası, dedi atəsinə:
Aşiq olmış qızın adəm xasinə.
Şah buyurdu, andə namə yazdilər,
Xoş ibarətlərlə anı düzdülər.
Ey şahənşahi-cəhan, Misri-həkəm,
Səltənət kanivü həm şahi-həşəm.
Şəhriyari bir qızım var bakəmal,
Görün anın hüsnünü bimisal.
Necə sultanlar dilədi, varmədi,
Bir kimsəyə könlü razı olmədi.
Duşdə gördü, sizə verdi eşqini,
Bağlayıbdır sizə külli-sidqini.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İmdi mə'lum olsun, ey şahi-cəhan,
Bu hekayəti sizə qıldıq bəyan.
Ol zəman Misrdə bir şah var idi,
Şahi-Rəyyan idi həm anın adi.
Şahi-Misrin bir vəziri var idi,
Xoş kişi idi, həm sipahsalar idi.
Həm anın adı dəxi Misri-Əziz,
Ol alıb tutdu Züleyxayi təmiz.
Misr elindən Məğribə, ey cani-mən,
Altı aylıq yol idi, bil bunu sən.
Altı aydə Misrə yaxın gəldilər,
Xəbəri Əzizə çün bildirdilər.
Çün Əziz eşitdi anı, durdı tez,
Qarşıladı anləri ol dəm Əziz.
Qasidi qondurubən verdi otaq,
Anı doylamaq üçün qıldı yaraq.
Bilcəgiz namənin məfhumunı,
Dilərəm mə'qul görəsiz anı.
Ayıtdilər: Qasid irişdi, ya əmir,
Məğrib ətrafində, ey şahi-nəzir.
Qondurub qasidə verdilər otaq,
Anı doylamaq üçün qıldı yaraq.
Naməsin aldı oxudı, bildi hal,
Canı şad oldu, könlü biməlal.
Yazmış idi ki, ey şahənşahi-cəhan,
Ey Əzizi-Misr, məhbubi-zəman.
Misr Məğribdən irağidi məgər,
Altı ayda varər edənlər səfər.
Bilmədilər şahi-Rəyyan kim olur,
Ya Əzizi-Misrə kim şahənşah olur.
Naməsində yazmış idi: Ya əmir,
Bir qızım vardır cəhandə binəzir.
Ay anın üzü qatində bir xəyal,
Günəşə bənzər ol sahibcəmal.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hüsnünə heyran olur xubani-Çin,
Rum elində misli yoxdur, nazənin.
Dilədilər bəndən anı, ey Əziz,
El, vilayət verdilər həm gənci-bez.
Kimsəyə könlü hicabə qılmadı,
Eşqi, sidqi kimsəyə olmadi.
Duşdə görmiş sizi, ey şahi-cəhan,
Sizinlə meyli olmuşdur əyan.
Uş sizə mə'lum qıldıq bir xəbər,
Naməyə yazın bir cəvab, ey bəxtəvər.
Çün Əzizi-Misr eşitdi əyan,
Könlü şad oldu, sevindi əqlü can.
Naməyə yazdı cəvab ol dəm xəbər,
Veribdi malü gəncü simü zər.
Qul, qəravaş, qatır, rəxti-qumaş,
Belə verdi kim, qılısərlərdir məaş.
Altı aydə geri andə gəldilər,
Padişahə həm xəbər bildirdilər.
Qarşı gəldilər ana mirü vəzir,
Şəhr xəlqi qamusı pürnaveyi-pir.
Qondurub e'zazü ikram eylədi,
Xəl'ətü ne'mətlər ən'am eylədi.
Yarəğin eylədilər həm eyşü toy,
Ol dügündə doydu xəlqi-şəhrü köy,
Bəzədilər gərdəgi gümüş saray,
Ol dügünə gəldilər yoxsulü bay.
Şah qızın göndərməgə qıldı yəraq,
Misr idi kim, zira andə yəraq.
Bin qəravaş, bin qul anın ilə,
Bin qatır, bin dəvə dəxi belə.
Lə'lü yaqutü cəvahir, gəncü mal,
Bihesab altun, gümüş, dürr bimisal.
Bir məhafə düzdülər kim, ol nigar
Anunlə belə vardı şəhriyar.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yaşıl atlasdır imari ortası,
Lə’lü incidir mürəssə’ qamusı.
Döşədilər döşək içində hərir,
Ta kim, andə girə ol bədri-münir.
Padşah çün kim yərağın eylədi,
Ne’mətilə xəlqi qamu doylədi.
Baələm, batəbil qızın göndərir,
Çıxdı bir mənzil buları göndürür.
Padişah döndü, bunlər oldu rəvan,
Qızı mə’şuqinə irür şadman.
Altı aydə geri Misrə gəldilər,
Tez Əzizi-Misrə xəbər qıldilər.
Qarşı çıxdı baələm, təbli-həşəm,
Şəhr xəlqi qəmu gəldilər behəm.
Ne’məti-aləm gətirdilər belə,
Beş yüz qızıl təbəq götürdü belə.
Hər biri xubani-aləmi-mahru,
Ol təbəqlər lə’lü incidir dolu.
Kim Züleyxa üzrə qılısərlər nisar,
Qarşı göründü imari-nigar.
Yer üzünə döşədi bezləri,
İki yanə durdi huri qızləri.
Ne’mətilə doyladilər nə ki, var,
Dürrü cövhər qıldilər cümlə nisar.
Çu göründü qarşidən təbli-həşəm,
Kim, Əzizi-Misrə gəldi bahəşəm.
Qıldilər ol dəm Züleyxayə xəbər
Kim, nigara, mə’şuq irdi uş məgər.
Çünkim eşitdi, oldu canı şad,
Açdı qapıyı kim, görinə ol qubad,
Ayıtdı, qanı ol nigarim bənim,
Göstərin kim, şad ola canim bənim.
Ayıtdilər, şol qədər kim, qarşidən gəlir,
Çün Züleyxa gözləri anı görür.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ah edər, əqli gedər, ol dəm nigar,
Yerə düşdü ol zəman biçarəvar.
Saçdilər gül suyun ol dəm gül üzə,
Əqli gəldi, gül üzün dilər üzə.
Ayıtdilər, ey nazənini-simü tən,
Sana nə gəldi, aya xubi-Xütən?
Ayıtdı, axır bu degil könlüm alan,
Duşim içində bana məhbub olan.
Ey necə zəhmət, diriğa, çəkmişəm,
Buncə malü ne’məti ki, tökmüşəm,
Qamusı oldu həba, ömrü hiç,
Gəldi bana ruzigarim piçə-piç.
Bənzi bozardı, saraldı gülüzar,
Ah qıldı, ağlədi ol zari-zar.
Dayələr ögütlədilər dilbəri,
Aşiq olan kişilərdən dil bəri.
Çün nəsihət eylədilər, olmədi,
Könlü ana heç yaxınə gəlmədi.
Neyləsin, naçar oldu ol nigar,
Aqibət, qondu sərayə biqərar.
Xoş bəzərlər gərdəgü köşkü səray,
Ta ki bürcidə qonə ol dolu Ay.
Xəlqə toy oldu, təmaşavü dügün,
Ürəgində xod Züleyxanın dügün.
Ağlər idi kəndi vəsfi-halini
Kim, nə qıldı çərxi-qəddar alini.
Aqibət, gərdəgə girdi, neyləsin,
Könlün dərdini kimə şərh eyləsin.
Tanrı dərgahinə zari eylədi,
Şe’r ayıtdı, dərdə sari eylədi.

### ŞE’Rİ-YUSİF ƏLEYHİS-SALAM

Ayıtdı, ey xəllaqi-aləm, bu nə hal

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kim, bəni uş qayğısı qıldı hilal?

Nedəyim, çünki muradə irmədim,
Namuradin qılmişəm uş payimal.

Atadən, anadən ayrıldım həqir,
Kəndumi həbavü gənc, kəsiri-mal.

Bir ümidə gəlmişəm bən naümid,
Uş kəmalə irmədin buldum zəval.

Vüsləti-yar olə derdim bana,
Uş fəraq oldivü olmadı vüsal.

Könlüm alan çün əlimə girmədi,
Canim anın yolinə olsun həlal.

Andan artıq bana yar əğyar olə,
Ruzi qılma ayruğə zülcəlal.

Dərdilə yaxıldım axirin qərib,
Dərdə dərman oləmi, ey layəzal.

Ya anın üzüni göstərgil bana,
Ya anın eşqində bənim canimi al.

**MƏSNƏVİ**

Ağlər idi, aydər idi zari-zar,
Çünki vəsli-yar bulmədi nigar.
Bir bucaqdə otururdU həzin,
Sanəsin zindan idi ol yəqin.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dayəvü xadimlər oldİlər qayğılı,
Çün muradin bulmadı ol bəxtli,
Ol Əzizi-Misr gəldi yaninə,
Keçdi, oturdu, sevindi canənə.
Öpə, qucə, anunlə qarışə,
Necə kim, dilər aninlə öpüşə.
Tənri ana veribdi bir dişi divi
Ta Əziz aninla eyləyə divi.
Bir firiştə divi ana gətirər,
İki səng arasındə yatirər.
Bəklədi tənri Züleyxayı təmam,
Ta ki bulə bikr ani Yusif imam.

## Fİ BƏYANİ-ƏHVALİ-YUSİF
## ƏLEYHİS-SALAM

Yenə gəldik Yusifin əhvalinə,
Girdi Malik şəhri-Misir yolinə.
Var idi yoldə məgər bir şəhri-ulü,
Ton şəhridir, ey ari bəxtlü.
Şəhr xəlqi cümləsi odə tapər,
Qamu gəlib büt önündə yer öpər.
Duşdə gördi ol xəlayiq bir gecə,
Yusifin görklü camalin, ey xocə.
Aşiq oldilər, cümlə gəldilər ana,
Ayıtdı Kən’an yolinə, gəlin bana.
Çün səbah oldu, qəmu mürü vəzir
Qarşı gəldi, gördülər bədri-münir.
Gördülər üzünü, heyran oldilər,
Eylə san kim, küllü bican oldilər.
Yusifi qondurdilər e’zaz ilə,
Sordi Yusif anlərə yüz naz ilə.
Nə tapərsiz, dedi Yusif anlara,
Dedilər, bütə taparız, ey yəra.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusif aydır, tənri birdir, bir, bilin,
Əgri qovun, doğru yolə könülün.
Anlər aydır, bütümüz söylər bizə,
Siz gəlin kim, görəlim tədbir sizə.
Tənriyə bütlər tanıqlıq versələr,
Biz dəxi inandıq görsələr.
Büt qatinə Yusifi gətirdilər,
Gəldi Yusif bütlərə gör nə qılır.
Yusif aydır bütlərə kim, key bilin,
Tənri birdir, birliginə səcdə qılin.
Anı gördilər, gətirdilər iman,
Dinə gəldi ol xəlayiq bigüman.
Bir-iki gündə andə qaldilər urü,
Yüklədibən yolə girdilər gerü.
Ol xəlayiq ayıtdilər kim, neylədin,
Kəndi canimizə təqsir eylədin,
Yusifin  ardinə düşdilər qəmu,
Qoymayalım, deyü üşdilər qəmu.
Gördü Yusif kim, xəlayiqlər gəlir,
Anlərə bir gəz üzün peyda qılir.
Gördülər Yusifin ol görklü üzün,
Ol xəlayiqlər unutdu kəndözün.
Üçü andə qıldilər bihuşü zar,
Misr elinə irdi Yusifi-şahvər.
Bu xəbər yayildi Misir iqliminə
Kim, gəlir bir mahru Misir elinə.
Xəlqi-aləm qarşı gəldilər qəmu
Kim, görəlim necədir ol, ey əmu.
Kariban çün Misrə yaxın gəldilər,
Nilin irmaği qatində qondilər.
Yusif aydır, nolə, ey xocə, bana,
Dəstur olsə varaydum sudan yəna.

**ŞE'Rİ-ZÜLEYXA YUSİF ƏLEYHİS-SALAM**

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Budur ol sevgili cananim bənim,
Budur ol məhbubi-cananim bənim.

Budur ol eşqlə könlüm əgləyən,
Canim içindəki sultanim bənim.

Budur axır bəni avarə qılan,
Budur ol dərdimə dərmanim bənim.

Budur ol könlümü yəğma eyləyən,
Canim olsun ana qurbanim bənim.

Budur ol sultani-xubani-cəhan
Kim, bana göstərdi sübhanim bənim.

Bunsuz uçmağə dəxi bən varmayım,
Budur uçmaq huri-rizvanim bənim.

Budur ol dirligimin sərmayəsi,
Xızri-Zində heyvanim bənim.

## MƏSNƏVİ

Dərdimə dərman qılın, der ol nigar,
Yaxud oldum eşqi birlə xuri-zar.
Qəsd qıldı pəncərədən kəndözün
Kim, salaydı Yusif ardına özün.
Durdu yerindən nigari-aşüftəvar,
Kəndözün qılmaq dilərdi aşikar.
Aşiqə namusü arü nami-təng,
Olmıyəsər əqli-eşq illa ki rəng,
Dayələr tutdilər ol dəm dilbəri,
Aşiq olənlərdən olur dil bəri.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Eşit imdi Yusifi netdilər,
Şəhr ululları alubən getdilər.

## YUSİF ƏLEYHİS-SALAM

Bir arayə gəldi cümlə xasü am,
Şəhr xəlqi andə gəldilər təmam.
Ol hərir ilə mürəssə’ donləri,
Yusifə geydürdilərdi anləri.
Qodilər bir səndəli həm udi-xam
Kim, oturə üzərində ol imam.
Bildi Yusif kim, qılısərlər məzad,
Dərd ilə bir ah qıldı ol qubad.

## ŞE’Rİ-YUSİF ƏLEYHİS-SALAM

Ayıtdı, ey xəllaqi-aləm birü bar,
Sənsən axır qamulərə kirdgar.

Sən bilirsən sirrimi, ey padişah,
Qamulərin sirri sana aşikar.

Bən qəribü natəvanəm, nedəyim,
Qalmişəm biçarə, acizü diləfgar.

Bən fəqiri gah satar qərdaşlərim,
Gah edərlər Misr içində bəndəvar.

Bəni key qərdaşlərim bilir idi,
On səkiz Misr axçəsinə satdilər.

Bu cəmaət bəni bilməz, nedəyim,
Nə gətirisər bəham, ey kirdgar.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bən yetimin keçdi günü dərd ilə,
Ahü həsrət birlə qalmış xurizar.

Eldən-elə uş əsir oldum həqir,
Gah satarlar, gah məzad eylər bular.

Baba quzıcağın azdırıb,
Necəsi səbr eylədin sən biqərar.

Halimi gör bu qəriblikdə bənim
Kim, necə oldu bana əhvali-kar.

## MƏSNƏVİ

Hələ bir dəm səbr qılmaq çarəsi,
Səbr atlə şükr elinə varəsi.
Tökdü gövhərləri lə’lin üstünə,
Ahi həsrət verdi dostinə.
Səndəlin üstündə Yusif oturür,
Bir münadi gəldi, ğovğa gətirir.
Ayıtdı, kimdir müştəri bu gövhərə
Kim, nəziri yox cəhandə, ey yəra.
Hüsnünə heyran olub xubi-Çin,
Boyu sərvi, üzü gül nazənin.
Ayıtdı, ey şah, nə buyurursın sən ayıt.
Ayıtdı, bir qaçıcı quldur bu benam,
Bir qəribü bir həqirü bir qulam.
Ol münadi aydır, ey sahibi-cəmal,
Böylə dersəm, kimsə almaz, nə məcal.
Eylə demək bizdə yox tədbiri-lay,
Bir mətai ögəriz, ey üzü Ay.
Satıram de, ibri oğludur qulam,
Atasıdır həm nəbi oğlu benam.
Həm Xəlilin oğlu oğludur, bilin,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Satıram, nəyə alırsınız, alın.
Ol münadi aydır, ey sahibi-cəmal,
Bunu böylə deməgə yoxdur məcal.
Uşbu sözü böylə dersəm, ey ulü,
Duyməyə bu xəlq ana, ey bəxtlü.
Əmr gəldi tənridən, ey dilnəvaz,
Kəndözünü xor gördüm, eylə naz.
Ayinədə gördükdə kəndözün,
Kəndözün qıldınmı bəha key sən ögün.
Görməgil kəndözünü, ey xoş kişi,
Kəndözün görmək olur iblis işi.
Ol münadi Yusifi qıldı məzad
Kim, bəhası vardıqca oldu ziyad.
Bir yerə irdi bəhan, ey nazənin,
Kimsə qüvvət yetirəməz, ya əmin.
Bir qarıcik gəldi iləri gördülər,
Nə dilər deyi, ana sordilər.
Ayıtdilər, nən var gətirgil, görəlim,
Yükləb iplicigim var, ey ulum.
Qəhqəha ilə xəlqi-aləm güldülər,
Bir kəlbçik ipligə Yusifi dilər.
Gənci-aləm ana yetirmədi bəha,
Bu nə sözdür kim, dedin, ey xodbəha.
Dedi, bilirəm bəha yoxdur ana,
Diləyənlər Yusifi çox görə sana.
Çün bəha yetirmədi kimsə ana,
Bu gəzin gəldi Əziz andən yəna.
Gəldi əvvəl ol Züleyxa qatinə,
Söylədi sözün Züleyxa xatinə.
Ayıtdı, nə dersin, əya xubi-Xotən,
Ol qulu satərlər imiş cani-tən.
Dedi qamu gəncimi vergil ana,
Tək gətir ol cani sən bəndən yəna.
Çün Əzizi-Misr gəldi gördülər,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusif üçün bir tərazü qurdilər.
Dedilər kim, Yusifə bin qul gərək,
Bin qəravaş, at, qətir, yük gərək.
Verdi bin qul, qəravaş, at, qətir,
Gördü ol dəm Yusifi, oldu əsir.
Ol tərazi kəffəsində Yusifi,
Qodilər bir yəna altun, ey səfi.
Bir dəxi ağırlığı altun, gümiş,
Bir dəxi həm ağırincə müşkü yemiş.
Bir dəxi ənbər alır ağırliği,
Ağırınca lə'l alır incü dəxi.
Yaqut alır ağırınca dəxi bir,
Dəgmə cinsi ilə aldı, ey nəzir.
Bundə qalsın bu ikinci dasitan,
Qalanini qılırız yarin bəyan.
Qissei-Yusif qisəsdə görmüşəm,
Ey neçə ustadə anı sormişəm.
Nə qədər kim quş dənizindən su alə,
Bu sözün şərhi dilə ancaq gələ.

## ƏL-MƏCLİSİ-SƏVVOM

Başlayalım, sözə ağaz edəlim,
Bu üçüncü məclisi yad edəlim.
Satın alır Yusifi, evə gəlir,
Oncə verdi kim, xəzinə boş olur.
Sərzəniş qıldı pəs ana xasü am,
Bir qul üçün malını verdi təmam.
Ol xəzinədarını ol dəm oxur,
Sögər və … ana yəvlaq qaxır.
Dedi, cümlə malimi verdin qəmu,
Aydır, axır sən buyurdun, ey əmu.
Sən buyurdun, biz gətirdik, nedəlim,
Ayıtdı, durun, andə bari gedəlim.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəldi açdı ol xəzinə qapısın,
Girdi gördü malı durar qamusın.
Malı durar, əksigi yox bir dirhəm,
Dedi, Allah-Allah, ey şahi-kərəm.
Key tə'cüb qıldı anı ol Əziz
Kim, qamu malı durar, həm gəncü bin.
Yusifə eşqi bir ikən yüz olur,
Xidmətiçün key ari donlər qılır.
Yusifi gördü Züleyxa, oldu şad,
Qamu gəncini ana qıldı nihad.
Çün Züleyxa qatinə gəldi Əziz,
Dedi, ey sultan, alın bunu siz.
Xoş tutun, könlü yavuz olmasın,
Oğul olsun bizə, qul olmasın.
Yusifə geydirdi dibavü hərir,
Üzünü görənlərin canı ərir.
Bir mürəssə' tacı ol dəm geydirər,
Xadim ilə xoş həmmamə göndərər.
Gül üzünə sünbülü qıldı nisar,
Ay üzünə bulut oldu pərdədar.
Ol iki xadim Yusifi gətirər,
Biri lə'I, biri kafur gətirər.
Çünki kafur ilə lə'I oldı qərin,
Öylə san ki, huri-mələkdir həmnişin.
Yaxud ol həmmam cənnətmi olur
Kim, huridir qapıçı rizvan olur.
Çün Züleyxa qatinə gəldi geri,
Dərd ilə ah qıldı, gəldi iləri.
Yudilər Yusifi bin naz ilə,
Donlərin geydirdilər e'zaz ilə.
Aldı yaninə keçirdi dilbəri,
Ol anın həm olmuşdu dilbəri.
Baş önünə saldı Yusif, dinmədi,
Həm Züleyxa üzünə heç dönmədi.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Necə kim, ol Yusifə söylər idi,
Yusif ana təvazö’ eylər idi.
Yusifi bəslər Züleyxa yedi il,
Yusif anın üzünə baxmazdı, bil.
Necə kim, cəhd eylər idi bir gəzin,
Yusifə göstərər idi kəndözün.
Çox duruşdu, illa çarə bulmədi,
Üzünə baxmağa yaxın gəlmədi.
Aciz oldu ol Züleyxayi-nigar,
Yusifə qıldı xitab aşüftəvar.
Ayıtdı, bir gəz üzümə baxsan bənim,
Ola idi sana qurban bu canim.
Yusif aydır, niçüm baxım bən sana,
Eylə olmaz, ol rəva gəlməz bana.
Yusifi hər gün Züleyxa yur idi,
San Züleyxa hur, Yusif nur idi.
Xizmət eylər idi ana hər zəman,
Yusif ana şah, Züleyxa pasiban.
Bilmədi Yusif Züleyxa üzünü
Kim, nə surətlidir anın özünü.
Səbr qılmadı, Züleyxa oldu zar,
Soldu gül nərgisləri, oldu xar.

**ŞE’Rİ-ZÜLEYXA**

Lalə oldum tökdü zalə, qıldı ah,
Nedəyim, olmişəm bəxti siyah.

Bu bənim dərdimə dərman olmadı,
Üzümə baxmaz bənim ol üzü mah.

Bən qəribi-xəstəvü eşq ilə zar,
Nə qılayım, uşbu gün oldum təbah.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Buncılayın kimsə zar olmasın,
Buncılayın bivəfa yarə, ey ilah.

Necə bir cövri-cəfa çəksəm gərək,
Bir vəfa olmaya, ey padişah.

Ata, ana, qövm, mülkü malımı,
Sənin içün tərk qıldım təxti-şah.

Səni bana yar olasın der idim,
Nə qılayım, olmadın püşti-pənah.

Sənin içün tərk qıldım malımı,
Sənin içün tərk qıldım mülki-cah.

## MƏSNƏVİ

Çün Züleyxa vəsfi-halin söylədi,
Kəndözündən həm şikayət eylədi.
Var idi bir dayə aninlə müqim,
Evlərindən belə gəlmişdi qədim.
Gördü dayə kim, Züleyxa zar edər,
Kəndi dərdin daima bazar edər.
Gül yanağı soldu, nərgisi türab,
Lalə rəngin tökdü, lə’l oldı xərab.
Dayə aydır, ey Züleyxa nigar,
Böylə halin neçün oldu biqərar?
Bana sirrini əyan eylə, bəgim,
Gizləmə sözün, bəyan eylə canim.
Döndü aydır ol Züleyxayi-sənəm,
Yedi yıldır Yusifə bən aşiqəm.
Bən anın aşiqiyəm, heyrani-zar,
Bən ölürsəm, ol fərağət, biqərar.
Dayə aydur, üzünü göstər ana,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Aşiq olsun cani-könüldən sana.
Səncilayın bir nigari-zəman,
Qandə var dünyadə, ey cani-cəhan.
Ay görsə üzünü, olur xəcil,
Hüsnünə heyran qalır, ey xubşəkil.
Ol Züleyxa döndü aydır, dayə sən,
Xoş qolayincə sözün söylə sən.
Yedi ildir yalvarirəm bən ana,
Tutubən bir nəzər qılmaz bana.
Necə kim bən ana heyran olurəm,
Baxmaz ol üzümə, giryan olurəm.
Nedəyim, səbrim tükəndi, qalmadı,
Nə qılayım, ol vəfadar olmadı.
Şimdidən geri bana ölmək gərək,
Çün nəzər qılmaz bana, getmək gərək.
Dayə aydır, bən qılam tədbirü ray
Sənin üçün bu işə, ey görki bay.
İlla bana çox gərəkdir simü mal
Kim, sərayə xərc edəm, ey xoşfə’al.
Ana aydır ol Züleyxayi-pəri,
Nə qədər altun gərəkdir, al yürü.
Gəldi dayə bir səray bünyad urur,
Ol zəman kim, ol səray peyda olur.
Yapdilər uçmağa bənzər bir səray
Kim, gələ Yusif, Züleyxa şəmsü ay.
Ol sərayı qıldılar nəqşi-nigar,
Həm də ol dört divarını yazdılar.
Yusifi yazdı, Züleyxayi belə,
Hər yəna kim, adamın gözü görə.
Dört səffə, hər birində təxti-tac,
Lə’lü incidən nəqşin qıldı sirac.
Xoş hərirlər döşədilər, ey hümam,
Bəzədilər kim, gələ Yusif imam.
Çün təmam oldu, Züleyxayə xəbər

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qıldilər, ta gələ anı görə yar.
Durdu bir Yusifi-Kən’an ilə,
Andə gəldi həm Züleyxa da belə.
Eylə san kim, huri-qılmanü pəri,
Ol səray uçmaq imiş, ey yol əri.
Durdilər sərvi-sənubəri-gülşad
Ol sərayə girdilər, ey xoşnihad.
Leyk Yusif qatinə baxmaz idi,
Gözün açıb üzünə baxmaz idi.
Çün sərayə girdi Yusif nagəhan,
Bir əcaib surəti gördü bəyan.
Gördü Yusif surətini yazulu,
Həm yanındədir Züleyxa, ey bəxtlü.
Ol nigarin bər yəna qıldı nəzər,
Ol Züleyxa üzünü gördü məgər.
Bir nəzər qıldı Züleyxa üzünə,
Qaldı heyran, fikr qıldı özünə.
Keçdi ögündən anın ki, bu nigar
Gər dəgilməsə Əzizə ciftəvü yar,
Layiq idi kim, bana olə həlal.
İşbu əndişə ana qıldı vəbal.
Gəldi Cəbrail həman ləhzə ana,
Ayıtdı, ey Yusif, çələb aydır sana.
Həq-təala der, zinayə baxmasın,
Narəvadır könlün ana yaxmasın.
Qılmasəydin ol dəm əndişə həlal,
Ta qiyamət qalə idi, der, vəbal.
Şəhvəti səndən götürisər o haq,
Kəndözünə hazır ol, tənriyə bax.
Eylə dedi, getdi Cəbrail baz,
Yedi qapı bağlədilər bafəraz.
Yusifə aydır Züleyxa, çün bana
Bir nəzər qıldın, düzəldim bən sana.
Ol Züleyxa eşqbaza başlədi,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusif ilə eşqbazi işlədi.
Çəkdi Yusif kəndözünü bir yana,
Nə nəzər qıldı, nə göründü ana.
Gördü babası bucaqdə oturur,
Bir mə'niyi-Yusifə qarşı durur.
Aydur, oğlum, hazır ol, şeytan sana
Qılmasın məkrin sana, səndən yana.
Qaldı Yusif heyran olub lalərəng,
Kəndidən getdivü oldu məsti-təng.
Qəsd qıldı kim, Züleyxa ol zəman
Yusifin qatinə gəleydi rəvan.
Bir bütü var idi altundən məgər,
Böylə ilədirdi qandə kim, gedər.
Baxdı gördü kim, bütü şöylədurur,
Həm Züleyxa o bütündən utanır.
Örtər anı bir hərir ilə rəvan,
Gəldi aydır Yusifə, ey mehriban.
Bənim ilə birlik eyləsən gərək,
Eşqbazi dirlik eyləsən gərək.
Sənin ilə bir oluram, ey kişi,
Yusif aydır, bilməzəm bən bu işi.
Yusif aydır, Züleyxa kim nişə,
Böylə neçün qılasın yad, əndişə.
Bən səninəm, sən bənim, ey cani-dil,
Birlik ilə gəl ikiligi qoğıl.
Yusif aydır kim, Əziz aldı bəni,
Bənim üçün verdi malü gəncini.
Bir dəxi ol bəni oğul eylədi,
Oğlum olğıl, deyü bəna söylədi.
Bən duz-ətmək həqqini bilsəm gərək,
Xain olmayıb, vəfa qılsam gərək.
Yusifə aydır Züleyxa, bən ana
Ağu verəm, səltənət qala sana.
Yusif aydır, birlik olmiyə yəqin,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Get qatimdən, zəhmət eyləmə həmin.

## ŞE'Rİ-ZÜLEYXA

Yusif, aydır Züleyxa, canimi
Aldın axır, tökərsin qanimi.

Könlümü aldın bənim, ey cani-dil,
Gər dilərsən həm verirəm canimi.

Əqlimi verdim sana, ey cani-cəhan,
Böylə aninlə xanimanimi.

Dərd ilə yaxılıram uş dünü gün,
Dərd ilə bulmadım dərmanimi.

Üştə gördüm bən səni oldum dəli,
Göstərirəm uş bənim bürhanimi.

Dilənü gəldim qapinə bən fəqir,
Eyləmə bəndən dəriğ ehsanini.

## MƏSNƏVİ

Dilnəvaz gəldim tapunə bən fəqir,
Qılmağıl bəni qapində sən həqir.
Həsrət ilə görmüşəm cövri-cəfa,
Olmiyəsərmi bana səndən vəfa?
Necə kim söylər Züleyxa sözünü,
Qapiyə tutar Yusif üzünü.
Fürsət istər Yusif andən çıxmağə,
Qapı bağlı, yol bulunmaz keçməgə.
Yusif aydır, ey Züleyxayi-nigar,
Tapdığım budur, dedi, ey namidar.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusif aydır, nişə örtürsən ani,
Çünki təprənməz, yoxdurur cani.
Aydır, andən utanirəm, ey paşa,
Yusif aydır, utanməq andən haşa.
Cani yoxdur, gözü yoxdur, əli yox,
Ağzı yoxdur, dili yoxdur, sözü yox.
Andən utanırsın, ey sahibi-cəmal,
Tənridən utan kim, oldur layəzal.
Ol yarətdi səni, həm qıldı vücud,
Büt önündə nişə qılırsın sücud.
Əl-ayaq verdi sana, gözü qulaq,
Dilə söz verdi, həm eşidər qulaq.
Andən utanmaq gərəkdir, ey nigar,
Ol yarətdi səni, oldur kirdgar.
Qəsd qıldı kim, Züleyxa yapışə,
Öpə-quca, anınla qarışə.
Qərdaşi olur Əzizin bir kişi,
Bir anadən belə doğmuş qərdaşi.
Ana tənrisi bir oğlancıq verir,
Çün Züleyxa baxar, oğlani görür.
Həm Züleyxa oğlani sevər idi,
Uşbu oğlan bənim olsun, der idi.
Çün Züleyxa Yusifə kim qəsd edər,
Beşik ilə oğlan andə idi məgər.
Oğlanə dil verdi tənri, söylədi,
Yusifə ol dəm nəsihət eylədi.
Oğlan aydır Yusifə, ey mehriban,
Durma bundə, qapiyə yürü həman.
Çəkdi Yusif kəndözünü başitab,
Qapiyə yürüdü oldu fəthi-bab.
Yusif andə dərd ilə ah eylədi,
Tənri ana qapidən rah eylədi.
Qapilər açıldı, yol oldı əyan,
Çıxdı Yusif yedi qapidən ol zəman.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ard ətəgin Yusifin çün yırtılır,
Ol Züleyxanın əlindən qurtulur.
Ol qapudən çıxdı Yusif şur ilə,
Həm Züleyxa çıxdı ardıncə belə.
Qapiyə qarşı Əzizi-Misr irir,
Baxar, ol iksini öylə görür.
Yügrüşürlər başaçıq, aşüftəvar
Yusif, ardıncə Züleyxadır qovar.
Çün Əzizi-Misr gördi anları,
Ol iki bir-birin qovanları.
Qaxıyibən gözləri doldu qan,
Öylə san kim, gövdəsindən getdi can.
Çün Züleyxa anı gördü nəki var,
Bu gəz ayıtdı ana kim, ey şəhriyar.
Gör bu oğlan kim, nələr qıldı bana,
Anı dilər kim, rəva gəlməz sana.
Yusifə ol dəmdə şah xəşm eylədi,
Oğul etdim səni, deyib söylədi.
Bu nə işdir işlədin sən, ey pəsər,
Bu bənim həqqimə sən, ey xeyri-bəşər.
Səni qıldım bən qəmulərdən əziz,
Nişə qıldın sən bu işi bitəmiz?
Yusif aydır şəhriyara, qılmədim,
Necə olur bən bu işi bilmədim.
Qılmədim bən bu işi, ey şəhriyar,
Gərək öldür, gərəksə qoy, ey yar.
Hər nə kim keçdi başindən, söylədi,
Ol hekayətdən şikayət eylədi.
Şah ayıtdı kim Züleyxaya, bu gün
Bana qıldın xəyanət sən, ey fünun.
Aydır, ey şah, bən xəyanət qılmədim,
Oldur işləyən, bən anı bilmədim.
Şah ayıtdı kim, buna netmək gərək,
Oğlanə necə cəza etmək gərək?

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dedi, şəha, ana qurban eyləgil,
Həbs içində ana zindan eyləgil.
Qorxdu öldür deməgə ol nigar,
Nagəhan qəsd edə dedi, şəhriyar.
Yusif aydır, ey şahənşahi-cəhan,
Tanığım vardır bənim işbu zəman.
Ayıtdı, kimdir tanığın, göstər bana,
İşbu oğlandır dedi, sorğıl ana.
Padişah aydır, dəlimisin, yigit,
Necə söylər işbu gənc oğlan ayit.
Yusif aydır, tənri anı söylədə,
Gördügündə şahə təqrir eylədə.
Gəldi Yusif aydır, ey əyal,
Tənri birdir, birligin de bimisal.
Aydır, ey oğlan ki, bir tənri həqqi
Kim, səni yaratdı, aləmlər dəxi.
Doğru tanıqlıq sən söyləgil,
Halımı de şahə, təqrir eyləgil.
Oğlanı söylətdi tənri ol zəman,
Padişah eşitdi sözün ol zəman.
Dedi, şah, gör Yusifin, kömləgin,
Önü yırtıq olsə, suç ana yəqin.
Gördülər kömləgi ardı yırtılıb,
Suç Züleyxa qıldı, Yusif qurtulub.
Dedi şah kim, suç Züleyxa eylədi,
Xəşm qıldı, tutdu ana söylədi.
Dedi, gördünmü necə böhtan ilə,
İşbu mə'sumi verisərdin ələ.
Qəsd qıldı kim, Züleyxayi urə,
Tiği çəkdi kim, ani tezcək öldürə.
Saxla adıni ki, öldürmə ani,
Yavuz olur adına, eşit bəni.
Şah əcəbə qıldı oğlan sözünə,
Heyran qaldı, baxdı anın üzünə.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ol Züleyxayi yenə xoş tutdu şah,
Əmin oldu, andını qıldı təbah.
Yusifi geri ana ismərlədi,
Tənri ilə sən bilirsən, söylədi.
Yusifi tutdı Züleyxa yenə xoş,
Anunlə olur idi vəxti xoş.
Yenə geydirdi ana dibavü hərir,
Qarşısinə oturub canı ərir.

**ŞE'Rİ-ZÜLEYXA**

Aydır idi kim, sultanim bənim,
Sana qurban ola bu canim bənim.

Bana sənsiz dirlik olmasın həlal,
Sənsən axır abi-heyvanim bənim.

Səninlə gülüstan oldu şərif,
Ey üzü gülzari-reyhanim bənim.

Lalərəng oldu üzündən gül xəcil,
Ey gülərüzlü gülüstanim bənim.

Getdi könlüm, qaldı canim dərd ilə,
Olamı bu dərdə dərmanim bənim.

Eşqi yolində can fəda qılməq üçün,
Candən artıq yoxdur ehsanim bənim.

Eşqinə qurban oləm, xoş eyd olə,
Canim olsun eydə qurbanim bənim.

**MƏSNƏVİ**

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ağlər, ayıdər zari qılır biqərar,
Eşq odinə yanər ol pərvanəvar.
Ayıdər idi kim, əcəb bəxtim bana,
Kim bilə nələr qılə bəndən yəna.
Qodi bir altun, qızıl səndəli,
Yusif üçün kim, oturə ol vəli.
Başinə altun tac urdu ol əmir,
Xoş mürəssə’ görənin canı ərir.
İki bölük qıldı yuyub saçını,
Həm Yusifdən dilər idi suçını.
Qarşısində oturərdi dərd ilə,
Zari qılır həmdəm ahu sərd ilə.
Xəlqə çav oldu Züleyxa cəvan,
Xəlq içində aşiq oldu dasitan.
Bir neçə xatunlər anı söylədi,
Sərziniş qıldı ani bətər eylədi.
Dedilər, görün Züleyxayi-nigar,
Aşiq olmuş Yusifə aşüftəvar.
Ancılayın xub məhbubi-cəhan,
Neçə oldu Yusifə, ey mehriban.
Çün Züleyxa dinlədi bu sözləri,
Bilmədilər Yusifi der özləri.
Göstərin bunlarə olsun əyan
Kim, nədir halı Züleyxayi-natəvan.
Təşti-zərrin qoydu ol dəm iləri,
Yusifi qıldı yalıncəq ol geri.
Gül suyu ilə miski-xalis qıldı baz,
Yudu Yusif saçını ol dilnəvaz.
İki bölük qıldı saçın naz ilə,
Yur idi ol Yusifi e’zaz ilə.
Tac başinə, ləbaçə əgninə
Geydirir Yusifə, görən sevinə.
Səndəli qodilər, altun idi,
Tə’nə uran dəxi beş xatun idi.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Vardilər xatunləri gətirdilər
Kim, Züleyxa sizi oxur dedilər.
Bıçaq ilə turuncu tutub durdilər,
Ara yerdə pərdəyi götürdülər.
Yusifə aydır Züleyxa, gəl bəri,
Durdu Yusif ol zəman gəldi iləri.
İmdi kəs, der, turuncu görəlim,
Halınızı netədirir soralim.
Yusifin çün surəti oldu əyan,
Əllərin kəsdilər anlər ol zəman.
Qıldilər heyran, valehi-bixəbər
Əllərini parə-parə qıldilər.
Döndü Yusif, getdi kəndi yolinə,
Ol xatunlər baxdı əlli əlinə.
Gördülər kim, əllərindən qan axər,
Din olubən bir-birinə baxər.
Züleyxa anlərə aydır, bildiniz,
Bənim əhvalim fikrin qıldiniz?
Dedilər kim, ey nigarani-zəman,
Görmədik necəsidir bu cəvan.
Geri oxudu Züleyxa Yusifi,
Geri gəldi ol şahənşahi-səfi.
Gördülər üzünü yüz bin zor ilə,
Əqli getdi, qaldı qəmu şur ilə.
Çünki əqli gəldi, qamu durdilər,
Yusifə bu gəz nəsihət qıldilər.
Ayıtdilər, ey mahruyi-xubzəman,
Gül üzünə dost olur, ey dustan.
Neçün tutmazsın Züleyxa sözünü,
Ya bəgənməzsin anın görklü üzünü?
Dünyadə anın kibi xubzəman
Qandə var bir dəxi, ey cani-cəhan?
Olmasın kim, ol sana pis eyləyə,
Səni zindanə qıyıb həbs eyləyə.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusif aydır, bana zindan yeg ola
Kim, xəyanət içi dolu yeg ola.
Qılmiyəm hərgiz, ol işi qılmiyəm,
Ol nə işdir, bən anı tutmiyəm.

### ŞE'Rİ-ZÜLEYXA

Züleyxa aydır anlərə, ey nigar,
Halimi görün bənim aşüftəvar.

Nə qılayım, çünki yar girməz ələ,
Bənim ilə bir degildir vəsli-yar.

Könlüm andən getdi canim belə,
Dərd ilə nə qılmişəm bən xaksar.

Qanı bana sərzəniş qılan kişi,
Gəlsə, görsə halimi uş biqərar.

Ey əcəb, bu dərdə dərman oləmi,
Ya bu eşqə oləmi payani-kar.

Ol gülüstanə irəmi işbu can,
Oləmi könlümə həmdəm ol nigar.

Necə gördünüz, nigara, halimi,
Eyb qılmın, olmişəm uş bən şikar.

### MƏSNƏVİ

Ol xatunlar dedi, eyü şahi-cəhan,
Həq əlindədir sənin xubzəman.
Yusif ilə ol Züleyxadən xəbər,
Şəhər xəlqi, el, vilayət bildilər.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bindi bir gün Əzizi-Misr atinə,
Gəldi ol dəmdə Züleyxa qatinə.
Döndü, aydır, ey sipahsalari-şah,
Ey günəş üzlüm bənim, rüxsari-mah.
Xəlqi-aləm bizi söylər qamusı,
Yerə tökdün cümlə arü namusı.
Nə qılalım, bu işi netmək gərək,
Dedi kim, Yusifi həbs etmək gərək.
Həbsə buraxalım anı bir zəman,
Ta ki bizdən götürülə xəlqən güman.
Buyurub ol dəm Züleyxayi-nigar,
Ta ki zindançıyı hazır qıldılar.
Dedi, zindanı təmiz eylən bu gün,
Çevrə yanin ari eylə, ey zifünun.
Ana kim, buyurdu anı eylə etdilər,
İçərisin, tışrəsin arıtdilər.
Qodilər bir təxt kim, ol ac idi,
Üzərində döşəgi dibac idi.
Pəs Züleyxa Yusifə don geydirir.
Həbsə ilətin, deyü Züleyxa buyurür.
Eylə san kim, Ayə gəlmişdir xüsuf,
Ya bürcündə Günəş buldu küsuf.
Ya zəvalə gəldi ol dəm afitab,
Ya xu bədrin üzünə gəldi niqab.

### ŞE'Rİ-YUSİF ƏLEYH-ƏS-SALAM

Dedi, ey xəllaqi-aləm, pir-bar,
Sən bilirsən sirrimi, ey kirdgar.

Kimsəyə bən qılmadım çün nasəza,
Nə cəzadır həbs, əya pərvərdigar?

Bu bənim şuridə bəxtimdürür, bana

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər zəman olur müxalif biqərar.

Gəh satırlar bəni ol qərdaşlər,
Gəh buraxırlar quyuyə xuri-zar.

Gah zindan içrə zəncir ilə bənd,
Uşdə qıldı qayğılı könlüm şikar.

Gah əsir ilətib bəni İbn Doğər
Ki, satarlar Misr içində bəndəvar.

Firqət odu yaxdı canimi bənim,
Ahi-həsrət yaşı gözümdən axar.

Ahımı ilətə bənim badi-səba,
Zariliğim bilməgə yeri, diyar.

Ol Xəlilullah ki, piri-ənbiya,
Dədəm oldur bənim, şahi-kübar.

Bir dədəm İshaq, İsmayıldır biri,
Babam olur bənim ol Yə’qubi-zar.

Gəlsə babam, görsə bənim halimi,
Qalmişəm zindan içindədir həsar.

## MƏSNƏVİ

Nə qılayım, dərdi kimə söyləyim,
Kim nə bilir bən ana şərh eyləyim.
Dərd ilə uş qılmişəm bən natəvan,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dərdə dərman andən olə bigüman.
Aydər idi, ağlər idi halini,
Kimsə bilməzdi anın əhvalini.

## ZƏHR DADƏN BEPADİŞAH

Eşit bir hekayəti-bil’əcəb,
Ayıdəlim yari qılırsə fərd-rəbb.
Ol Əzizi-Misr kim, yad eylədik,
Söz anin şərhində bünyad eylədik.
Şah degildi ol, sipəhsalər idi,
Andən artıq bir ulu şah var idi.
Adı Rəyyan idi ol şahın məgər,
Eşit andən söyləyəlim bir xəbər.
Şəhriyarin müddəisi var idi,
Şahi öldürməkligə uyur idi.
Padişahin saqivü xəbbazini
Bunlərinlə odi məgər razini.
Hər birinə ağu verdi bir dirhəm,
Dedi, bəglər bəgligin sizə verəm.
Ayıtdı kim, bunu şahə siz içirin,
Bənim ilə vəqtiniz xoş keçirin.
Aldilər bu zəhri bunlər, gəldilər,
Ta ki bir gün fürsəti buldilər.
Ağusını qatdı xəbbaz ətməgə,
Padişahə yə’ni kim, qəsd etməgə.
Leyk saqi ağusını qatmədi,
Saqi sultanə xəyanət etmədi.
Çünki xon iləri gəldi, gördülər.
Saqi aydır kimsə olsə deməgə.
Aqibət duymadı, şahə çağırır,
Yemə ətməkdən deyibən qayğırır.
Dedi, şəha, ətməgin ağusı var,
Yeməgil, dedi, anı, ey şəhriyar.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çağırır xəbbaz ki, içməgil şərab,
Ağuludur, içini eylər xərab.
Saqivü xəbbazı ol dəm tutdilər,
İkisin dəxi giriftar etdilər.
Şah buyurdu, ətməgi yesin xəbbaz,
Ağulıydı, yemədi anı xəbbaz.
Saqi aldı şərabı, içdi rəvan,
Ağusu yox idi, etmədi ziyan.
Ətməgi verdilər bir itə, it yedi,
Ağulıydı, ol zəman it çatlədi.
Şah buyurdu xəbbazı tutdilər,
Bənd urubən zindanə ilətdilər.
Girdilər zindanə, gərdilər münir,
San kim, uçmaq olmuş idi binəzir.
Yusif ilə saqi, xəbbaz – üçü
Girdilər bir gündə zindanə üçü.
Üzi nurindən münəvvər dü cəhan,
Qaldilər heyrani-giryan ol zəman.
Bundə məclis biri budur dasitan,
Gəl təmaşə qıl bu bağivu busitan.

## MƏCLİSİ-ÇƏHARROM

Sözə gəlgil söylə bülbül saz ilə,
Gir qisəs gülzarinə pərvaz ilə.
Çünki əhsən dedi rəbbül-aləmin,
Bu qisəs həqqindədir, ya müslimin.
Çünki bu qissəyi bünyad eylədik,
Uş çəharrom məclisin yad eylədik.
Əhli-zindan aninlə oldu şad,
İlla Yusif qayğılı, ey xoşnihad.
Gecə-gündüz, zari-əfğan eylər ol,
Dərd ilə dəryayi heyran eylər ol.
Suyə düşdü nərgisi bəlayi-tər,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sudən oldu lə'li-gülnar tər.
Ərğəvan tökər abi-həyat,
İnci tökər höqqədən şəkər, nəbat.
Gərçi zari qılar, eylər nəfir,
İlla zindan andən olmuşdur nəfir.
Bir neçə gün keçdi sözdən, sözə bax,
Uyqu gəldi Yusifə könlü oyaq.
Laləsi süzüldü, nərgis oldı məst,
Gözi düşdü yuxuyə, qıldı qəsd.
Duşdə anı gördü Cəbrail əmin,
Bir dəstə reyhan ana sundu həmin.
Aldı Yusif qoxlədi ol zəman,
Elmin tə'biri gəldi ana həman.
Duşdə oldu Yusifin könlü xərab,
Duşdə oldu geri ana fəthi-bab.
Uyqusindən oyanıq gəldi rəvan,
Anlərə duş gördügün qıldı əyan.
Və'zi-pənd edər anlərə ol əmir,
Ol xəlayiqin olur könlü münir.
Bir gecə saqi nagəhan duş görər,
Danlə durdu Yusifə ayıtdı urər.
Gəldi Yusif qatinə saqi rəvan,
Dedi, ey sultani-can.
Yusif aydır, saqi, söylə duşini,
Aydı verəm necə olur işini.
Bu gecə duş görmüşəm, ey padişah,
Duşu tə'bir eyləgil, ey üzü mah.
Yusif aydır, tənridən bən diləyim,
Gər buyurursə, anı tə'bir eyləyim.
Anlər aydır, qənği tənridir ki, sən
Hacəti andən dilərsən şimdi sən.
Dedilər, bir tənriyi bilmək gərək,
Küfri tərk edib dinə gəlmək gərək.
Anlərin könlündə var idi xəyal,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəldi nur, getdi ol küfri-məlal.
Nə ki zindan əhli var idi, qəmu,
Cümləsi iman gətirdi, ey əmu.
Anlərin gərdi əqlində kəmal,
Mö'cüzat anlərə göstərdi cəmal.
Saqi aydır, gördüm üç səlqim üzüm,
Sıxdım anı şişəyə, budur sözüm.
Sundum anı padişah nuş edir,
Tə'bir eylə, qayğı könlümdən gedir.
Yusif aydır, dinlə duşun, ey cəvan,
Qılayım tə'birin sana əyan.
Uşbu zindandən çıxasın sən geri,
Padişah qatində olasən sən ulu.
Mənsubini geri verə şah sana,
İlla sən tutğıl könlünü bəndən yəna.
Bir gün ola ki, anasən sən bəni,
Bən dəxi unutmiyəm hərgiz səni.
Gəldi xəbbaz aydır, eşit, bən dəxi,
Duş görmüşəm, tə'bir eylə sən dəxi.
Yusifə aydır, necə oldu vəsfi-hal,
Söyləgil duşunu sən, ey əyal.
Dedi, gördüm bişmiş ətmək bir silə
Başım üstünə götürmüşəm bilə.
Həm həvadən dürlü quşlər endilər,
Ətməgi qamu başimdən aldilər.
Yusif aydır, eyidəyim duşun sana,
Tə'bir edəm, qalmasın könlün bana.
Eşit imdi bu duşun tə'birini,
Boğazindən asarlər yarin səni.
Çün eşitdi xəbbaz anı, ol zəman
Qorxusindən gövdəsindən çıxdı qan.
Görmədim bən yalan duş der,
Yusif aydır, duşun yerini aldı der.
Gərək, sən gör, gərək sən görmə ayıq,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tə'bir oldu olisər bəlli bayıq.
Eşit imdi necə oldu, ey kişi,
Saqivü xəbbaz, ikisinin işi.
Danlə ikisini çıxardilər əyan,
Eylə Yusif buyurdu, ol zəman.
Saqiyə xəl'ət buyurdilər geri,
Saqiliğinə doyurdilər geri.
Asdilər xəbbazı ol dəm bigüman,
Xain idi, bulmədi şahdən əman.
Əhli-zindan çün bu işi gördülər,
Ayağinə Yusifin üz urdilər.
Dedilər sidq, əya şahi-cəhan,
Hər nə kim, buyurdun, oldu əyan.
Yusif aydır, imdi gəlin iləri,
Ərzə qılın qamunuz iman bəri.
Var idi zindandə həm pirü cəvan,
Bin dört yüz kişi sahibbəyan.
Yusifin qatinə gəldilər qəmu,
Sidq ilə iman gətirdilər, əmu.
Yusif aydır, ey cəmaət, bir xəbər,
Dedi, verim, dinlən ani mö'təbər.
Dedilər kim, söyləgil, ey padişah,
Qamunun sirrin bilirsin, ey üzü mah.
Yusif aydır, ey cəmaət, siz gəlin,
Könlünüz qandə dilər isə, urun.
Tənriyə Yusif minacat eylədi,
Üzün urdı, hacət dilədi.

**MİNACAT KƏRDƏNİ-YUSİF ƏLEYHİS-SALAM**

Dedi, ey sultani-danəndə raz,
Qamunun sirrin bilirsən niyaz.

Hər kim gəldi sidq ilə dərgahinə,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Andə buldu ol muradın izzi-naz.

Ey qəmunun gizli razın bilən,
Səndən irər könlümüz sirrü raz.

Ey münəzzeh, padişahi-dəstgir,
Rəhmətin qapısı daim oldu baz.

İki din sana məhrəm oldu,
Bir din həm olmiyə, ey dilnəvaz.

Hər ki, dərgahinə gəldi, rədd yox,
Qamularə oldu ol dərgah baz.

Qamuların hacətin qılan rəva,
Qalmış işin önərən, ey karsaz.

### MƏSNƏVİ

Ey qəmunun hacətin qılan rəva,
Bən zəifin hacətin eylə rəva.
Dər ilahi işbu xəlqin surəti,
Dəgşirilsin işbu xəlqin sirəti.
Dedi Yusif anlərə, ey mö'minin,
Qandə könlün var isə gedin həmin.
Anı gördü, qəmusu durdı uru,
Bəndi dikəldi sundilər gerü.
Bir işarət qıldı divarə əmir,
Şol saət divar açıldı, ey bəşir.
Bini getdi, Yusifi tərk etdilər,
Qaldı dört yüz, eşit imdi, netdilər.
Yusif ilə qaldı dört yüz kişi,
Hər birində nuri-iman işi.
Yusif aydır, siz neçün getmədiniz,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bizi qoyub, nişə tərk etmədiniz?
Anlər aydır kim, əya bədri-münir,
Bin bizim kibi sana olsun əsir.
Gün üzünlə bu zindan degil,
Bağü bostandır bizə, ey üzü gül.
Anlərə aydır Yusif və'zi-pənd,
Lə'l içində tökər idi lə'li-qənd.
Eşit imdi, saqi çıxdı, neylədi,
Padişahə xoş xizmət eylədi.
Saqi bir gün nagah uğradı məgər,
Ol aradə kim, Züleyxa andə güzar.
Oxudilər, saqi gəldi iləri,
Sordu Yusifi Züleyxa, ey ulu.
Ayıtdı, Yusif necədir zindan ilə,
Vəqti xoşmu, ya keçər əfğan ilə?
Saqi aydır, Yusifin vəqti lətif,
Xoş keçər zindan ilə vəqti şərif.
Gərək oturər, gərək durər, gedər,
Bağü bostandə tamaşələr edər.
Qapı açıqmı, Züleyxa der ana,
Saqi aydır, nə qapı andən yəna.
Qəncəridən kim, işarət eylənür,
Ol qapıdır ana, ey gülüzlü nur.
Sənasin uçmağa bənzər ol məqam,
Hər nə kim, dilər isə andə təmam.
Anı eşitdi Züleyxa nigar,
Dərd ilə bir ah qıldı suzvar.
At çəkib, der, bindi ol dəm atinə,
Sürdü atin, gəldi zindan qatinə.
Var idi zindan yanində məgər
Bir gülüstan kim, Züleyxa hər səhər
Varar idi andə ol çapuk səvar
Kim, bulam, der idi, andə vəsli-yar.
Var idi andə məgər bir köşkü xas,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Andə gəldi ol Züleyxa baxəvas.
Bir ağac verdi əlinə, dedi dur,
Bununlə yüz ağac Yusifə ur.
Girdi içəri ol Yusif qatinə
Kim, sözün söylədi anın yatinə.
Dedi üzü səfa bədri-münir,
İşbu ağacı Züleyxa verdi, der.
İşbu ağac ilə, bilgil kim, sana,
Yüz ağacı ursam gərəkdir gör sana.
Ah qıldı Yusif ol dəm, ya yigit,
Bir vəsiyyət qılayım əvvəl, eşit
Kim, bilə bu dərd ilə bən öləm,
Ol ağacın zəxmi altındə qaləm.
Bəni Kən'an yolu üstündə gərək
Andə qoyasız bəni, budur dilək.
Ya bənim toprağımın qoxusini
Babamə göstər, ey padişah, ol qəni.

### ŞE'Rİ-YUSİF ƏLEYHİS-SALAM

Həsrət odu yaxdı canim, ya ilah,
Qorxu ilə necə qalım dərdə var?

Bən qərib yalınız qaldım həqir,
Yalınız qalmişlərə püşti-pənah.

Gözlərimdən axıdıb seli rəvan,
Könlüm odunu qılmadı təbah.

Nə qılayım, dərd ilə oldum həzin,
Olamı dərman bana, ey padişah?

Babamın üzünü görmədin bu gün,
Ölisərəm, nedəyim bən bigünah?

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İbn Yəmin gəlsə, görsə halimi,
Bəndi-zindan oldu bana izzi-cah.

Nedəyim, təqdiri-rəbbani bana,
Gah əsir, gah zindan, gah cah.

**MƏSNƏVİ**

Nə qılayım, bana qılmadı vəfa,
Ömr fani, bu cəhan bibəqa.
Bən bu zərbdən ölisərəm, ey kişi,
Namə yazğıl, Kən'anə göndər bir kişi.
Yazğıl əvvəl tənri adın, ey kişi,
Ortağı yox, oğlı-qızı, bəkdişi.
Sonra yazğıl həm Xəlilullah adın,
Andə buldilər cəhandə din dadın.
Sonra yaz Yə'qubə dərdi-zari-ah,
Bəndən ana ver salam, ey padişah.
Ayıdəsən kim, yavrucağını sənin
Misr içində aldilər canin anın.
İbn Yəminə dəxi bəndən səlam,
Ol qalan qərdaşlərümə həm kəlam.
Ayıdəsin, Yusifi yavi qıldiniz,
Babamə siz nə cəvab verdiniz?
Sizin üçün xoş kiçik bən olayım,
Sizin üçün bundə qurban olayım.
Uşbu gün bən zari-giryan olmişəm,
Həsrətinizdən pərişan olmişəm.
Çün bu sözü eşidər zindanban,
Özü göynür, ağlər, qılır fəğan:
Qurusun ol əl ki, pəs bir gəz səni
Urə, yaxud alə səndən könlünü.
Bən urayın yasdığı, həm sən çığır

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kim, urər sanır olə bədri-münir.
Başlədi zindançı yasdığı urur,
Yusif ol dəm bir gəzin həm çığırır.
Çün Züleyxa Yusif ünün dinlədi,
Ol dəxi bivasitə bir inlədi.
Dedi, aydın urmasın ayrıq qati,
Bən ana qurban oləm, canim cani.
Məqsudum oldur ki, bən anın ünün
Eşidib bulaydım bayram günün.
Eşqini könlümə rahət eylədi,
Firqəti canə cərahət eylədi.
Ey diriğa, ahu dərdilə fəraq,
Canim ol dəm həsrətilə iştiyaq.
Zari qıldıvü Züleyxa getdi baz,
Qaldı Yusif, qıldı ahü növhəsaz.
Gəldi Cəbrail, ana qıldı xəbər,
Dedi, ey Yusif, buyurdu dargər.
Sən buyurdun kim, bana zindan deyü,
Bu tanıqımdən bana zindan iyi.
Sana qeyrət eylədi rəbbi-cəlil,
Yatəsin zindan, bil sən, yedi il.
Yedi ildən sonra sana padişah
Ruzi qılə Misr içində təxtigah.
Yusif andə qaldı yedi il təmam,
Gah ağlar qayğılı, gah şadkam.

### XAB DİDƏNİ-RƏYYAN ŞAH

Ayıdalım bu qissədən bir xoş xəbər,
Padişahi-Misr Rəyyani-mö’təbər.
Bir gecə kim, duşdə gördü padişah,
Nil irmağı qurumuş, qıldı ah.
Gördü yedi səmüz öküz bir yəna,
Yedi arıq dəxi, nə ayıdəm sana.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəldi ol arıq səmüzləri yedi,
Eylə gördüm, deyü Rəyyan söylədi:
Yenə gördüm yedi buğday, yedi baş,
Xoş görülüb yemiş olmuş cümlə baş.
Padşahi-Hind götürdü niqab,
Gəldi xavər şahi-Çin afitab.
Şahi-Rəyyan keçdi kəndi təxtinə,
Şah qıldı qamu rəxti təxtinə.
Bəglərü ə’yan ana həp gəldilər,
Padşahə qarşı xizmət qıldılər.
Var idi andə münəccimlər dəxi,
Padşahə gəldilər anlər dəxi.
Hər biri kəndiyə bir yer verir,
Şah bunləri gördü, duşun deyir.
Aciz oldilər qəmu pirü cəvan,
Bilmədilər duşi kim, halı əyan.
Qaxıdı şah anlərə, aydır, bilin,
Bilməzsiniz təxt alayində olun.
Dinlə saqi halini aydım sana,
Yusifi tənri unutdurdu ana.
Saqidən Yusif diləmişdi mədəd,
Yedi il zindan buyurdu ol əhəd.
Çün təmam oldu yedi il ol əlim,
Yusifi andırdı yenə ol həkim.
Andəkilər aciz oldu hər biri,
Xizmət edib saqi gəldi iləri:
Bir zəman, şahim, bana sən qaxıdın,
Bənd urubən bana zindan oxudun.
Var idi zindan içində bir yigit,
Üzü ayə bənzər, ey sultan, eşit.
Ey şahənşah, bənimlə bir kişi,
Hər birimiz gecə gördük bir duşi.
Duşumuzu söylədik cümlə ana,
Eylə tə’bir eylədi, qaldıq tana.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə kim ol olə dedi, oldu tuş,
Ey şahənşah, həzrətində derəm uş.
İlla, şahim, ol kişi ibri olur,
Bən ayıtdigim duşu həm ol bilir.
Padişahimdən əgər dəstur olə,
Şəhriyarın duşunu ol ki, bilə.
Gəldi saqi, girdi Yusif qatinə,
Üz yerə urdu anın həzrətinə.
Aydır, ey sultani-xubani-xu,
Bəni tut mə’zur, əya xəlqi-iyu.
Padişah əndişəsindən bən səni,
Gər unutdumsa, həlal eylə bəni.
İlla, ey cani-cəhani-basəfa,
Bir işimiz oldu, ey kani-səfa.
Şahimiz duş gördü, ey sultan,
Duşunu unutdu, ey şahi-cəhan.
Müşgilimiz həll qıl, ey nazənin,
Səndən artıq kimsə bilməz, bil, yəqin.
Şahimizin duşun söylə bizə,
Məqsudumuz diləyib gəldik sizə.
Çox münəccim gəldi, duşun bilmədi,
Qeybə hökmü kimsə hərgiz qılmədi.
Yusif aydır, ey kərimi-karsaz,
Bana bildirdi anı ol biniyaz.
Padşah gördügü duşu ayıdəyin,
Tənri əmriylə hekayət edəyin.
Padişah gördü yedi sığır səmüz,
Yedi dəxi arıq idi, ey əziz.
Ol arıq gəldi səmüzləri yedi,
Padişahın gördügü budur, dedi.
Yenə gördü yedi buğda quru,
Yedi dəxi yaşdı, ey ulu.
Saqi gəldi qıldı sultanə xəbər,
Padişah aydır, elədir xeyrül-bəşər.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Eylədir bu gördügüm duş bigüman,
Eylə kim, ol şah qılmışdır bəyan.
Şah ayıtdı kim, saqiyə kim, var gerü,
Duşumu tə'bir eyləsin ol ulu.
Saqi gəldi yenə Yusif qatinə,
Üz yerə urub Yusifin xidmətinə.
Aydır, ey sultan, geri gəldim sizə,
Duşumuzun tə'biri ayıdın bizə.
Yusif aydır, eşit imdi ayıdəyin,
Halini-əhvalini şərh edəyin.
Yedi səmiz sığır – ucuzluq olə,
Ol yedi arıq sığır – qızlıq olə.
Ol yedi arıq səmüzləri yedi,
Yedi il qızlıq olisərdir – dedi.
İlk olə yedi il ucuzluq təmam,
Sonra olə yedi il qızlıq təmam.
Saqi şahə geri gətirdi xəbər,
Şah eşidib həq dedi, ey bəxtəvər.
Şah dedi, gerçəkdir ol kim, böylədir,
Bir sorun ana ki, dərmani nədir.
Yusif aydır, ol ucuzluq olur,
Sonra yedi il təmam qızlıq olur.
Ol yedi il kim, uçuzluqdur, bilin,
Hər ilin iki yarağını siz qılın.
Hər zəxirədən olisərdir təmam,
Qoyasın bir illik anbar dəmadəm.
Arpa, buğda sapı birlə gizləniz,
Ol gələsi qızlıq üçün gözləniz.
Sapı ilə nə qədər durar isə,
Çürüməz, on il əgər qalar isə.
Gəldi saqi padşahə söylədi,
Hər nə kim, Yusif dedi, şərh eylədi.
Şah bu sözü eşidir, heyran olur,
Aşiq olur Yusif əz can olur.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şah sorur, necə kişidir ol kişi?
Ayıtdı, şəha, Ay, Günəş yoldaşi.

* * *

Üzü nurindən münəvvərdir cəhan,
Görən aydır, bu firiştədir əyan.

Yaxud huridir ki, uçmaqdən gəlir
Kim, küsüb gəldi cəhanə əz cinan.

Hər kim anın görə bir gəz üzünü,
Aşiq olur əql, qalməz cavidan.

Bir sözü bin dərdə dərman eyləyə,
Yanağı lə'l kibi şəkkər, ey can.

Qəddi sərvidir, sənubər bil anın,
Gözü nərgis, surəti çün gülüstan.

## MƏSNƏVİ

İbri oğludur, vəli, bədri-münir,
Yedi il oldu çəkər zindan, əsir.
Padişah aydır, əya saqi, ana
Layiq oldur kim, vəzir ola bana.
Nə səbəbdən kim, çəkər zindan bənd,
Ol üzü gül, ağzı bal, sözü qənd.
Saqi aydır ana, ey şahi-səvar,
Anı zindanə Əziz eylədi var.
Padişah aydır, oxun, gəlsin Əziz,
Nişə zindan çəkdi buncə əziz?
Gəldi iləri, ol Əzizi gördülər,
Yusif əhvalini andən sordilər.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dedi, qulumdur bu bənim, ol novcəvan,
Satın aldım, əya şahi-cəhan.
Oğlum olğıl, deyü ana söylədim,
Sonra bana xayin oldu, bildim.
Qıyamadım, bən anı öldürmədim,
Suçiylə ana zindan eylədim.
Şah ayıtdı, anı azad eyləgil,
Bənim üçün sən ana dad eyləgil.
Şəha, bən qulun, deyübən söylədi,
Şah önündə Yusifi azad eylədi.
Şah ayıtdı, at, don ilətin ana,
Alın anı, tez gəlin bəndən yəna.
Gəldilər zindanə, Yusif qatinə
Kim, anı ilətməgə sultan qatinə.
Nə səbəbdən çəkmişəm zindanbənd,
Bən yedi il həbs içində, ya gəzənd.
Padişahə ilətin bəndən səlam,
Sorsun əhvalim bənim şahi-giram.
Əllərini kəsən ol xatunləri
Şah qatinə oxusun anləri.
Ta ki anlər söyləyə sözün həmin,
Əgridən doğruyi bilə şah yəqin.
Gəldilər, sultanə qıldilər xəbər,
Şah dedi, anləri hazır qıldilər.
Həm Züleyxayi gətirdilər belə,
Şah önündə anlər gələ cəm’ ilə.
Ol xatunlər dedi kim, ey şəhriyar,
Yoxdur anın suçu, ey şahi-kübar.
Ayıtdilər, biz gördügümüz nur idi,
Yaxud uçmaqdən gəlir bir hur idi.
Bir kəzin kim, üzünə qıldı nəzər,
Əqlimiz getdi, qaldıq bixəbər.
Bixud olub, əlimizi doğradıq,
Çünkim anın həzrətinə uğradıq.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çün Züleyxa şərhi-Yusif dinlədi.
Ah qıldı, qatı-qatı inlədi.
Neyləsin, biçarə oldu ol nigar,
Cəmi' içində söylədi aşüftəvar.
Ayıtdı şah, tanıq ol vəqtdə gərək,
Xəsm inkar eyləyə andən gərək.
Diləyim ilə çünki iqrar eylərəm,
İşbu sözü həzrətində söylərəm.
Bəndən oldu hər nə kim oldu ana,
Aşiq oldum, baxmadı bəndən yəna.
Çox düşdüm, üzümə çün baxmadı,
Nə qılayım, sözümə ol baxmadı.
Duşdə gördüm bən cəmalini anın,
Ol cəmali-bakəmalini anın.
Yanlış anlatdım Əziz bilmədim,
Çünki bildim, könlüm ana eylədim.
Aşiqi-bən Yusifi-heyran zar,
Oldur axır bəni qılan biqərar.

**ŞE'Rİ-ZÜLEYXA**

Canimin içində candir bana,
Canimi qurban qılayım bən ana.

Aşiq olan kişidə ar olmiyə,
Namü təngi salmişəm bən bir yəna.

Çün vüsali-yar olmadı, nolə,
Ömrü baqi olmasın hərgiz bana.

Eşq odiylə yanirəm pərvanəvar,
Ahü zari, göz yaşı bürhan bana.

**MƏSNƏVİ**

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Uşbudur halim ki, bən şərh eylədim,
Dilim ilə vəsfi-halim söylədim.
Ayıtdı, bana hər nə kim gərək qılın,
Gərəksə qovun, gərək öldürün.
Çün Züleyxa söylədi bu dastan,
Ağladilər qəmu əz pirü cəvan.
Qamu heyran oldi anın dərdinə,
Kimsə irişmədi eşqi kərdinə.
Döndü aydır, ey Züleyxa, çün bana
Böylə dedin, bən təlaq verdim sana.
Ey Züleyxa, bəndən olğıl sən bəri,
Qandə kim, könlün dilər, andə yürü.
Çün Züleyxa döndü getdi işinə,
Eşit imdi nə gəldi başinə.
On səkkiz il növhə qıldı ol təmam,
Gecə-gündüz eşq ilə ağlər müdam.
Yusifi anmaqdən xanümanini
Verdi varin, tərk qıldı canini.
Hər ki, Yusifdən xəbər verir idi,
Ana ol gəncü gövhər verir idi.
On səkiz il gecə-gündüz ol fəqir
Ağladı kim, gözsüz oldu ol həqir.

**AMƏDƏNİ-YUSİF**

Baxmadı Yusif Züleyxa üzinə,
Başlayalım yenə Yusif sözünə.
At, don ana, libacə qurquşaq,
Baələm, batəbl gəldi yüz inaq.
Ayıtdilər, əhsəntə, ey ari gövhər,
Sənsən axır əsli-pak, purhünər.
Hər ki, gördü üzünü, ah eylədi,
Eşqini könlündə həmrah eylədi.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Geydi xəl’ətlər libacə əgninə,
Bağlədi zərrin kəmər həm belinə.
Tışrə gəldi, ata bindi ol əmir,
Yür idi həmmamə ol bədri-münir.
Xəlqi-aləm anı gördü buldu şad,
Qamulərə ruzi qılsın həq murad.
Girdi həmmam içinə bədri-münir,
Doldu həmmamin içi mişki-əbir.
Yusifi yudilər bamişkü gülab,
Sanki həmmam içrə doğdu afitab.
Yusifi bindirdilər həm izzü naz,
Baələm, batəbl, bazurnavü saz.
Çün sərayə gəldi ol gülüzar,
Girdi Yusif içəri xurşidvar.
Hər kim anın üzünə qılsa nəzər,
Gümrah olub, əql başdən gədər.
Sərv iki qat edibən ol zəman,
Padişahə xizmət etdi dövran.
Əl-ələ urdu, dua qıldı gerü,
Şahə ibri dili birlə ey ulu.
Otuz iki dil bilirdi padişah,
Bilmədi ibri dilini, qıldı ah.
Otuz iki dilcə Yusif söylədi,
Padişah anı tə’cüb eylədi.
Şah ayıtdı, ol nə dildir, ey pəri,
Söylədin biləyim, ey din əri.
Dedi, ibri dilidir, ey şəhriyar,
Kimsə anı söyləmədi aşikar.
Şah buyurdu təxti-şahi qodilər,
Keçdi Yusif qullər uru durdilər.
Yenə buyurdu həman dəm şəhriyar,
Yusif üzrə qıldilər ol dəm nisar.
Saqi gətirdi qədəh, doldurdu cam,
Sundu şahə lə’l içində lə’l-kam.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sazə gəldi xoş müğənni batərəb,
Yürüdi rəqqas, rəqs oldu əcəb.
Məclisi-şahənədim saz eylədi,
Yusifə şah döndü e'zaz eylədi.
Aydır, ey cani-cəhani dilpəzir
Kim, üzün xurşid, əya bədri-münir.
Səd həzəran tacü təxtü mülkü mal
Ayağın toprağinə olsun həlal.
Nə dilərsin, dedi, bəndən, ey ulu,
Hər necə mənsəb gərək, ey bəxtlü.
Ayıtdı, şəha, mənsəbi bən nedərəm,
Şah qapısında qənaət edərəm.
Şah dedi kim, sən vəzir olğıl bana,
Yusif aydır, bən müti' oldum sana.
Ayıtdı, bəglər bəgligin verəyim,
Ol Əzizindir, anı bən nedəyim.
Şah ayıtdı, sən diləgil, ya əmir,
Bən verəyim sana tacü təxti-yer.
Yusif aydır, bən müti' oldum sana,
Xəlq üzrə kətxudalıq, ya nəzir.
Şah ayıtdı, verdim, ey cani-cəhan,
Mülk üzrə kətxuda olğıl əyan.
Oldu pəs dördüncü məclis müxtəsər,
Dinləgil beşinci məclisdən xəbər.
Qılavız sizə yarın şərh bəyan,
Dinləyəsən baqasın xub dasitan.

## MƏCLİSİ-PƏNCOM

Gəl beşinci məclis, ey pürhünər,
Dinlə, əqlin var isə, ey bəxtəvər.
Can qidası hikmət oldu, ey əziz,
Mə'rifət könlündə bitdi, key təmiz.
Mə'rifət əhli, qulağın aç bəri,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Canə uyğıl, nəfəs tərk etgil geri.
Qissei-Yusif yenə yad edəlim,
Həm qisəs bağində pərvaz edəlim.
Keçdi Yusif bər səbati-məmləkət,
Hökm qıldı xəlqə ol bəgsifət.
Dən qidası yemək ilə uyqudur,
Pəs yəqin bil kim, yeməgi qayğudur.
Eylə qıldı ədlü insaf ilə dad,
Xəlq xoşnud oldu andən, ey qubad.
Xəlqi-aləm qıldı Yusifə dua,
Anı eşidib sevindi padişah.
Şükr qıldı kim, xəlayiq şad idi,
El, vilayət cümləsi abad idi.
Başlədi, oldi ucuzluq yedi il,
Xəlqə Yusif çox əkin əkdirdi, bil.
Hər nə kim əkərlər idi, yarisini,
Alıb anbar eylədi Yusif ani.
Ol qədər dərdi, anbar eylədi
Kim, hesabin heç kimsə bilməz idi.
Üç ilindən sonra əmri-layəzal,
Ol Züleyxa əhlinə irişdi əcəl.
Oldu həm ol işbu dünyadən nihan,
Məmləkət Yusifə qaldı ol zəman.
Eylə məhbub oldu Yusif şah ilə,
Şad olurdu padişah ol mah ilə.
Bir dəm əgər görməsəydi üzünü,
Öldürərdi padişah kəndözünü.
Şah sevinməkdən aydər, bir gəzin,
Sən şah olğıl aləmə hər bir gəzin.
Bən qocaldım, şimdidən geri həman,
Sənin olsun səltənət, ey dustan.
Dövlətüvdə bən dəxi bir neçə gün
Xoş keçirsəm ömrümü çox dövlətin.
Səltənət Yusifə oldu pəs dəxi,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şahə Yusif izzət edər, ey əxi.
Çün təmam oldu yedi il əmr ilə,
Buyuruq etdi tənri ol Cəbrailə.
Ol ki, uyxudən oyandı ol gecə,
Eylə qarnı acdı kim, ol dəm necə.
Yusif ana düzmüşdi key lətif,
Dürlü ne’mətlər gətirdi key şərif.
Yusifi kim şah mədh eylədi,
Kəndi elin ana təmkin eylədi.
Gəldi qızlıq tutdu dünyayi təmam,
Eşit imdi kim, nə qıldı ol giram.
Başlədi Yusif müdara eylədi,
Həm bu xəlq dərdinə dərman eylədi.
Padşahın xuninə düzdü cəra,
Dedi şahə, qılma bana macəra.
Hər nə kim, şahə təəllüq var idi,
Qamusın düzdü cəra alır idi.
Gəldi bu gəz şəhr xəlqini hesab,
Qamusının yaz adın dər kitab.
Öksüz oğlan, dul övrət var idi,
Şöylə kim, dünyalikdə əli tar idi.
Bunlərin çün qıldı riayət ol hümam,
Gündə yüz bininə verirdi təam.
Vəzn ilə verir idi xəlqə bir güzar,
Olmasın der ol şahvar.
Xəlq içində hər zəxirə kim, olur,
Bir ilədəkin tükənir, xəlq qalır.
Kimsədə qalmadı ayrıq bir qida,
Satər idi xəlqə ol sahibi-vəfa.
Öylə qızlıq oldu, ey sahibi-bəyan
Kim, bolur xəlq arasında fəğan.
El, vilayət, xəlqi-aləm gəldilər
Yusifin qatinə, buğday aldilər.
Şəhr xəlqi dedilər, ey nazənin,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Satma taşradən gələnə, ya əmin.
Ayıtdı, nişə satım bən bunlarə,
Verməmək varmı həqdən anlarə.
Anın üçün eylədim ənbar bən
Kim, zəvaidə olə xəlqə dər vətən.
Altun, inci, gümüş, həm lə'l, bil,
Verdilər buğdayə həm ikinci il.
Evlərini, həm səraylərin belə
Verdilər buğdayə beşinci ilə.
Misrə Yusif sultan oldu ulu,
Qırx idi çavuşları, ey bəxtlü.
Qırx bin ər ilə dururdu qapıdə,
Qamu durmuş qulluq edər tapıdə.
Ay üzündən olur idi niqab,
Yenə buludə girirdi afitab.
Bir gəzin gəldi xəlayiq, ey ulu,
Həftədə bir bulmaz oldilər qəmu.
Verdilər oğlanlərini aldilər,
Buğdayı alıb evlərinə gəldilər.
Yetmədi ol bu gəzin kəndilərin,
Verdilər oğul, aldilər buğday həmin,
Çıxdı Yusif bir uca köşk üstünə,
Üzün urdu, şükr qıldı dustinə.
Geri oxutdu bu xəlq kim gələ,
Pəs nə deyərsə, bunlarə mə'lum olə.
Qıldilər ol dəm münadi, gəlin,
Ey xəlayiq, şah buyurdu kim, bilin.
Xəlq döndərdi geri tu ümidvar,
Bilmədilər kim, nə der ol şəhriyar.
Eylə sandilər peşiman oldu şah,
Geri buğday alə deyü qıldilər ah.
Yusif aydır, qamu bir gəzdən gəlin,
Ey xəlayiq, şah buyurdu, gər bilin.
Ayıtdı, iqrar eyləniz, ey xasü am,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kim, qamunuz bana oldunuz qulam.
Qamu bir gəzdən sana olduq əsir,
Gərək isə, sat, gərək qo, ya əmir.
Ey xəlayiq, tənri eşqinə qəmu
Azad olun, qəmunuz bəndən əmu.
Qamu bir gəzdən ana qıldilər dua,
Uş qapındə qulun olduq, diriğa.
Yenə Yusif həzrətinə gəldilər,
Çığırışibən həzrətinə durdilər.
Qıldilər fəryad, zarivü nəfir,
Dedilər, fəryad irirgil, ya əmir.
Yusifin ayrıq zəxirə qalmədı,
Anlarinlə neyləyəsin bilmədi.
Girdi xəlvətxanəsinə ol nigar,
Üzün urdu toprağə çün qıldı zar.
Bir gəz aydər dərd ilə kim, ya əhəd,
Sənsən axır qamuyə irən mədəd.
Ya ilahi, qullərin rizqini sən
Ruzi qıldın nə qılayım imdi bən.
Gəldi Cəbrail həman saət ana,
Ayıtdı, ya Yusif, həqq əmr etdi sana.
Öylə əmr oldu sana, ey bəxtlü,
Üzünü göstər bunlarə, ey ulu,
Kim, sənin üzünü görmək bunlarə,
Rizq olubdu, ey şahənşah, anlarə.
Gündə bir gəz üzünü görmək bunlarə
Ol qida olur bay yoxsul anlarə.
Dəxi qırx gün qalmışdı kim, irə,
Yengi buğday Misr şəhrinə gələ.
Gündə bir gəz yazıyə Yusif çıxar,
Üzün açər ol xəlayiqlər baxar.
Üzünü görən qalır heyrani-zar,
Dəli olub qalır idi biqərar.
Qullərinə Yusif eylərdi əta

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Surətindən, doyur idi bay-gəda.
Nə əcəb gər Məhəmməd eşqinə
Göstərə dindarini qullərinə.
Ey kərimi-karsazi-binəzir,
Vay əgər ədl eylər isə binəzir.
Ol Məhəmməd eşqinə fəzl eyləyə,
Ümmətin didarı ilə doyləyə.

## AMƏDƏNİ-BƏRADƏRANİ-YUSİF BEŞƏHRİ-MİSİR QAHİRƏ

Gəldik imdi Yusifin qərdaşləri,
Babası və qövmləri, yoldaşləri.
Qızlıq ilə qamusi zar oldilər,
Buğdayə qamu həvadər oldilər.
Qızlıq ilə beşinci yıldı məgər,
Qamu aləm xəlqinə oldu xəbər
Kim, Misirdə bir ulu bəg namdar
Varanə buğday satardı ol nigar.
Ol xəbər Kən'anə gəldi, bildilər,
Gəldilər Yə'qubə mə'lum qıldilər.
Ancə Yusif eşqilə qılıb fəğan,
Gözsüz olmuşdu Yə'qub ol zəman.
Gəldilər oğlanləri aydır ana,
Atamızsın pəs, ey şahi-ənbiya.
Dedilər, baba, Misirdə bir kişi
Xəlqə buğday satmaq olur işi.
Gər bizə izn olursa varəlim,
Yemək üçün çox buğda aləlim.
Söylədi anlərə ol Yə'qubi-pir,
Yaraq eylən kim, varasız ey nəzir.
Aydır, oğlum, Misirədək yüklədin,
Alın atı Misrədək siz gedin.
Yüklə yağ, kaşı, bez aldilər,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər birini dəvəyə yüklədilər.
Göndərər Yə'qub on oğlu belə,
İbn Yamin qaldı, girdilər yolə.
Aydır, ey oğlanlərim, kiçi, ulu,
Yusifimdən bir xəbər, ey bəxtlü.
Qandə kim, varəsiz, anı bir sorun,
Bir xəbər andən bana bili verin.
Anlər aydır, Yusifi unutmadın?
Eşqini hənuz dəxi tərk etmədin?
Yola girdilər, bunlər oldu rəvan,
Misrə yaxın gəldilər ol kəriban.
Yolda Yusif bəkçi qomuşdı kişi,
Hər nə olsə, bana aydınız işi.
Nagəhan gəldi Yusif qərdaşləri,
Bir cəmaət bilədir Yusif yoldaşləri.
Gəldilər, Yusifə qıldilər xəbər,
Donların türfə geymişlər bunlər,
Kən'an elinin yolindən gəldilər.
Bunların surətləri xub-lətif,
Bənzəməz bunlər məgər həmçu şərif.
Yusifə qıldı bunlər şərhi-məqal,
Bildi Yusif necədir vəsfi-hal.
Bildi ol qərdaşləridir kim, gəlir,
Ah edib, əqli gedib heyran olur.
Ayrılandən bəri Yusifi-əmin,
İki bin namə babasınə yəqin
Yazmışdı, babasınə dəgmədi,
Namə ilətənlər anı görmədi.
Vəqti oldu, çünki bunlər gəldilər,
Bəkçilər Yusifə xəbər qıldilər.
Bildi Yusif çünki vəsfi-dasitan,
Bindi seyran atınə, oldu rəvan.
Qırx bin ər binmişlər idi həm belə,
Ulu tə'zim birlə girdilər yolə.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çünki Kən'an yolinə gönəldilər,
Qarşıdən qərdaşləri göründülər.
Gördi Yusif kim, gəlir qərdaşləri,
Biləsində bir neçə yoldəşləri.
İki nərgis suyə düşdü nagəhan,
Lalə gül üzrə seylab rəvan.
Yusifin qərdaşləri bildi xəbər
Kim, Əzizi-Misrə irişdi mö'təbər.
Çevrə aldı anləri ləşkər qəmu,
İləri yurüdülər andə, ey əmu.
Gəldilər şahə çü xizmət qıldilər
Kim, Əzizi-Misr budur bildilər,
İbn Yamin o aradə bolmadı,
Bunlarə könlü təsəlla olmadı.
Gəldi Şəmun iləri, qıldı dua,
Yusifə ibri dilincə, ey səfa.
Həm gətirdi babasındən səlam,
Der, dua qıldı sizə Yə'qub imam.
Yusif eşitdi, babası var imiş,
Yusif üçün illa qatı zar imiş.
Yusif aydır, tez buları qondurun,
Ol bənim kiçi sərayə endirin.
Verdi anlarə çün xon, təam,
İzzət eylədi bunlərə ol imam.
Bənzəməz der bu vilayət qövmünə,
Varınız, xoş görünüz anı yenə.
Bizim içün gəldilər anlər yenə,
Pəs soravız, anlərin məqsudi nə.
Hər birinə xəl'əti-xas eylədi,
Veribdi bunlarə, həm xoş söylədi.
Geydilər bunlər məlikanə donu,
Girdilər həmmamə, bir gəzdən onu
Yudilər, anlarə izzət qıldılar,
Danla oxutdu bunləri şəhriyar.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Durmuş idi yedi bin qul qapıdə,
Qurşaqlı xizmət eylər tapıdə.
Qırx idi çavuşları çövkan ilə,
Qızıl altundən tutub əl ilə.
Yedi pərdə asılıdır zərnigar,
Pərdə, zənbur qamusı şahvar.
Hər bir pərdədə var bir mahru,
Lə'l, inci geydügi donlar qəmu.
İzzət ilə anləri gətirdilər,
Girdi anlər, pərdəyi götürdülər.
Çün sərayə girdi anlər içəri,
Andəkilər qamusı durdu uru.
Bir sərayə girdi anlər, çün behişt,
İçi dolu huri-rizvan, sən eşit.
Qarşı səffə içrə bir təxt qurulu,
Təxt üstündə oturur bir ulu.
İlla üzü görklü dər niqab,
Görməsin ülkər deyi, ya afitab.
Şah buyurdu, qodilər od səndəli,
Qızıl, altun kim, oturə on vəli.
Padişah anlarə ikram eylədi,
Şad gəldiniz, deyibəni söylədi.
Qodilər on yerdə altun sinilər,
Yüz dəxi bir yerdə gümüş qodilər.
Hər birində on çanaq var, ey ulu,
Biri altun, biri gümüşdü dolu.
Kimi həlva, kimi zərdə, ziri-pa,
Kimi şəkər, kimi kəbab, həm şorpa.
Dürlü həlvalər dəxi gətirdilər,
Hər bir çənaqdə bir qaz qodilər.
Gəldi iləri Yusifin qərdaşləri,
Bir-birinə söylədi ol işləri.
Yedilər ne'məti, oturdilər geri,
Gəldilər xuni götürdülər geri.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şəkkəri-şərbət götürdülər yenə,
Qızıl, altun cam ilə hər birinə.
Verdilər şərbəti, bunlar pəs içdilər,
Həzrətinə Yusifin xoş keçdilər.
Sordu Yusif bunlarə kim, şimdi siz.
Qənqi eldən siz gəlirsiz, ey əziz.
Dedilər kim, elimiz Kən'an olur,
Bu duaçılər qəmu andən gəlir.
Yenə sordu, bir-birinizə necə
Qövm olursuz, aydınız siz, ey xocə.
Dedilər, biz onumuz qərdaşləriz,
Bir atadan qamumuz qərdaşləriz.
Atəmizdir qocəçuq Yə'qubi-pir,
Ol duaçıdır sizə, ey şahi-gir.
Həm dədəmiz bizim İbrahim olur,
Səhf içində ol Xəlilullah gəlir.
Babamız, ey şah, peyğəmbər olur,
Tənri dərgahində ol rəhbər olur.
Yusif aydır, onmısız qərdaş həmin,
Yaxud ayrıq varmıdır, ey mö'min?
Dedilər, var bir dəxi bizdən kiçi,
Babamızın sevdigi könül içi.
Bir dəxi andan kiçi yar var idi,
Xub idi, həm məhbub idi, dildar idi.
Yusif aydır, qəncəri getdi əyan?
Dedilər, qurt yedi anı, ey can.
Uş igirmi altı il oldu təmam,
Babamiz anıb anı ağlar müdam.
Ağlaməqdən görməz oldu gözləri,
Bir evə girdi, çıxmaz özləri.
Ol adı Beytül-əhzan eylədi,
Andə oturubən fəğan eylədi.
Çün Yusif böylə eşitdi dasitan,
Ah qıldı, ürəginə damdı qan.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yenə sordu anlərə kim, ya rical,
Nədən oldu sevgili ol bir əyal?
Var idi andə məgər kim, bir hünər,
Anın için sevdi anı ol pədər?
Dedilər, şahi-cəhan, məhbub idi,
Qamumizdən yegrək ol məzlum idi.
Aqil idi, fazil idi, ol səbi,
Anın üçün sevdi anı ol əbi.
Ayrulalidən bəri ol pürhünər,
Babamiz qılmadı bizə bir nəzər.
Ol gedəlidən bəri dadlı təam
Yemədik biz, ey şahənşahi-giram.
Çünki bunlər Yusifi mədh eylədi.
Vəsfi-hali qamu gerçək söylədi.
Xoş tutam bən bunları, xoş söylərəm,
Ola kim, bən babamın üzün görəm.
Ayıtdı, bunların qumaşını alın.
Götürün qamusını, ərzə qılın.
Anların yüklərini götürdülər,
Şah önündə qamu ərzə qıldilər.
Düklləsi bir külə dəgməz idi,
Aldı Yusif anı, qəbul eylədi.
Dəgmə hər bir dəvə yükündə qızıl,
Belə verdilər bunlarə, bəlli bil.
Yükdə altun var idi, bilmədilər,
Evə varmayıncə həm bulmədilər.
Dəvələrini bunların aldilər,
Yüklədibən geri bunlərə verdilər.
Yük birlə hər birinə bir dəvə,
Bəxşiş etdi bunlərə, bil, ey dədə.
Babanızə bəndən ilətin səlam,
Ayıdəsiz ana ki, ey şahi-giram
Kim, Əzizi-Misrə qulundur sənin,
Ehtiyacı həm sana vardır anın.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ey yarənlər, bən sizi görsəm gərək,
Ol yerinizə dəxi irsəm gərək.
Diləgim oldur ki, bən sizi görəm,
Ana dəxi malü ne’mət həm verəm
Kim, Misrdə sizciləyin adəmi
Kimsə görmüş degildir hər dəmi.
Ayıtdı, biriniz gərək bundə qalə,
Qalanınız geri bundə tez gələ.
Qoymadı Şam’uni key dedi ol,
Qalanı yüklətdi yükün ol.
Gəldilər yüklərini qutərdilər,
Bir-birinlə söyləşirlər həm bulər.
Duydı bunlər, ol Yəhuda söylədi:
Böylə könlüm bir işarət eylədi.
Könlüm aydır bana, işbu şəhriyar,
Ey əcəb gər olmaya Yusifi-nigar.
Anlər aydır, dur, ayrıq söyləmə,
Yusifin vəslin təmənna eyləmə.
Uş igirmi altı il oldu ana,
Yavi olə, bu nə sevda sana?
Kim bilə nərədə yavi qıldi ol,
Ya nərədə getdi qaldı, öldü ol.
Ta ki, Kən’anə irişdilər bunlər,
Dedilər, oğlanlərin uş gəldilər.
Dəvələrin çəkdilər, yürüdülər,
Xəbər qıldı Yə’qubə müjdəçilər.
İlla doquz gəldilər bunlər həmin,
Şəm’un aradə yox idi, bil yəqin.
Çün eşitdi, dərd ilə ah eylədi,
Dərd ilə könlünü həmrah eylədi.
Gəldilər oğlanları yük çeşdilər,
Babaləri əyağinə düşdülər.
Döndü, dedi, Şəm’unum bənim qanı?
Kim bilə, nə qıldınız andə anı.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İlətdiniz, Yusifi yavi qıldınız,
Kim bilə, Şəm'unimə nə qıldınız.
Dedilər kim, baba, ol şahi-Əziz
Xizmət eylədi bizə ol təmiz.
Rəxtimizi kim ilətdik, gördülər,
İki yüz axça bəhasın kəsdilər.
Uş bunun kibi bizə xəl'ətləri
Kim, geriyə deyəm ol sərvəri.
Dəvəmizi yüklədi buğday ilə,
Bir dəvə kəndi dəxi verdi belə.
Ol dəvə yüklərini qutərdilər,
Hər birində bin qızıl buldilər.
Bilmədik, baba, şahın əsrarini,
Yükümüzdə qızıl-altun varini.
Dedilər kim, zikərəm, zixoş kişi
Kim, qılısar buncılayın bəxşişi.
Sordu bizi ol qəmu bir-bir əyan,
Biz dəxi qıldıq ana şərhi-bəyan.
İbn Yamindən dəxi bildi xəbər,
Dedi kim, görsəm anı, dəxi nedər.
Sizcilayın taifə bən görmədim,
Sizcilayın adəmə bən irmədim.
Anı dəxi, der, görəm gətirsəniz,
Biz ayıtdıq, ol qaldı babamiz.
Aydır ol, dəxi bana gəlmək gərək,
Anınlə dəxi buluşmaq gərək.
Qomadı Şəm'uni belə gəlməgə,
İbn Yamini dilədi görməgə.
Həm gətirdi ana xəl'əti-şahvar,
Bir dəxi bir nazi verdi istivar
Kim, Yusif əhvalini şərh eylədik,
Sordu İbn Yamini, biz söylədik.
Dedi, İbn Yamini alın, gəlin,
Bunu dəxi belə alın, gedin.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İmdi, baba, söyləmədik biz yalan,
Yalan olur qamudən geri qalan.
Çünki Yə'qub işbu sözü dinlədi,
Dərdilə ah eyləyib inlədi.
Döndü, aydır bunlərə, ey cani-pak,
Yusifin dərdindən bən oldum həlak.
Dedilər kim, baba, ey şahi-üsul,
Dilər İbn Yamini də görə ol.
Məqsudi oldur, baba, həm sizləri,
Qamunızı görmək istər özləri.
Tanıq olsun, baba, tənrimiz bizə,
İbn Yamini gətirirsiz sizə.
Yə'qub aydır, tənriyə ismarlədim
Sizləri bən, bilin, ey oğlənlərim.
Yusifin dərdi bəni yandırdı, bilin,
Sorun ol şahə, xəbər bizə qılin.
İlla, tənri üçün əmanətdir sizə,
Yusifimdən bir xəbər istən bizə.
Bunlər aydır, ey qoca, nədir əcəb,
Yusifi dəxi hənuz qılır tələb?
Yə'qub qatində bir dəstar olur,
Yadigar həm ol dədəsindən qalır.
Oldurur dəstari-xeyr peyğəmbəran,
Kimə dəgsə, bəni olur, bil əyan.
Anı bir həqqin içində qodu,
İbn Yamini iləri oxudu.
Ayıtdı, oğlum, padişahı görəsin,
Bunu ana sən təbərrük verəsin.
Ayıdəsin, qıldı dua babam sana,
Lütfünə, ehsaninə qıldı tana.
Biləsən kim, ol duaçıdır sizə,
Verəydi biz qulunu həm sizə.
Yə'qub aydır, bu nişanlər kim, gəlir,
Nə əcəb ol şah Yusif olur.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gördigü duş ana bürhan olisər,
Ol bir iqlim üzrə sultan olisər.
Yusifimi yavi qıldım, nedəyim,
İstəməgə qənqi yolə gedəlim?
Bana gələn kimsənəyə gəlməsin,
Bəncilayın kimsənə məhrum olmasın.
Gecə-gündüz eşqilə zar eylərəm,
Daim adın dildə təkrar eylərəm.

### ŞERİ-YƏ'QUB BEFƏRAQİ-YUSİF

Ayrılalı Yusifimdən, ey giram,
Beytül-əhzan uş bana oldu məqam.

Şazlığım getdi könlümdən bənim,
Könlüm evin tutdu qayğı bərdəvam.

Firqətilə ağləməq oldu həlal,
Vüslətinə könlüm oldu həm həram.

Uş cigər qaniylə göz yaşını,
Kağıd üzrə nəqş qıldım dərsəlam.

Bən quzıcağimi yavi qılmışam,
Veribidim birin sana həm, ey hümam.

### MƏSNƏVİ

Yazər ikən namədə göz yaşini,
Anınlə yazdı bəğri başini.
Bundə bir məclis dəxi oldu bizə,
Ayıdəyin altıncı məclisdən sizə.
Gecə-gündüz xəbər olmasın sahibi-bəyan,
Söylənə yenə yarin bu dasitan.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## ƏL-MƏCLİSİ-ŞEŞŞOM

Geri çün kim, mə’rifət saz edəlim,
Sizə mə’ni sözün ağaz edəlim.
Tutiyə, şəkər tökəlim bihesab,
Bülbülə gül göstərəlim bir səvab.
Deyəlim altıncı məclisi-məqal,
Dinlə imdi necə oldu vəsfi-hal.
Həsrət ilə namə qıldı təmam,
Verdi oğlanlərinə, aydır imam:
Uş bən sizə bir vəsiyyət eylərəm,
Sözümü tutun bənim kim, söylərəm.
Bir qapıdən girməniz qamu bilə,
Dəgməsin sizə yavuz nəzər kim, belə.
Dəgmə qapıdən ikişər girin,
Dərilib biryerdə ol şahə varin.
Eylə olsun, dedilər, yönəldilər,
Az zəmandən Misrə yaxın gəldilər.
Bəkçilər Yusifə gəldilər geri,
Ol igitlər geri gəldilər deyi.
Hökm qıldı Yusif ol dəm anlərə,
İkişər girsin qapıdən şəhrə.
Gəldi məhbublər, bunlər gördülər,
Dögmə qapıdən ikişər girdilər.
Yenə əvvəlki sərayə anləri,
Qondurub xoş görərlər bunləri.
Sordu Yusif, qaç kişidir gələn?
Dedilər, on bir, ey sultani-kərəm.
Çunki eşitdi, sevindi xatiri,
Dedi Yusif, İbn Yamindir biri.
Əvvəl andə anləri qondurur şah,
Ne’mət ilə qamusun qandırır şah,
Anlərə Yə’qub ayıtmişdi ki, siz

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Padişahdən üzür diləyəsiz.
Çün irişdi, qamusu durdilər,
Padişəhin qatinə həp gəldilər.
Şah buyurdu, iraqdən durdilər,
On yedi bin qul qapıdə durdilər.
Qızıl altundən idi çövkənləri,
Şah qatinə oxudilər anləri.
Dedilər şahə, uşbu altunləri
Yükümüz içində bulduq biz buni.
Altunləri Yusif önündə qodilər,
Naməyi həm şah əlinə verdilər.
Yusif aydır, babamın işidir həmin,
Bunlərdən bu iş gəlməz yəqin.
Qodilər qarşıdən on bir səndəli
Kim, otursunlər deyi on bir vəli.
Çünki bəglər, pəhləvanlər oturur,
Altı yüz ər, çox bəglər durur.
Aldı naməyi, Yusif oldu rəvan,
Gördü dəstarı, şükr həman.
Bildi kim, ana nubüvvət qıldı həq,
Şükri yəzdan qıldı Yusif dərsəbəq.
Aldı naməyi oxudu ol zəman,
Nərgisindən oldu seylab rəvan.
Dərdi zar ilə yazmış fəqir,
Firqəti-Yusif anı qılmış həqir.
Şah buyurdu çünki gətirdilər,
Önlərində qodilər, oturdilər.
Şah sordu bunlərdən: qamunuz
Bir ana, bir atadən doğduduz?
Dedilər bunlər, atamız birdirir,
Həm anamız altıdır, ey xoşhüzur.
Dedi, hər qənqi kim, ana bir olə,
İkişər xonə otursunlər belə.
Anəsi bir ola xonə oturur,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yalınız qaldı İbn Yamin, ah qılır.

* * *

Ağlər, aydır, ey diriğa, bən fəqir
Nə qılayım, yalınız qaldım həqir.

Var oleydi şimdi qərdaşim bənim,
Yar oleydi, qalmayaydım bən fəqir.

Dərt əlində görürəm cövrü cəfa,
Bəni yarimdən ayırdı nagərir.

İbn Yamin qaldı bundə yalınız,
Gər oleydi şimdi şah Yusif əmir.

Nedəyim, dərdimə dərman olmadı,
Bulamadım Yusifi bən Zərir.

Kimə verir həsrət, dudi-fəraq,
Həm kimsənəyə izzət irər bərsərir.

* * *

Ürəgində qan tökərdi gözləri,
Ah edibən dür saçərdi sözləri.
İbn Yamin bundə ağlər zar-zar,
Yusif andə olmuş idi biqərar.
Yusif aydır, neçün ağlərsin, yigit?
Halin-əhvalin bana sən ərz et.
Ayıtdı, şəha, var idi bir qərdaşim,
Bir anadən belə doğmuş yoldaşim.
Qurt yedi anı, yalınız qalmişəm,
Ağlamağım bənim, ey möhtəşəm.
Var oleydi gər bənim qərdaşcığım,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Anınlə belə oleydim, ey ulum.
Yusif aydır, gəl xun yeyəlim belə,
İbn Yamin der, əgər dəstur olə.
Yusif aydır, ey yigitlər, eşidin,
Ol bənimlə yesin ayıdin.
Dedilər, şah, fəxr ola yəqin,
Ol səninlə olur isə həmnişin.
Yusif aydır, xəlq içində bən təam
Yedigim yoxdur, əya qövmi-giram.
Durdı Yusif, İbn Yamindir belə,
Aldı girdi xəlvətinə şövq ilə.
Xun qodilər, xəlvət etdilər məqam
Kim, ikisi böylə yerlərdi təam.
Sundu Yusif, açdı üzündən niqab,
Eylə saneydin göründi afitab.
İbn Yamin baxdı, ah eylədi,
Düşdü yerə əqli gümrah eylədi.
Gül suyunu saçdilər gül üzünə,
Əqli gəldi İbn Yamin özünə.
İbn Yamin, dedi, biz peğəmbəriz,
Həm bu pirlər bizə qılməz yavuz.
Pəs nə oldu kim sana, düşdün yerə?
İbn Yamin səbr edər əqlin dərə.
Dedi, ey sultani-xubani-cəhan,
Söyləyəyim sözümü sizə əyan.
Ol bənim yavi qılmış qərdaşım
Sizə bənzərtdim anı, ey ulum.
Yusif İbn Yaminə aydır, aç gözün,
Əqlini dər, yavi qılmə kəndözün.
Bənəm axır Yusif, ey cani-mən
Kim, yavi qıldın bəni əndər-vətən.
Çünki Yusif kəndözünü söylədi,
İbn Yamin dəxı bir ah eylədi.
Gül açıldı, çünki açıldı niqab,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xərməni-gül, geri oyandı afitab.
İki bülbül, iki gül qovuşdilər,
Vəsl suyun bir-birindən içdilər.
Getdi firqət, gəldi vüslət namurad,
Ol ikisi bir-birindən oldu şad.
Bir-biriylə bir zəman şad oldilər,
Sevinib qayğıdən azad oldilər.
Bir-birinin xatirin sordular,
Bir-birindən abi-heyvan sundular.
Sundu Yusif İbn Yaminə nəval,
Dedi kim, irişdi bizə uş vüsal.
Xoş sevinibən bunlər oturdilər,
Ara yerdən qayğıyi götürdülər.
Yedilər ne'mətləri xoş, şadü kam,
Bir-biriylə oturdilər vəssəlam.
Sordu Yusif babasindən dastan,
İbn Yamin qıldı xoş şərhi-bəyan.
Yusif aydır, İbn Yamin, bən sana
Bir xəbər versəm, qulaq ursən bana.
Dedi, ey can, nə buyurursin, buyur,
Canim üzrə hökm qıl, ey xoşhüzur.
Dedi, kimsə sirrimizi bilməsin,
Müttəle' qərdaşlərimiz olməsin.
Bən bunlərə şimdi bir al eylərəm,
İlla səni bunlərdən alərəm.
Bana könlün yavuz olmasın paşa,
Bən səninəm, sən bənimsin, bin yaşa.
İbn Yamin dedi kim, fərman sənin,
Eylə olsun canü dil qurban sənin.
Aydır, imdi sən bunların qatinə
Geri vargil, birlik eylə yatinə.
Geri gəldi İbn Yamin, gördülər,
Şah sana verdi, deyi sordilər.
Gəldi Yusif, oldu təxtə rəvan,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər birinə qıldı bəxşişlər əyan.
Əl gətirdikləri bin-bin atlını
Anlərə bağışladı geri anı.
İki onca İbn Yaminə verir,
Qamusindən yegrək anı xoş görür.
Anlərinlə kariban kim, gəldilər,
Padişahdən qamu buğday aldilər.
Yusifin bir qızıl altun sağəri var,
Anınlə yə'ni buğday ölçülür.
İbn Yamin yükündə qodilər,
Saxladilər kim, anı görmədilər.
Bağladilər yüklərin bunlər həman,
Yükləriylə yolə girdilər həman.
Öylə dəkin yolə çün getdilər,
Padşahdən geri qullar yetdilər.
Yetdi qullər karibanı döndərə,
Qamusın ol yerə qondurə.
Dedilər, nəsnə oğurlandı, bilin,
Ortanizdə tez tutun, bulun.
Anlər aydır, ol necə nəsnə olur?
Bunlər aydır kim, mürəssə' sağər olur.
Gəldi Şəm'un aydır, ey cani-cəhan,
Ancılayın bizdə olmaz, bil əyan.
Ayıtdı, sizdə bulunursa ol təmin,
Ayıtdı, yazıqlı olə, ey əmin.
Ayıtdilər, oğurluq eyləyən kişi
Qul olsun, necədir anın işi.
Ayıtdilər kim, ol təmini kim çalə,
Qul ola kim, anın işi qövl olə.
Çünki bunlər qövli-iqrar qıldilər,
Anlərin yüklərini aradilər.
Qüdrət ilə İbn Yamin yükünü
Aradilər, andə buldilər ani.
İbn Yamini giriftar etdilər,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Aldilər sağərlə şahə gəldilər.
Qaldilər qərdaşləri heyran, zar,
Nə qılalım, deyi qıldilər qərar.
Dedilər kim, gerü varalım ana,
Yalvaralım başəd işimiz önə.
Yüklərini andə qodilər qəmu,
Gəldi Yusif qatinə, ey əmu.
Yusif aydır, nişə geri döndünüz,
Nə səbəbdən geri bundə gəldiniz?
Dedilər kim, ey şahənşahi-cəhan,
Ey səxavət əhli, dildari-zəman.
Bizə çox dürlü şəfaət eylədin,
Kəndi lütfündə səxavət eylədin.
Kəndi lütfündən bizi tutdun əziz,
Bir dəxi səxavət eylə, ey əziz.
Ol biztm qərdaşcığımız ver geri
Kim, səxavət səndən olsun bəri.
Yusif aydır, bən sizə qövl eylədim,
Qulunuzdur ta ki sizə söylədim.
Qərdaşiniz oğruluq qıldı əyan,
Qulunuz da qulum oldu bu zəman.
Siz dediniz, hər ki, oğurluq qıla,
Qövlünüz oldur kim, ol qul ola.
Ayıtdilər, qərdaşı anın bir dəxi,
Var idi kim, oğruydu ol dəxi.
Yusif aydır könül içində rəvan,
Söylədiniz, ey qərdaşlər, yəlan.
Könül olmuşdu geri verməgə,
İbn Yamin alıban varmağə.
Çünki anlər eylə böhtan etdilər,
Vermədi Yusif anı, gör netdilər.
Dedilər, ey şəhriyari-bagiram,
Çox kərəm qıldın bizə sən, ey imam.
Bir dəxi qılğıl səxavət, ey ulu,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bizə bağişlə anı, ey bəxtlü.
Ol birisin yavi qıldı, nedəlim,
Ansız atamızə necə gedəlim.
Gəl anı ver, al bizim birimizi,
Qılmə məhrum andə ol pirimizi.
Birimiz bundə sana qul olmağə,
Xizmətə, qulluğə məqbul olmağə.
Yusif aydır, bən sizə güc etməzəm,
Suçı yox kişilərə suç etməzəm.
Oğrum oldur tutəm anı, bən sizə,
Anın uçün qılmayam bən güc sizə.
Necə kim, cəhd eylədilər, olmadı,
Yusif anlarə mühabə qılmadı.
Dedilər kim, bu bizə qul olmiyə,
Babamız qatində məqbul olmiyə.
Necə gərək yalvaravız ana biz,
Güc ilə xor neyliyə bizə əziz.
Ol Yəhuda dedi, bir gəz çağırım,
Misr qapusın bir-birinə həm urum.
Şəm’un aydır, daş ilə bən evlərin
Qılayım zirü zəbər, nə kim varin.
Rəvil aydır, bana yüz bin yetmiyə
Kim, gəlirsə alayimdən getmiyə.
Hər biri bir dürlü də’va eylədi,
Bir-birinə uşbu növ’ə söylədi.
Yusif anlarə kişi qoymişdi
Kim, anləri gözləniz, demişdi.
Bir-biriylə iç ara söylədilər,
Muştuçilər Yusifə qavuşdilər.
Bildi Yusif anların əhvalini,
Cəng içində məkrü fe’lü alini.
Dedi, bunlər eylə etsə, anlərə,
Kimsə qarşı durəməz anlarə.
Hökm qıldı bindi on bin ər çəri,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ahənü fulat geydiri hər biri.
Şəhr içində düşdü qovğa nagəhan,
Bir-birinə düşdülər pirü cəvan.
Şəhrə gəldi Yusifin qərdaşləri,
Tışrə gəldi anların qoldəşləri.
Çünkim anlər şəhrə gəldilər, ey yar,
Ol Yəhuda nə’rə urdu rə’dvar.
Xəlq eylə sandı kim, yıxıldı gög,
Kimsənədə qalmadı hiç ussü ög.
Şahi-Rəyyan ussu getdi nagəhan,
Əqli gəldi, sordu kim, nədir fəğan?
Dedilər şaha, ol ibrilərin
Nə’rə urdu biri, ey şah, anların.
Şahi-Rəyyan çıxdı, anları görür,
Qorxusindən qaçdı qəlayə girir.
Qarşı gəldi anlarə Yusif əmir,
Baələm, batəblü zudrnavü nəfir.
Həmlə qıldı Şəm’un ol dəm ləşkərə,
Kimsə qarşı durmadı ol sərvərə.
Yusif aydır, ya Rəhil, cənk qılmanız,
Yalınız kəndözünüz ər bilməniz.
Eylə deyərək, təpdi Yusifi-bay,
Əlinə aldı anları ol dolu Ay.
Anlarə qarşı anı bir gəz açar,
Silkər ol dəm anların gücü qaçar.
Həmlə qıldı anlarə Yusif həman,
Hər birinə urdı bir kürzi-giran.
Yıxdı anları, giriftar eylədi,
Dükəlisin bağladı, zar eylədi.
Baş aşağə saldilər bunlər qəmu,
Bir-birinə baxışırlar, ey əmu.
Dedilər kim, uşbu necə haldı
Başimizə gəldi, məkrü aldı.
Bizdən oldu bizə anı key bilin,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dedigim sözə bənim təslim olun.
Könlüm aydır Yusifdürür bu cəvan,
Ancılayın kim, qıla bizə, ey can.
Dünyadə bizə müqabil kim ola,
Bizim ilə uşbu işi kim qıla?
Eylədi qıldı Yusif anları xərab,
Ta səray önünə gəldi başitab.
Qamu anları gətirdilər geri,
Anlarə zindan buyurdu şahi-ulu.
Anları zindan içinə saldilər,
Üç gün anlər həbs içində qaldilər.
Çün eşitdi şahi-Rəyyan qissəyi,
Külli-könlündən gedirdi qüssəyi.
Yusifə eşqi bir ikən, bin olur,
Ta ki qovğa ol zəman sakin olur.
Getdi adəm, çün anləri gətirdilər,
Əli bağlı, boyni bağlı durdilər.
Yusif aydır, ey yigitlər key bilin,
Şah buyurdu bunları öldürün.
Ayıtdı, bən sizin kibi yigitləri,
Heyf ola kim, öldürəm bən sizləri.
Pəhləvani-xubüzlüsən benam,
Bən sevirəm pəhləvanı, ey giram.
Hər kim, ərdir oları sevmək gərək,
Ər yolində ər kibi durmaq gərək.
Varın, imdi sizi azad eylədim,
Canınızı sizlərə bağışlədim.
Bən sizə siz etdinizi etməzəm,
Anın üçün bən sizə qəsd etməzəm.
Əllərindən bəndlərin götürdülər,
Şah alayında bunları sürdülər.
Tışrə çıxdilər, nə at, nə dəvə.
Nə xod nəsnə var kim, ilətələr evə.
Dedilər babamizə getmək gərək,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İşbu halı ana şərh etmək gərək.
Ol ikisi andə qaldı ol zəman,
Ol qalanı yolə girdilər rəvan.
Gecə-gündüz durmadilər, getdilər,
Ta ki Yə'qub qatinədək yetdilər.
Ol əhvalı qamu təqrir eylədi,
Nə ki, oldu, babasinə söylədi.
İbn Yamin sağər oğurladiğini
Söylədilər qamu birin-birini.
Çünki Yə'qub eşidər bu dasitan,
Anlarə inanmadı, aydır, yalan.
Ah qıldı Yə'qub, aydır, ey diriğ,
Kim, ümidim qalmadı bənim zaye.
Döndü Yə'qub kağıd aldı, qələm,
Çəkdi qərtas üzrə ol rəqəm.
Yazdı əvvəl kim, kərimi-karsaz,
Ol qamulardən münəzzəh biniyaz.
Su üzündə yerləri qıldı bəsit,
Yerə, suyə gögləri qıldı mühit.
Ərşü kürsi həm yaratdı noh fələk,
Göglərin içini doldurdun mələk.
Yıldız ilə gögü bəzək eylədi,
Adəmi yer üzrə təmkin eylədi.
Hər birinə ruzi qıldı bir məqam,
Ənbiyayə ruzi qıldı bin nam.
Bu nəsibi bana dəxi eylədi,
Ol nübüvvət dəftərindən toylədi.
Babamın adı Zəbihullah olur,
Həm dədəm adı Xəlilullah olur.
Uş fəraq odinə yanar müdam,
Cigərim büryan, işim oldu xam.
Yusifi yavi qıldım, ey əziz,
Ah ilə, dərd ilə qaldım, ey təmiz.
İbn Yamin birlə könlüm əylərəm,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Anınlə dərdimə səbr eylərəm.
Olmiya oğruluq bizdə, ey əziz,
Bizdə oğruluq olmaz, bitəmiz.
Oğlumu qoğıl, yaxud ah edərəm,
Xassə ahıdır, sehrgah edərəm.
Nə səni qoyəm, nə təxtü tacini,
Nə əzizin, nə xod möhtacini.
Dərdi ol şahnaməyə dərc eylədi,
Lə'li-gövhər sözünə xərc eylədi.
Yazdı naməyi püritabi-iştiyaq,
Verdi Yusifə dərdi-fəraq.
Gəldilər qərdaşlərini buldilər,
Aldılar naməyi Yusif qatinə gəldilər.
Xoş dua qıldılar baədəb,
Sundu Ravil şahnaməyi bil'əcəb.
Aldı Yusif naməyi, oxudı rəvan,
Tökdü hər bir nərgisindən ərğəvan.
Oxur ikən naməyi yaş eylədi,
Firqət odu bəğrini baş eylədi.
Naməyi ol dəmdə Yusif oxudu,
Bildi Yusif babası kim, qaxıdı.
Aldı kağıd əlinə, tutdu qələm,
Yürüdisər kağıd üstünə rəqəm.
Yazdı naməyi kim, benami-kirdgar,
Əvvəl-axır lütf anın bişümar.
İzzəti-rəhmət gəlir bir tənridən,
Qullarını əmin edər qayğıdən.
Ey Zəbihullahın oğlu namdar,
Sən Xəlilin sirrisin, bil aşikar.
Namədə mədh eylədin, əhvalini,
Oğlunun dərdindən vəsfi-halini.
Firqət ilə həsrəti yad eylədin,
Yusifin dərdində çox zar eylədin.
Anlarə səbr ilə irdi mənzilət,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səbr ilə buldu muradı aqibət.
Sən dəxi səbr edər isən, ya əmin,
Səbr edən bulur muradı yəqin.
Həsrət ilə səbr edərsən, bil əyan,
Firqətə sərhəd bulasan bigüman.
Yazdı namə, bunlarə verdi geri,
Bunları Kən’an elinə göndəri.
Naməyi aldı, bunlər oldu rəvan,
Babalarinə gətirdilər həman.
Aldı naməyi Yə’qub, oxur geri,
Ol cəvaba qaldı heyran ol ulu.
Ayıtdı, bu diyanlər sözü degil,
Olmiyə, süryan sözü böylə üsul.
Bu gələncilər, nəbilər sözüdür,
Bunu Rəyyan kişilər kim, nə bilir.
Buncə dürlü işarətlər bana,
Gəlmişdi bu gəzin qıldım tana.
Bundə bir məclis, həm dürlü dastan,
Söyləyəlim bu yedinci dasitan.
Şahi-sultan Yusifi söyləyəlim,
Babası Yə’qub əhvalin söyləyəlim.

* * *

Yenə ağaz eylədim bir vəsfi-hal,
Söyləyəlim həm yedincidən məqal.
Qissei-Yusif hekayət qılalım,
Həm qisəs hökmün rəvayət qılalım.
İbn Abbas böylə buyurdu bəyan,
Dinlə, ey mö’min bunu baguşi-can.
Can qulağın açar isən, ey əziz,
Könlünə dür dərərsən batəmiz.
Ayıtdı, oğlum Yusifi istərəm, bulun,
Yusifi istəməgə məşğul olun.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dedilər, baba, nə yerdə bulalım,
İstəməgə necə məşğul olalım?
Namə yazdı andə key oğlanlərə,
Bundə key, andə key qalanlərə.
Ayıtdı, varın ol Əzizin qatinə,
Qul kibi durun anın həzrətinə.
Ancə yalvarın, əsirgəyə sizi,
Verə buğdayi, oğlumuz ana bizi.
Geri vardilər bunlər Misrə rəvan,
Buldilər qərdaşlərini ol zəman.
Yenə Yusifin qatinə gəldilər,
Kəndilərin həm yarağın qıldilər.
Bu gəzin yüz yerə urdilər geri,
Qıldilər zarü təzərrə’ yalvari.
Dedilər kim, ey səxavətkani-şah,
Sən kərəm qıl, biz eylədik günah.
Ol babamız bizim andə zar olur,
Eşqi, könlü daima azar olur.
Gəl əsirgə bizləri, xülq eyləgil,
Qıl şəfaət sən bizə, xoş söyləgil.
Qamu aləm qulun oldilər təmam,
Bizi dəxi qul bil, ey şahi-kərəm.
Yəvlaq acıqdı yəqin Kən’an eli,
Xəlq qırılmağə durdu, ey vəli.
Rəhmət eylə bunlarə buğday ilə,
Qıl şəfaət yoxsulə, həm bay ilə.
Vəqtdir kim, bir məhəbbət qıləsən,
Həzrətində bizləri qul biləsən.
Ol bizim qərdaşcığımızi belə,
Buyurasən verdigin buğday ilə.
Nagəhan təxtinə qıldilər nəzər,
İbn Yamin gördülər andə gəzər.
İbn Yamini bunlər andə görər,
Qızıl, altun səndəl üzrə oturər.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tac başınə və libac əgninə
Alıb oturmuşdu təxt üstünə.
Geydigi cümlə mürəssə' donləri,
Cümlə xəlq görərdi həm anləri.
Anlarə aydır Yəhuda, bən sizə
Aydır idim sizə, inanmazsız bizə.
Xırsızı böyləmi tutar, ey kişi,
Yusif imiş, bəlli bilin bu kişi.
Anlər andə acizü heyran olur,
Nə qılalım deyi, sərgərdan olur.
Qovğayə düşdü bunlər bir-biriylə,
Necə ola halımız, der kim, böylə.
İbn Yamin daim söylərdi məgər,
Kəndözün bildir, əxi, ey sərvər.
Gördü Yusif anları heyranü zar,
Dedi kim, vəqtdir oləm aşikar.
Nagah bürqə'in götürdü gördülər,
Ol şahənşah Yusif imiş, bildilər.
Baş aşağı saldılər bunlər qəmu,
Bildilər kim, Yusif imiş, ey əmu.
Yusif aydır, bilmədizmi bən kiməm,
Şimdi sizə qıldığizi bən qıləm?
Siz bənimlə yavuzluq etdiniz,
Quyuya buraxıbəni getdiniz.
Aninlə qoymadınız siz bəni,
Satdınız, aldınız axçayi-altuni.
Bana böhtan eylədiniz həm dəxi,
Oğrudur dediniz siz, ey əxi.
Nə desinlər, yəvlaq oldular xəcil,
Baş aşağə saldilər xuri-zəlil.
Başlərin qaldırdilər kim, ey əziz,
Bəlli edin bizə kim, Yusifmisiz.
Ayıtdı, bən Yusif, qərdaşdır bana,
Bəlli inanın, ey qərindaşlər bana.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusif aydır, həm kim səbr edər əyan,
Aqibət ol şah olisər bigüman.
Ne’mətə səbr eyləyənlər, bəlli bil,
Ne’mətə irişdirə rəbbi-cəlil.
Gör necə səbr etdi Yusif möhnətə,
Aqibət tənri irdirdi ne’mətə.
Dünya möhnətxanədir, ey mərdigar,
Ne’mət istəyənlər olur xuri-zar.
Dünya fani, ne’mətin sonu qəhər,
Balını yeməgə olu, qəndi zəhər.
Hər ki, tutdu bu cəhanin ne’mətin,
Şəkərini qılmadı, çəkdi möhnətin.
Bəgligi, malü mülkü bir xəbal,
Dünyanın çün sonu olisər zəval.
Qalmağıl sən bu xəyalə, ey əziz,
Bizəvali, bil kim, olasın təmiz.
Deməgil kim, dünyaligim yoxdurur,
Himmətin var isə, malın çoxdurur.
Dünya malı sənin olursa qəmu,
Himmətin yox isə yox bil, ey əmu.
Var imdi andə verə kirdgar.
Yazığın bağışliyə pərvərdigar.
İmdi gəldi Yusifin qərdaşləri,
Acizü heyran, başaşağə başləri.
Dedilər kim, biz günahkarız qəmu,
Bildik uş yazığımız, ey əmu,
Əfv olamı, ya bizə ölmək gərək?
Yusif aydır, qamuların, yazığın
Əfv edə ol qadiri-rəbbül-aləmin.
Çünki bunlər yazığını bildilər,
Kəndilərini xətadə buldilər.
Həq-təala bunların yazığını,
Əfv qıla ol kərim, ol qəni.
Sən dəxi, ey mö’min, açarsən gözün,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yazığın bilirsən, həm kəndözün.
Yazığı key bilirisən, ey kərim,
Rəhmət edə sana ol rəbbül-aləmin.
Yusif aydır kim, gəlin, qərdaşlərim,
Ey bənim gözüm nuri qoldaşlərim.
Sizə yavuz sanan iyilik görməsin,
Qayğı sanan şazlığə irməsin.
Durdu Yusif anlərinlə görüşür,
Eylə san kim, Ülkər Ayə qonuşur.
Andəkilər qamu şadan oldilər,
Şah buyurdu kim, bəşarət oldilər.
Anların üstünə qıldilər nisar,
Hər birinə verdi xəl’əti-şahvar.
Qızıl, altun yüz sinilər qodilər,
Yüz dəxi bir səf gümüşdən qodilər.
Hər birində üç çənaq var, ey əziz,
Altun-gümüşdən daşləri həm təmiz.
Təxt üzərə bir ulu xun qodilər,
Yusif qərdaşləri oturdilər.
Yusif oturdu bunlarinlə təam,
Qamu biryerdə yedilər vəssəlam.

* * *

Eylə san kim, Ay ilə Gün ol zəman
Oldu Ülkərlə müqarin, bil əyan.

Müştəri oldu bunlarə müştəri,
Kətxudalıqdə olubdur mehriban.

Gəldi Mərrix, aydər sahibqıran,
Uş həsəd gününü kəsdim bən həman.

Zöhrə aydər, uş tərəb, saz eylərəm,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şadlığə urdum uş dəsti nihan.

Çün bulərə yer-yerə gəldilər belə,
Misir şəhrilə, san, oldu cəhan.

Hər birindən nuş edib vüslət suyun,
Firqət odu sönübən oldu nihan.

Şad olubən biryerə oturdilər,
Qayğı getdi, şadi gəldi bigüman.

* * *

Yedilər, ne'mətləri gətirdilər,
On ikisi bir qatar oturdilər.
Anların əhvalini Rəyyan şah
Bildi, şükr eylədi zərrin külah.
Dedi ol dəm Yusifə kim, ya əmir,
Nəndir ol yigitlər, ey bədri-münir?
Padişahə Yusif çün verdi xəbər
Kim, bana qərdaş olur qamu bulər.
Padişah çün bu xəbərdən şad olur,
Könlü külli-qayğıdən azad olur.
Yusif aydır kim, bizə netmək gərək,
Babamızə neçə getmək gərək?
Dedilər, sən bil, aya şahi-cəhan,
Hər nə kim, sən deyəsən, olur həman.
Babasının sordu əhvalin təmam,
Ayıtdı bunlər, çünki bildi ol giram.
Gözsüz olduğu nədən, ayıdın, səbəb,
Dedilər kim, kömləgindən, ey nəsəb.
Kömləgini görər, urur üzünə,
Ağləri zari qılır kəndözünə.
Dünü gün işi növhə birlə zar idi,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Həsrətinlə dünyadən bizar idi.
Çünki kömləkdən gözü giryan olur,
Gözlərinin üzünə bürhan olur.
Dedilər kim, bir kişi qandə olə
Kim, bu yolu bir gün içində alə.
Durdu yenidən dedi kim, bən gedəm,
Bir nişan verin kim, andə bən verəm.
Yusifin qolində var idi məgər
Danə, inci xoş şəhanə mö'təbər.
Babası anı qolinə bağlamış,
Buncə ildən Yusif anı saxlamış.
Çözdü qolindən, ayıtdı, ey çəvan,
Al bunu, babamə vergil həm nişan.
Ol rəvan oldu, aydər, bu kömləgi
Kim ilətər babamə bu kömləgi?
Bir bədəvi at Yəhudayə verir,
Kömləgi Yəhuda Yusifdən alır.
Yusif aydır, rəvadır sən varəsən,
Kömləgi babamə həm verəsən.
Durdu yerindən Yəhuda, dedi, bən
Kömləgi babanə ilətəm, cani-mən.
Bir cəmail dəvəsini verdilər,
Dürlü ne'mət yüklədibən düzdülər.
Yusif aydır, çünki yolə çıxəsin,
Dönəsin Kən'an yolinə baxəsin.
Kömləgimi açəsən bir gəz rəvan,
Silkəsən Kən'an yolinə mehriban.
Ta ki anun qoxusun badi-səba
İrgirə babamə kim, bulə səfa.
Dedi, canim ilə qılam ögüdün,
Canim üstünə tutam bən ögüdün.
Eşit imdi rəvayət dəxi,
Bir yol da dəxi dinlə, ey səxi.
Qissənin ilkində söylədik rəvan,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ol qulu kim, satdı Yə'qub ol zəman
Kim, anası Yusifin dayəsidir,
Yusif üçün oğlunun sayəsidir.
Oğlunu ol dəmdə satdilər məgər,
Misrə düşmüşdi, eşitgil xəbər.
Ana təqdirü əzəl olmuş idi,
Gerü Yusif qatinə gəlmiş idi.
Netə kim, Yə'qub anasından ani
Ayırıb məhrum qılmışdı cani.
Eylə qıldı əmr rəbbani-məcal,
Əvvəl anasınə irişdi əyal.
Sonra Yusif yenə Yə'qubə irə,
Ta ki bunlər bir-birisini görə.
Oğlanə Yusif Bəşir urmuşdu ad,
Yolə girir ol Yəhuda xoşnihad.
Çünki bir mənzil yolə göndərdilər,
Eşit imdi kömləgə nə qıldilər.
Kömləgi açdı Yəhuda bixəbər,
Saldı Kən'an yolinə, ey bəxtəvər.
Əmr qıldı həq çələb badi-səba,
Qoxusun ol dəm irirdi Yə'quba.
Qızlərinə Yə'qub aydır, ya nigar,
Yusif qoxusu gəldi aşikar.
Hələ bən kömlək qoxusun bilirəm,
Sizə uş şərhi-bəyanin qılirəm.
Keçdi ol dəm, həm irişdi, bil, xas,
Qayğıdən kim, bulalər bunlər xilas.
Qızlariylə Yə'qub oturmuş idi,
Qasid ol dəm şəhrə irişmiş idi.
Ol ünü Yə'qub eşitdi, qıldı ah,
Bu nə qovğa qopdu, der, ey padişah.
Dedilər, baba, bəşarətdir məgər,
Yusifi bulduq deyi, gəldi xəbər,
Hali ki, Yə'qubə irişdi bu nişan,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ah edibən əqli getdi ol zəman.
Əqli gəldi, söylədi qızlarinə,
Şərhi-təqrir eylədi özlərinə.
Dedi, ol dəm bən sizə qıldım xəbər,
Sözümə inanmadınız siz məgər.
Gəldi qasid Yə'qubun öpdü əlin,
Sundı inci, söylədi Yə'qub halin.
Yə'qub inciyi görübən tanlədi,
Yusifin təhqiqini andən anlədi.
Dedilər kim, uşdə Yəhudə gəlir,
Yusifin kömləgini alıb gəlir.
Çünki gəldi Yəhuda, ani gördülər,
Yusifin kömləginə üz sürdülər.
Dedi, baba, Yusif imiş ol əziz,
Bizim ilə bu işi qılan təmiz.
Döndü Yə'qub aydır, ey sahibbəyan,
Qılmadın sən bən dedigimi əyan.
Bəşir əlindən kömləgi Yə'qub alır,
Gözlərinə sürür, ol dəmdə görür.
Yə'qub ol dəm Bəşirə aydır, ey qulam,
Tənri xoş tutsun səni, olğıl səlam.
Sənin ucundən biz olduq fəraq,
Ta ki səni andan etdik iraq.
Görməyincə səni ananı, bil yəqin
Kim, bizə göstərmədi Yusif üzün.
Səni, ananı gördük, ey Bəşir, əyan,
Söyləgil Yusifi şərhi-bəyan.
Dedi anı qul olub satıldığın,
Həm Əziz ana zindan buyurduğun.
Dedi kim, hər nə vaqiə gəldi ana,
Eşit imdi sultan oldur bana.
Firqət etdi Yə'qubu ol dəmdə həmin,
Eşidib ussu gedər, düşər yəqin.
Durdu Yə'qub aydır, ey sultan ilah,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusifin hüznü bəni qıldı təbah.
Uşbu bir qaç beyti-xəzənində təmam,
Şe’r ayıdisər Yusifə Yə’qubi-imam.

* * *

Dedi, qanı, ey bənim canim, bənim,
Könlümü şad eyləyən xanim?

Çanimi həsrət odinə yaxmışəm,
Verə anı bana sübhanim bənim.

Aşiqəm, yanərəm pərvanəvar,
Gələ Zöhrə bürcünə mahim bənim.

Nedəyim səbrə qərarim qalmadı,
Dedi, ah kim, doğsun şahim bənim.

Netə kim, verdin bizə cənnətdə hur,
Veribdi həq bana rizvanim bənim.

Gözümə göstərdin uşdə kömləgi,
Göstərdi ver Yusifi canim bənim.

Bəndən ayırdı sultan anı,
Misr içində xub Kən’anim bənim.

Necə ola görəm anın üzünü,
Gələmi qarşımə sultanim bənim.

Dedi Yə’qub, diləgimi qıl qəbul,
Bəşrə vergil at, dəvə, malim bənim.

* * *

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Aydır, oğlum, Yusifim nə dindədir,
Necə məzhəb, ya neçə ayindədir?

Babamiz, həm dədəmiz dinindəmi,
Yaxud rəyyanilər ayətdəmi?

Ayıtdı, baba, ol dədəmiz dinini
Qoməmişdir anlərin ayinini.

Ol xəbər Yə’qubi şadan eylədi,
Səcdə qıldı, şükri-yəzdan eylədi.
Ayıtdı, qorxum andən bən, zəif
Oğlan idi Yusifim əql nəhif.
Aldiyələr, yoldən azduralər ani,
Axirətdə tamuyə girə cani.
Buncə ildən qıldığım zari-fəğan,
Bəğrimdə daş basdığım, ey mehriban.
Diləgim ol kim, dinindən çıxmiyə,
Atəsi-dədəsi dinini yıxmiyə.
Uşdə şad oldum, bildim bən ani,
İmdi dinin saxlayam, şimdi qani.
Dünya malı sənin olursə qəmu,
Aradə din olmıya, yox bil, əmu.
Bir pulun yox isə çün kim, din ola,
İki aləm, bil, sana təmkin ola.
Yalınız dildə degildir dini-ulu,
Cümlə xəlqin dini gərək bəxtlü.
Əhli-Kən’an ol dəm anı gördülər,
Üzlərini qamu yerə sürdülər.
Aclıq ilə xəlq bükülmüş idi,
Qamu qırılməğə az qalmış idi.
Bu xəbəri kim, eşitdilər qəmu,
Yemək-içməgi unutdilər, əmu.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Budi-zurnavü nəqarə urdular,
Qamu bir gəzdən bəşarət qıldılar.
Qaldı bunlər aradə şadman,
Girdi yolə pəs Yəhuda ol zəman.
Qalməmişdi xəlqə yemək qayəsi,
Gülmək-oynaməğə başlər qamusi.
Həm Yəhuda dəxi gəldi iləri,
Babasınə muştuluq qıldı geri.
Bu gəz eşitdi kim, Yəhuda nə qılır,
Çün Yəhuda ol aradə görünür.
Gəldi Misri-Yusifə, qıldı xəbər,
Gör ki, netdi geri Yusifi-mö'təbər.
Ol dəm anlarə buyurdu xəl'əti,
Padşahanə buyurdu xəl'əti.
Bin dəvə yüklədilər buğday ilə,
Bin dəvə dəxi ana verdi belə.
Yükləri balü yağ, undur qəmu,
Dürlü xəl'ət verdi, bil, ey əmu.
Bin bədəvi at buyurdu, verdilər,
Ev-obanı mürəssə' qıldilər.
Dəgmə bir qərdaşinə on dəvə,
On dəxi at qoşdu kim, ilətə evə.
Hər birinə bir imari, ortası,
Örtüləri qızıl altun qamusı.
Babasınə bir imari düzədir,
Ortəsinə lə'lü inci qondurur.
Qırx dəvə yükü cəvahir yüklədir,
Kimi lə'lü kimi yaqut, kimi dürr.
Dedi, Kən'an elinə bəxş edəsiz,
Bu sizə şükranə olsun, deyəsiz.
Bin qaravaş, at, qatır, xeyli-həşəm,
Hər birinə iyi verdi möhtəşəm.
Bəglərindən kəndinin xasi iki bin,
On bin ər qomuşdu belə kim, ilətin.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dedi, Kən'an əhli cümlə belə,
Tez alın, bundə gəlin babam ilə.
Dedilər, oğlanların, xoş gəldilər,
Baələm, batəbl uş gəldilər.
Ne'məti-aləm gətirdilər belə,
Qul-qaravaş, at, qatır, gənc ilə.
Çünki Kən'anə irişdilər bulər,
Əhli-Kən'an gənci-aləm buldilər.
Ne'mətiylə cümlə doydu xasü am,
Sən eşit kim, neylədi Yusif imam.
Anləri göndərdi, durdı uru,
Şahi-Rəyyan qatinə gəldi geri.
Sərgüzəşti şahə təqrir eylədi,
Qamu bir-bir padişahə söylədi.
Babası qövmünü qıldı bəyan,
Bundə gəldikləri qıldı əyan.
Padişah ol dəmdə pir olmuş idi,
Ömrü anın axırı gəlmiş idi.
Yusifə ismərləmişdi səltənət,
Ədlü arü malü mülkü məmləkət.
Bu xəbərdən oldu canı şadman,
Yusifə qıldı dua əz əqlü can.
Ayıtdı kim, canim fəda olsun sana,
Bu xəbərdən can bağışladı bana.
Gəl aç xəzinə, nə kim, dilərsən, al
Kim, sana olsun fəda gənc ilə mal.
Yusif aydır, şəhriyarisən bənim,
Gəncü malım, hər xəzinəmsən bənim.
Dedi, şaha, dəsturunlə sənin
Bən yərağını qılayın anlərin.
Babamə həm qarşı çıxmaq yatini,
Düzəlim yarağini, atini.
Şah ayıtdı, bir ögüt şahim sana,
Eyidi-verəm, gər qulaq ursən bana.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Babanə qarşı varıcəq, ya əmir,
Enmə atindən, əya bədri-münir.
Ata könlü qalmiyə sana yəqin,
Kəndini padişahlıqdən saqın.
Eylə olsun, dedi Yusifi-zəman,
Tışrə gəldi, yarağın qıldı əyan.
Əmr qıldı, şəhərləri bəzədi,
Yusifin könlü, cəmali tazələndi.
Ne’mət ilə qəmu xəlqi doylədi,
Altı gün Misri təmam şad eylədi.
Hər yənadən düzdülər köşk, səray,
Xəlqi-aləm doyladı yoxsulü bay.
Hər bir qərdaşinə bir köşki-xas
Eylə tərtib eylədilər baxəvas.
Köşkün içinə döşədilər hərir,
Hər birini düzdi ziba ol əmir.
Sözə gəldilər məani, saz ilə,
Mahrulər rəqsə gəldi naz ilə.
Yusifin ol dəmdə qırx bin qulu var,
Qamusı zərrin kəmər, o şahvar.
Önüncə yürüdü yüz bin at,
Anlərə binən kişi bulur həyat.
Əyər üzrə qamusu lə’lü gövhər,
Hər birisi bir mürəssə’ dürr bunlər.
Təxt üzrə qübbei-çətr həman,
Çövrəsində durdi qullər həmcəvan.
Hökm qıldı, bindi yüz bin ər çəri,
Anlarınlə belə bindi bəgləri.
Urdilər təbl, aləm götürdülər,
Padişah bindi, nəqarə urdilər.
Eşit imdi bir yənadən dasitan,
Yə’qubə ol qövm ilə oldilər rəvan.
Bir neçə gün durdilər dinləndilər,
Yarınc edib Misr çün gönlədilər.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ol yənadən gəlir anlər başitab,
Bu yənadən həm gönəldi afitab.
İki həsrət bir-birinə irməgə,
Bir-birinə könlü can verməgə.
Yusif ol ortadə sərgərdan idi,
Padişahın sözünə heyran idi.
Şah ayıtdı, enmə atindən yerə,
Olmasın kim, sana bir qayğı irə.
İmdi ata izzətini nedəyim,
Bu ikisindən qənqisini edəyim?
İkisin dəxi bana tutmaq gərək,
Nə qılayım, bilməzəm, netmək gərək.
Endi təxtindən yerə, qıldı nəmaz,
Dedi bir gəz, ey kərimi-karsaz.
Bilməzəm bən, qalmışəm heyranü zar,
Müşkülüm həll qıl bənim, ey kirdgar,
Üz yerə urdu, zar eylədi,
Göz yaşin dərdinə yar eylədi.
Qüdrət ilə uyqu gəldi gözünə,
Qarşıdən bir ər göründü gözünə.
Yusifə aydır, əya bədri-münir,
Bir kişi kim, əmr içindədir mir.
Kəndidən ulu sözün tutmağ gərək,
Pəndini anın qəbul etmək gərək.
Ta kim, andən xəlqə qayğı gəlmiyə,
Tənri qulları pərişan olmiyə.
Yusif uyxudən oyandı dər zəman,
Dedi, bu ilham olə bir tənridən.
Şahi-Rəyyanın müsəlman olduği,
Bu səbəbdən oldu ol ziba bigi.
Gördü Yə’qub, ana aydır bir qulam
Dedi kim, budur, gəlir Yusif imam.
Dedilər kim, oldürür kim, ol ulu,
Qulləridir Yusifin, ey bəxtlü.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər birinin geydigi diba, hərir,
Üzlərini Ay görər isə ərir.
Donləri qamu mürəssə’dir təmam,
Qırx bin idi Yusifin cümlə qulam.
Nagəhan çıxdı, gəlirlər baələm,
Urdilər kursü nəqarə, zirü bəm.
Görübən Yə’qub anı, qıldı əcəb,
Şükri səna, dedi, ey fərdi-rəb.
İrdi batə’zimü təmkini-mah,
Girdi təxt üstünə oturdu şah.
Tac urdu başinə, libac əgninə
Alıb oturmuşdu təxt üstunə.
Çün yaxın gəldi iləri, gördü,
Ol zəman Yə’qubə xəbər verildi.
Dəvə üstündə imari börklü,
Oturub Yə’qub içində bəxtlü.
Hala kim, Yusif cəmalin gördü pir,
Dedi, budur ol bənim bədri-münir.
Sıçrədi bivasitə, endi yerə,
Kəndi məhbubin kişi qaçan görə.
Yusifin qərindaşləri endi belə,
Ol xəlayiq gəldi andə cəm’ ilə.
Gəldi Yə’qub, oğlunu qucdu rəvan,
Yusifi bağrinə basdı ol zəman.
Ol ikisi bir zəman ağlaşdilər,
Bir zəman firqət şərabin içdilər.
Ağladilər qəmu ləşkər, xasü am,
Ol xəlayiq zari qıldilər təmam.
Ağləməqdən şöylə zari qıldilər,
Vəsli-eydində sevinib güldülər.

* * *

Xoş ola ol dəm muradə irəsin,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sevdigin yarı yanində görəsin.

Olmıya əğyar aradə yar ilə,
Lə'li ləbindən müdami sorə.

Gəh gülüstandə təfərrüc edəsin,
Gəh üzünü gül üzünə sürəsin.

Gəh əyağin sürəsən sən üzünə,
Gəh əyağin yarə qarşı durəsin.

Gəh saçını dolayasın boyninə,
Gah zülfünü canə zəncir edəsin.

Bir saət eyş eyləmək dildar ilə
Ömri-baqi oldur, əgər irəsin.

* * *

Yusifü Yə'qub irişdilər belə,
Həq irdirsin qamuləri cəm' ilə.
Qəmu həsrətliləri, ey pirü bar,
Həsrətinə irir, ey pərvərdigar.
Səkizinci məclisə qıldıq nəzər,
Xətm ola yarın bu söz, ey bəxtəvər.
Söyləyəviz sizə xətmi-dasitan,
Həm Züleyxa sözünü, ey dusitan.

## SƏKİZİNCİ MƏCLİS

Səkizinci məclisə sürüm qələm,
Yusif önüncə götürüm həm ələm.
Sözə ağaz edəlim biz başitab,
Sözdən oldu qamulərə fəthi-bab.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Söz ilə irdi ərənlər tənriyə,
Tənri sözün eşidəsin biriya.
Sözdür axır ol cəvahir kim, kəlam:
Hər ki, tutdu əmrini, oldu təmam.
Nə ki, peyğəmbərlərə verdi cəvab,
Şöylə verdi bunlərə fərdi-rəbb.
Söz əgər dəxi yegrək oleydi,
Ol Məhəmməd Mustafayə gəleydi.
Hər ki, söz eşitdi, oldu şadman,
Axirətdədir, yeri – darüssəlam.
Yusifü Yə'qub xoş qovuşdilər,
Vəsl suyun bir-birindən içdilər.
Ol aradə şəhrə gönəldi bunlər,
Çevrə Yə'qubi arayə aldilər.
Ol xəlayiq dilədilər irməgə,
Yə'qubun görklü cəmalin görməgə.
Görməzlər ləşkər ikən çox idi,
Adəmin ol gün hesabi yox idi.
Qüdrətiylə tənri qıldı aşikər,
Ol xəlayiq cümlə anı gördülər.
Girdilər şəhrə tə'zimi-təmam,
Gördülər şəhri bəzəmiş xasü am.
Hər birini bir sərayə qondurir,
Kəndi köşkündən babasın endirir.
Kəndinin qərdaşlərini, qövmünü,
Babasını, cümlə qövmünü, xəsmini.
Kəndi təxtinə keçirdi anləri,
Qəmu oturdu, sevindi canləri.
Yusifin anasının qərdaşləri,
Qəmu oturdu, sevindi canləri.
Babasının xatirin aldı ələ,
Qamusunun könlünü sordu belə.
Dərdi qərdaşlərinin könlünü,
Qəmusun qoldaşlərinin könlünü.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusifə dəxi təhiyyat etdilər,
Üz yerə qoyub, əlini öpdülər.
Yusif ol qərdaşlərinə söylədi,
Gördügü duşi hekayət eylədi.
Aydır, ol duş budur, ey qərdaşlərim,
Kim, yalansin dediniz yoldaşlərim.
Ayü Gün, on bir dəxi yıldızləri
Səcdə qıldı bana bunlər cümlə, ey əxi.
Andəkilər qəmu şad oldilər,
Gəldi xon arayə gətirdilər.
Sağə-solə xon buraxdilər bunlər,
Yusif ilə Yə᾽qub oturmuş gülər.
Yüz qodilər qızıl altun səndəli,
Yüz dəxi bir yəna gümiş, ey vəli.
Dürlü-dürlü gətirdilər təam,
Yeyələr xonləri ol sahibgiram.
Dürlü həlvalər dəxi gəldi iləri,
Düzdülər xonlər, yedilər, ey ulu.
Yedilər ne'mətləri, götürdülər,
Şükri-yəzdan qıldilər, oturdilər.
Keçdi ol gün, ertə cümlə xasü am
Yə'qubu görməgə gəldilər təmam.
Ol qədər dürrü cəvahir tökdülər,
Qıldilər bəxşiş bulərə, getdilər.
Şahi-Rəyyan gəldi, Yə'qubu görə,
Necə kişidir, halini sorə.
Qıldı ikram, girdi ol dəm içəri,
Gördü Yə'qub anı, durdu geri.
Təxtə ikram eylədilər, keçmədi,
Səltənətdən bir içim su içmədi.
Ayıtdı, ey piri-əzizi-mahru,
Uşbu oğlanlər sənindir qəmu.
Dedi, bənimdürür, ey şahi-cəhan,
Həp sana dua qılır pirü cəvan.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şah ayıtdı, şükr qıldım bən bu dəm,
Sizinlə Yusifi gördüm bən həm.
Razıyam, der, bən bu Yusifdən müdam,
Bəni xoş tutdu Yusifi-imam.
Tənridən bil, dedi Yə’qub, sən ani,
Şah ayıtdı, tənri qəndədir qəni.
Yeri-gögü yaradən oldur qədim,
Ayı-Günü yürüdən oldur müqim.
Qüdrətindən verdi ağacdə yemiş,
Yer üzün xoş çiçəklər ilə bəzəmiş.
Xaliqül-xəllaq oldur, ol padişah, yəqin
Bana peyğəmbərlik ol verdi həmin.
Şah kəndi birlə bir sağınc qılir,
Dedi kim, gerçək bu peyğəmbərdürür.
Oğlunun buncə kəraməti bana,
Zahir oldu, nə güman andən yəna.
Padişah ol dəm iləri oturur,
Yə’qubun önündə iman gətirir.
Ancə bəxşiş qıldı ol gün anlarə,
Kimsə bilmədi hesabin, ey yəra.
Dəmbədəm şah anlərə heyran olur,
Küfrü verir, sidq ilə imanə gəlir.
Qaldı anlər daim andə şadman,
Yemək-içmək, eyşü işrətdir həman.
Xoş muradinə qovuşdilər bunlər,
Yusif, Yə’qub sevişdilər.
Çün irişdilər muradə, nə kəlam,
Bu hekayət bundə uş oldu təmam.

* * *

Qanı imdi ol Züleyxa, neylədik?
Bundə əvvəldən kim, hekayət eylədik.
Necə bəglər ki, dilərlərdi ani,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Varməz idi, derdi ki, Yusif qani?
Çün Əzizi-Misr anın tərkin urər,
Yusifin eşqində varər, oturər,
Hər kim ana versə Yusifdən xəbər,
Ana bağışlərdi çox simü zər.
Yusifin eşqindən mali qalmadı,
Həm fəraqində cəmali qalmadı.
Ağləməqdən gözsüz oldu natəvan,
Sərvi qəddi qayğıdən oldu kan.
Getdi əmri, getdi hüsnü, getdi mal,
Xəlq içində eşqi qıldı payimal.
Gözləri giryan, cigəri büryan idi,
Kəndisi həm bisərü saman idi.
Daima aydır, ey Yusif, bana
Bir nəzər qılsan nola bəndən yəna.
Var ikən görüm, cəmalim baxmadın,
Bir zəman bəndən yəna heç axmadın.
Şimdi bana ol məhali-əql ola,
Yusifin bəndən yəna meyli ola.
Keçdi ömrüm ahü dərdü zar ilə,
Eşqi gəldi, könlüm aldı zor ilə.
Dərdimi bən kimə aydım, ey əcəb,
Kim qıla ol dərdə dərman tələb?
Eşq əlindən oldum uş hurü həqir,
Ey əcəb, dərman olamı, ya əmir?
Tacü təxtü səltənət tərk eylədim,
Eşqi-Yusif canimə tərk eylədim.
Ata, ana tərk qıldım, mülkü mal,
Uş həqir oləm, əzizi-payimal.
Bən qəribə bir vüsal olamı ki,
Ya fəraqü dərd ilə bən qalamı ki?
Şərh içində uş məlamət olmişəm,
Nedəyim kim, xəlqə rüsvay olmişəm.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Aşiq olan kişidə ar olmiyə,
Necə aşiqdir ki, ol zar olmiyə?

Vay ana kim, mə’şuqi daim ana,
Olə əğyar ana, heç yar olmiyə.

Dərd ilə ölmək gərək aşiq yəqin,
Çünki mə’şuqi-vəfadar olmiyə.

Aşiqə ol ömri-baqi olmasın,
Çünki yari ana dildar olmiyə.

Gözlərim ayrıq cəhandə baxmasın,
Çünki Yusif ana ənvar olmiyə.

* * *

Bəncilayın kimsə zar olmasın,
Ancılayın kimsə məkkar olmasın.
Daim ağlar kəndi vəsfi-halini,
Aydər idi kəndinin əhvalini.
Bir bucaqdə daim ol zari qılır,
Kəndinin dərdinə həm yari qılır.
Malü mülkü qul-qəravəşü həşəm,
Tərki qıldı Yusif eşqinə həm.
Eşq ilə dərdin ağlar zar-zar,
Bir bucəqdə on səkiz il biqərar.
Oncə qıldı ah ilə zarü fəğan
Kim, məgər əxtərgüzar olə cəhan.
Ey əziz, gəl aşiqin sən dəxi,
Zari qılğıl, sadiq isən sən dəxi.
Olə kim, əxtər güzərdə bulasın,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tənri dərgahində məqbul olasın.
Eşit imdi, aydı verim bən sizə
Vəsfi-halın, gər qulaq ursən bizə.
Yusif andə iki gün seyran edər,
Xəlqi qəmu kəndinə fərman edər.
Yenə bir gün baxəvasü izzü cah,
Səltənət sərayinə bindi padşah.
Nagəhan uğradı yoli həm məgər,
Ol aradə kim, Züleyxa der məgər.
Ol aradə bir qəricuq var idi,
İləridən anunlə yar idi.
Aydır ana, ey Züleyxai-nigar,
Uşdə Yusif gəldi keçər şəhvar.
Ol Züleyxa aydır, dayə, sən
Bəni ol yol üzərinə ilətəsən.
Bir gəzin Yusifə bən ah edəyim,
Ahimi anınlə həmrah edəyim.
Gözü görməz olmuşdı kəndi pir,
Aldı anı, tutdu əlin kəndi pir.
Çıxdı bir yüksək yerə, qıldı nəzər,
Ol aradə gəldi Yusif həm gəzər.
Dayə aydır, ey Züleyxa, gəldi uş,
Ol Yusifi-namdarın vəqti xoş.
Ol Züleyxa bir gəzin ah eylədi,
Dərd ilə Yusifə söylədi.
Dedi, bax bəndən yəna, ey namdar,
Eşqinlə şöylə oldum biqərar.
Bən qəribə bir nəzər qıl, ya əmir,
Gör necə eşqinlə oldum əsir.
Eşqinlə şöylə oldum xuri-zar,
Aşiqinə bir nəzər qıl, ya nigar.
Bir nəzər qılsən bana sən, nə olə,
Can fəda qılsəm sana bən, nə olə.
Yel Züleyxa zarlığın götürür,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əmrlə Yusif qatinə yetirir.
Yusif aydır, ağliyən kimdir, görün,
Neçün ağlər, halini ana sorun.
Dedilər kim, ey şahənşahi-cəhan,
Ağliyən oldur, Züleyxa natəvan.
Yusif eşitdi Züleyxa var idi,
Təpdi atın, irəliyə yürüdü.
Gördü Yusif anı kim, olmuşdı pir,
Gözü görməz, kəndisi huri-həqir.
Yusif aydır, ey Züleyxa qandəsin,
Eşq əlində nə qatı əfqandəsin?
Eşitdi Yusif avazin, dinlədi,
Ah qıldı dərd ilə bir inlədi.
Düşdü yerə, getdi əqli nagəhan,
Üstünə düşdü qəmu, pirü cəvan.
Gül suyu saçdilər, əqli gəldi başinə,
Tökdü göz yaşini bəğri başinə.
Dedi kim, canim, necə oldu əcəb,
Aşiqini bir gəzin qıldın tələb?
Yusif aydır, nə dilərsən, ayit,
Ani sana verəyim, bəndən eşit.
Ayıtdı, canim, sən gərəksən bana,
Diləgim budur, uş dedim sana.
Yusif aydır, ey əcəb, bu hal nə,
Saxladın eşqi könüldə belə nə?
Züleyxa aydır, ey Yusif, ya əmir,
Qamçın ucun ver bəna, ey binəzir.
Bana suyu versən, ey şahi-kərim,
Kim, sənin eşqinlə necə göyərim.
Sundu qamçı ucunu Yusif rəvan,
Ol Züleyxa ah edər həm ol zəman.
Çün Züleyxa ah qıldı bir gəzin,
Qamçı odə yandı, bil, ey bir gəzin.
Yusif aydır, görübən anı ana

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yerə saldı qamçısın, qaldı tana.
Ya Züleyxa, eşqin odu güclüdür,
İlla yolində Züleyxa suçludur.
Dedi kim, suçumı eşqinə bən saxladım,
Eşqin ilə dünü gün qan ağladım.
Könlü oldu Yusifin andən yəna,
Aldı ilətdi sərayindən yəna.
Yusif isməriədi, anı xoş tutun,
Hər nə kim, dilər, verin, könlün alın.
Dürlü ziba donləri geydirdilər.
İlətibən həmmamə xoş yudilər.
Dünya malı gözünə girməz idi,
Ağləməqdən ol səbr qılməz idi.
Xəlvətində bir gün ol Yusif əmir,
Oturudu yalınız bədri-münir.
Durdu Yusif sərayində qıldı nəmaz,
Tənri dərgahinə gətirdi niyaz.
Həzrətində gəldi ol dəm Cəbrail,
Der, səlam qıldı sana rəbbi-cəlil.
Eylə buyurdu, Züleyxayə dua
Qıləsən kim, hacətin ola dəva.
Yusif aydır, ey Züleyxa, sən dilə,
Hacətin nə var isə, gəlsin dilə.
Gəldi Yusif ol Züleyxa qatinə
Kim, dua qılısar anın yatinə.
Tənri sənin hacətin qılə rəva,
Sən dilə kim, bən sana qılam dua.
Dedi kim, budurur diləgim, ya əmir,
Oləm əvvəl kibi bədri-münir.
Novcəvan oləm yenə xubi-zəman,
Səninlə cift olə, ey mehriban.
Əl götürdü, dua qıldı əmin,
Hacəti qıldı rəva, rəbbül-məin.
Tənri anın hacətin qıldı rəva,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Həm Züleyxa buldu hüsni-basəfa.
İlərikidən yeg oldu hüsni-nigar,
Zülfü çənbər, nərgisi oldu xumar.
Qəddi sərvi, həm sənubər qaməti,
Ol Züleyxa buldu həqdən rəhməti.
Ağzı bəstə, sözü şəkkər, üzü gül,
Lə'l sünbül, bənövşə olə ana qul.
Haliya Yusif nəzər qıldı ana,
Aşiq oldu can ilə, neydim sana.
Aydır, xubi-zəman, mehri-Çin,
Ey gülərüzlü nigari-nazənin.
Həmdüllah lütf qıldı fərdi-rəbb,
Hüsnünü bağışlədi sənin çələb.
Dayə gəldi, çün Züleyxayi görər,
Şükri-yəzdan qıldı, üz yerə urər.
Çünki Yə'qubə dəxi oldu xəbər,
Şükr qıldı tənriyə ol namvər.
Çün eşitdi bu sözü Rəyyan şah,
Dedi amənna və səddəqna, ya ilah.
Qəmu aləm çün eşitdi bu xəbər,
Tanladilər sün'i-şahi-mö'təbər.
Gəldi Yə'qubə dedi Rəyyani-şah,
Sən bizə rəhmətsən, ey nuri-ilah.
Yusif ilə həm Züleyxa halini,
Sərgüzəştin söylədi əhvalini.
Bir-biriylə bunlər nə qıldığın,
Söylədi həm Yusif doğruluğun.
Həq-təala həm inayət eylədi,
Hüsnü birlə yenə anı doylədi.
Çün Züleyxa buldu hüsni-bakəmal,
Yusifə olmaq dilər cüftü həlal.
Çünki Yusif eşidər şərhi-bəyan,
Eylə olsun, dedi ol şahi-cəhan.
Misr şəhri xəlqi eşitdi xəbər,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Novcəvan olmuş Züleyxa mö’təbər.
Yusif oxumuş Züleyxayə dua,
Geri gəlmiş hüsni-ruyi xubliqa.
Çün bu sözü xəlqə izhar eylədi,
Birliginə qəmu iqrar eylədi.
Cümlə xasü am iləri gəldilər,
Yə’qub önündə müsəlman oldilər.
Qıldı dün gün yarağini, yatini,
Alisərdir Yusif Züleyxa xatuni.
Düzdilər gərdək üçün köşkü səray,
Rəqsə gəldilər qəmu yoxsulü bay.
Misr xəlqi Yusifin azadidir,
Şad olanlər leyk bu gün şad olur.
Hər yənadən düzdülər rəqsi-səma’,
Həm Züleyxa ilə Yusif edə ictima’.
Yemək-içmək şadliği, toy-dügün,
Gecə-gündüz şad oldilər dünü gün.
Şəhr xəlqi, el, vilayət gəldilər,
Ol dügün içində belə oldilər.
Padşahın qızləri, xatunləri,
Geyinıb qamu bəzənib altunləri.
Qəmu gəldilər Züleyxa qatinə,
Cümlə heyran oldilər söhbətinə.
Hər kim anın üzünə qılsa nəzər,
Aşiq olur, qalır heyran, bixəbər,
Qıldılar ana üzük, lə’lü gövhər,
Qınavü yaqut, ərus eylədilər.
Dürlü xəl’ətlər geydirdilər ana,
Kim ki, gördü üzünü, qıldı tana.
Düzdülər gərdəklər, köşkü səray,
Doydu ol dügündən qəmu yoxsulü bay.
Urdılər təbl, ələm götürdülər,
Gərdəginə Yusifi gətirdilər.
Padişah bindi, bəglər cəm’ ilə,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusifin qərdaşləri, qəmu belə.
Xəlqi-aləm cümlə hazır gəldilər,
Yusifi cümlə arayə aldilər.
Yandı mumlar, yer üzü yıldız kibi,
Ol dügün, üçün qıldilər gündüz kibi.
Şəhr içində Yusifi gəzdirdilər,
Aldilər həm gərdəginə gəldilər.
Qıldilər kəbin baəmri-cəlil,
Həm bər-ismi-şər'i-İbrahimxəlil.
Anləri bir-birinə həm verdilər,
Ol ikisi xoş muradə irdilər.
Gərdəgi xəlvət buyurdilər qəmu,
Qaldı gərdəkdə ol ikisi, ey əmu.
Sundu iki acilə, aldı niqab,
Nagəhan çıxdı bulutdən afitab.
Gördi Yusif ol Züleyxa üzünü,
Ərsə qıldı ol zəman kəndözünü.
Həm Züleyxa baxdı Yusifi görür,
Şükr qılıb üzünü yerə urur.
Der, ilahi, şükrü minnət, ey lətif,
Yusifi yanimdə gördüm bişərif.
Yusif aydır, ey Züleyxa, şimdi sən
Tənri birliginə iqrar eylə sən.
Yusif aydır, Züleyxayi-nigar,
Çox zəmandır qılmışəm dində qərar.
Züleyxa aydır, necə aşiqdir mə'şuqinin,
Dininə girməyə ol məhbubinin?
Uş sənin önündə iqrar eylərəm,
...............................................
Yusif eşitdi, sevindi xatiri,
Həm Züleyxayə güvəndi xatiri.
Ay ilə Gün çün tutdilər niqab,
Biryerə irişdi mahü afitab.
Gönlünü səbr eylədi ol pakbaz,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qanədi altinə aldı anı baz.
Çün gögərçin gəldi kəndi bürcünə,
Şahbaz irişdi anın ucinə.
Dürrü mərçan qıldilər qərin,
Həm sədəfdən düzdilər şəmin.
Ol ikisi bir-birindən buldu dad,
Ruy qılsın qamuyə tənri murad.
Durdular ol ikisi qüsl etdilər.
Eylə san kim, hurü qılman oldilər.
Geri yatdı iki huri-behişt,
Eylə san kim, ol iki buldu behişt.
Danlə olicəq durub abdəst aldılar,
Ol ikisi dan nəmazin qıldılar.
Danlə gəldi qamu bəglər qapiyə,
Yusif üçün cümlə durdı tapiyə.
Gəldi həmmamə çün ol mahi-münir,
Doldu həmmamin içi müşkü əbir.
Aldilər geri sərayə gəldilər,
Bir neçə gün eyşə məşğul oldilər.
Həq-təala bunləri şad eylədi,
Qüssədən, qayğıdən azad eylədi.
Bir-biriylə qaldilər neçə zəman,
Yusif ana olmuş idi mehriban.
Həm Züleyxa taətə məşğul olur,
Eşqi taət xatirinə yol bulur.
Taətə dəgşirdi Yusif eşqini,
Tənri dərgahinə tutdu üzini.
Yapışıb məgər ol dəm Yusif ana,
Kəndözün çəkər Züleyxa bir yəna.
Ta ki yarılır Züleyxa kömləki,
Döndü aydır, Yusif, ey din bəgi.
Kömləgim yarıldı uş bənim dəxi,
İkimiz olduq bərabər, ey səxi.
Bir-biriylə xoş keçərlərdi bunlər,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir-biriylə eyş edərdi bunlər.
Beş oğlan doğdu bunlər, iki qız,
Uş təmam oldu bu qissə, ey əziz.
Buncə dövran bir-biriylə sürdülər,
İyi, yavuz belə həm gördülər.
Bir yerə cəm' oldilər qəmu qövmi bilə
Yusifin qərdaşləri Yə'qub ilə.
Həsrət idi bir-bir bunlər qəmu,
Afiyət təkrar gördü, ey əmu.
Xətm oldu uşdə bundə dasitan,
Həm qisəs hökmün rəvayət eylə can.
Quş dənizdən nə qədər ağziylə
Alır isə ol qədər gəldi dilə.
Kim yetirə bu sözə şərhi-bəyan,
Bində birisi eylədik həman.
Bən dəxi yüz bində birin söylədim,
İrdikincə qüvvətim, şərh eylədim.
Neçələr kim, söylədi bu dasitan,
Buncılayın qılmadı şərhi-bəyan.
Bən zəif, bən günahkar fəqir,
Söylədim bu dasitani-binəzir.
Yedi yüz altmış səkizdə söylədim,
Buncılayın dastan şərh eylədim.
Pəs çaharşənbə günü başladim,
Yekşənbə günündə xətm eylədim.
Ol nişan ilə ki, şeyxi-kainat,
Seyyid ol dəmdə gəlmiş idi vəfat.
Seyyidi-Zülfüqar, ol gənci-din,
Ol vəliyüllahi-imamil-müslimin.
Ol zəmandə qılmadı rəhmət əz cəhan
Kim, söyləndi işbu dasitan.
Dasitani-gülistani-binəzir,
Bu dastandır huri-cənnət, ey əmir,
Qıl təmaşə eylə, budur dasitan

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kim görəsin hezaran gülüstan.
Qanı anlər kim, cəhanə gəldilər,
Qalmadilər qamu bunlər öldülər.
Qanı ol Yusif, Züleyxa? Qalmadı,
Anlarə bu hüsni-baqi qalmadı.
Qanı İbrahim, İsmail, ol dəxi,
Qanı İshaq ilə Yə'qub, ey səxi?
Qanı Davud, ol xəlifə gəldi bil,
Ya Süleyman təxtini götürdü yel?
Qanı Musa, Kəlimullah idi,
Qanı İsa kim, ruhullah idi?
Qanı ol fəxri-cəhan, xeyrül-bəşər,
Ol Məhəmməd Mustafa kim, ey pəsər?
Vəzzüha gəldi sifatı, bil yəqin,
Vəsli lövlak dedi ol müin.
Fanidir, bilin, bu dünya, gəl sözə,
Qalmadı dünya ona, qalmaz bizə.
Qanı anlər kim, cəhani-yar idi,
Olmıya bu dünya bənim, der, idi.
Qalmədilər bundə əshabi-giram,
Getdilər bu dünyadən cümlə təmam.
Qanı harut, qanı Maruti-şux,
Qanı İdris, qanı Əyyub, qanı Nuh?
Qanı İsgəndər, qanı Fəğfur şah,
Qanı Cəmşid, qanı ol zərrinkülah?
Qanı Qarun ilə haruni-fəqir?
Yerə geçdi, mərhum oldu Zərir.
Qanı anlər kim, bu dünya malini
Cəm qıldı, gördü dünya halini?
Əmr gəldi kəndözünə bivəfa,
Yol yarağın eylə bu gün, ey səfa.
Dövlətü mənzil çoxdurur həm iləri,
Həm kim, bilmədi qaldı andə geri.
Hər kim aldı, bundə bilgil, ey əziz,

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ondə birinə on götürər, ey təmiz.
Bənliginə qalmıya bu dünyanın,
Sana andə faidəsi yox anın.
Övrət, oğlan, malü mülki issi yox,
Qamu düşmandır sana, ey könlü tox.
Yazanı, oxuyanı, dinliyəni
Rəhmətinlə yarlığağıl, ya qəni.

*Failatun failatun failat,*
*Ver Məhəmməd Mustafaya səlavat.*

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

# ƏSKİ AZƏRBAYCAN SÖZLƏRİ LÜĞƏTİ

## A

Acıq – aclıq
Ağır – böyük, sanballı, sayca çox; qiymətli, dəyərli, bahalı
Axmaq – meyil etmək; *məc.* könül vermək
Al – hiylə, yalan, məkr, kələk; biclik, fənd
Aldamaq – aldatmaq, hiylə işlətmək, kələk gəlmək
Arı – təmiz, saf, duru
Arılıq – təmizlik, saflıq
Arıtmaq – təmizləmək, saflaşdırmaq
Aydı vermək – xəbər vermək, söhbət açmaq
Ayıtmaq – demək, söyləmək
Ayrıq – ayrı, başqa, özgə

## B

Baş – yara, çiban
Bay – bəy, dövlətli, zəngin; xoşbəxt
Bayıq – dəqiq, doğru, dürüst, gerçək, həqiqi, əsl
Bilmək – tanımaq
Buğday – buğda
Bulmaq – tapmaq, əldə etmək
Buluşmaq – tapışmaq; görüşmək, qarşılaşmaq; rastlaşmaq, qovuşmaq
Bükülmək – aciz olmaq, basılmaq, darda qalmaq

## Ç

Çatlamaq – partlayıb ölmək
Çav – şan-şöhrət, nüfuz; səs, səda, xəbər, şayiə
Çələb – allah

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çəri – əsgər; qoşun, ordu
Çözmək – açmaq

**D**

Danla / tanla – sübh, səhər çağı dan vaxtı
Danlamaq / dana qalmaq / tanlamaq / tana qalmaq – heyrətləmmək, heyrətdə qalmaq, təəccüblənmək
Daş / dışarı – xaric, bayır; xarici görünüş
Dəgmə – təsadüfi; hər yetən şəxs
Dəgmək – çatmaq, yetmək
Dəgşirmək – dəyişmək
Dərilmək – yığılmaq, toplanmaq, cəmləşmək
Din – sakit
Dinlənmək– dincəlmək, dincini almaq, istirahət etmək, rahatlanmaq
Dişi – qadın
Don – paltar

Doylamaq – yedirib-içirmək, doyurmaq; ziyafət vermək
Duruşmaq – səy etmək, çalışmaq, cəhd göstərmək; vuruşmaq, çarpışmaq, savaşmaq, çəkişmək, müqavimət göstərmək; tablamaq
Duş – yuxu, röya
Dügün – toy, şənlik
Dükəli – çox; bütün, bütünlüklə, büsbütün, tam, tamamilə, hamısı
Dün – gecə
Düzmək– düzəltmək, hazırlamaq, qurmaq, etmək

**E**

Ertə – sabah, səhər

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Ə

Ər – igid, cəsur, qəhrəman
Ərən – igid, cəsur, qəhrəman, hünərli
Əsirgəmək – qorumaq; rəhm etmək
Ətmək – çörək

## G

Gedərmək / gedirmək – yox etmək, kənar etmək; təmizləmək
Görk / görüm – surət, camal, görünüş; görkəm
Görklü – gözəl, göyçək; mübarək

## X

Xırsız – oğru, quldur; düşmən

## İ

İkən – çox, ziyadə, olduqça, son dərəcədə
İlətmək – aparmaq, göndərmək, yetirmək, çatdırmaq
İraq – uzaq
İrmək / irişmək – yetmək, yetişmək, çatmaq, birləşmək, qovuşmaq
İsmarlamaq – tapşırmaq
İss – yiyə, sahib
İşləmək – etmək; fəaliyyət göstərmək; yerinə yetirmək
İyi – yaxşı

## K

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kələçi – söz, söhbət, məsləhət
Kiçi – kiçik
Kişi – adam, insan
Kömlək – köynək
Köşk – saray, qəsr

**Q**

Qaxımaq – acıqlanmaq, qəzəblənmək qeyzlənmək, özündən çıxmaq
Qaxmaq – vurmaq, (qapını) döymək
Qanmaq / qandırmaq – susuzluğu söndürmək, doyuzdurmaq; qane etmək, tə’min etmək
Qarı – qoca, yaşlı; köhnə, qədim
Qarındaş – qardaş
Qat – hüzür, yan, qarşı, qabaq
Qatı – bərk, sərt, möhkəm, amansız; çox, olduqca
Qayğırmaq – qışqırmaq, çığırmaq, çağırmaq, səsləmək
Qılmaq – etmək
Qızlıq – qıtlıq, qəhətlik; aclıq, bahalıq
Qolay – yüngül, asan
Qoldaş – yoldaş, silah və sənət yoldaşı
Qonmaq – düşmək, yerləşmək, məskən salmaq; oturmaq
Qulaq urmaq – qulaq asmaq, dinləmək, diqqət kəsilmək

**N**

Nəsnə – şey, əşya

**O**

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Oxumaq – çağırmaq, səsləmək; də’vət etmək

**Ö**

Ög – ana; ağıl, huş, düşüncə
Önərmək– düzəlmək; yaxşılaşmaq
Öylə – günorta yeməyi

**S**

Saxlamaq – gizləmək, qorumaq
Səmüz – kök, yağlı
Sin – məzar
Sunmaq – uzatmaq, təqdim etmək
Sürmək – sürtmək

**T**

Tamu / tamı – cəhənnəm
Tanuq / tanıq – şahid
Tapança – sillə, yumruq
Tapınmaq – sitayiş etmək, səcdə etmək
Tapu / tapı – hüzur; qulluq, xidmət, səcdə, təzim
Taşra / tışra– xaric, bayır; eşik, çöl; çöl tərəf
Tutmaq – qoruyub saxlamaq

**U**

Uçmaq – cənnət
Ulalmaq – böyümək, boya-başa çatmaq
Ulu – böyük
Urmaq – vurmaq

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Uru durmaq – dik qalxmaq, sıçrayıb ayağa qalxmaq.

Uss – ağıl, huş, düşüncə

Uyqu – yuxu

**Ü**

Ün – səs, səda

Üşmək – yığışmaq, toplaşmaq, axışıb gəlmək

**V**

Vari – bütün, hamısı

Varmaq – getmək

**Y**

Yağma / yəğma – talan, qarət, çapqın

Yaraq qılmaq – hazırlıq görmək, tədarük görmək, hazırlaşmaq

Yarlığamaq – bağışlamaq, əvf etmək, rəhm etmək, iltifat göstərmək

Yavlaq / yəvlaq – çox, ziyadə, olduqca, son dərəcədə

Yavuz – bəd, sərt, yaman, amansız, qəddar; qəzəbli; məlul, kədərli

Yazı – çöl, səhra, düzən, biyaban

Yazıq – günah, təqsir, qüsur; qəbahət; eyibli

Yazmaq – rəsm etmək, bəzəmək; təsvir etmək

Yek – yaxşı

Yemiş – meyvə, bar, bəhər

Yeyəcək – yemək, qida, təam

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Created by Neevia Personal Converter trial version http://www.neevia.com